Əli Cabbarov

# Bu yol Şuşa yoludur





## Əli Xeybər oğlu Cabbarov

İqtisad üzrə fəlsəfə doktoru, dosent

1970-ci ildə Şahbuz rayonunun Kükü kəndində müəllim ailəsində anadan olub. 1995-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetini bitirib. 2000-ci ildən Naxçıvan Dövlət Universitetində, 2006-cı ildən "Naxçıvan" Universitetində elmi-pedaqoji fəaliyyətini davam etdirir. 2011-ci ildən Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabinetinin orqanı olan "Şərq qapısı" qəzetində çalışır. 2020-ci ildən www.mia.az xəbər portalının köşə yazarıdır.

Səkkiz kitabın, 90 elmi və "Azərbaycan", "Xalq qazeti", "Respublika", "Şərq qapısı" qəzetlərində və www.mia.az saytında dərc olunmuş, ümumilikdə, 1200-dən artıq publisistik məqalənin müəllifidir.

**Əli Cabbarov**

# Bu yol Şuşa yoludur

***Publisistik məqalələr toplusu***

**QƏHRƏMAN**
***ŞƏHİDLƏRİMİZİN***
**XATİRƏSİNƏ**

**Naxçıvan -2022**

*Şuşa ilinə töhfə olaraq hazırlanmış bu kitabda müəllifin 2004-cü ildən başlayaraq erməni faşizminin və onu bəsləyən qüvvələrin ifşası, həmçinin Qarabağ, Şuşa sevgisi motivləri üzərində Respublika, Xalq qazeti, Şərq qapısı qəzetlərində, həmçinin www.mia.az, www.axar.az, www.aqreqator.az, www.moderator.az saytlarında dərc olunmuş publisistik məqalələri toplanmışdır.*

**Əli Cabbarov. Bu yol Şuşa yoludur.** *Naxçıvan-2022 "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 136 səh.*

4700000000
053-2022

**© "Əcəmi" 2022**

# Ön söz

***Böyük və güclü Azərbaycan! Qarabağ! Şuşa!…***

Bütün bu kəlmələr son 30 ildən artıq bir müddətdə xalqımızın hər bir fərdini, müstəqil ölkəmizin hər bir vətəndaşını düşündürən mövzulardan olmuşdur. Yenidən müstəqilliyinə qovuşmuş Azərbaycanın qarşılaşdığı xain işğal, haqsız ikili standartlar uzun müddət ölkəmizin sosial-iqtisadi inkişafı önündə böyük problemlər yaratmış, xalqımızın həyatında dərin yaralar açmışdır. 2020-ci ilin 10 noyabrında Müzəffər Azərbaycan Ordusunun şanlı Qələbəsi ilə başa çatmış İkinci Qarabağ müharibəsi sonunda erməni təcavüzünə son verilməsi ilə yaranmış yeni vəziyyət isə bütün bölgədə dayanıqlı sülhün bərqərar edilməsi və işğalçı dövlətə bu reallığı qəbul etdirib, hər cür revanşizm cəhdlərini yox etməkdir. Bu mənada, erməni vandalizminin cinayətkar izlərinin bütün dünyaya faş edilməsi ilə yanaşı Şanlı Ordumuzun dəmir yumruğundan sərsəmləyən işğalçı dövlətin düşdüyü biabırçı vəziyyəti də işıqlandırmaq bu cür revanşizm xülyaları ilə yaşayanları yerinə oturmaqda güclü təbliğat mexanizmlərindən biridir. Bu vacib sahədə, ölkəmizin mətbuat orqanlarında öz imzası ilə tanınmış Əli Cabbarovun müxtəlif mövzularda qələmə aldığı məqalələr özünün oxunaqlığı ilə seçilməkdədir.

Müharibə və işğalın qorxularından danışmaq acıvericidirsə, azadlıq və qalibiyyətdən də danışmaq, əksinə, insanları sevindirən, onların ülvi duyğularını alovlandıran gözəl hislərdir. Bu mənada, Əli müəllimin yazılarında doğma yurd-yuvalarından didərgin düşmüş insanların faciələrinə səbəb olmuş erməni faşizminin hər cür təzahürlərinə qarşı mübarizə, terroristi baş qaldırmadan yuvasındaca dəmir yumruqla əzmək, onun insanlığa qarşı cinayətlərinin arxazəminini ifşa etmək kimi motivlər əsas konturlardır. Dünya tarixində heç bir insani varlıq göstərə bilməyən, əvəzində qondarma dövlət iddaları ilə son iki yüz il ərzində Azərbaycan və Türk xalqlarının ərazilərinə göz dikərək ən mənfur hərəkətlərdən çəkinməyən

erməni etnosuna törətdiyi hər cür əməllərə görə layiq olduğu cəzanın verilməsi, ölkəmizə qarşı törətdiyi təcavüz əməllərinin vurduğu maddi və mənəvi zərərlərə görə təzminat ödəməyə məcbur edilməsi istəyi bu məqalələrdəki fikirlərin əsas özəyidir. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyevin torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində döyüş meydanında və diplomatiya cəbhəsində apardığı qətiyyətli mübarizədən və qazandığımız parlaq Qələbədən sonra Qarabağın yenidən dirçəldilməsi və Böyük Qayıdış istiqamətində aparılan genişmiqyaslı işlərdən ruhlanan hər bir vətəndaş kimi Əli Cabbarov da bu tarixi proseslərə biganə qalmamaqla kitabda yer almış yazıları ilə düşüncələrini oxucularla bölüşür. "Şuşa ili"nə ithafən nəşr olunan bu kitab məhz buna görə də maraq kəsb edir.

Şuşa Azərbaycanın incisi, Qarabağın gözü, Mədəniyyət paytaxtımızdır. Şuşanın düşmən işğalından qurtarılması ilə xalqımızın qürurunu özünə qaytaran Şanlı Ordumuzun Böyük Zəfəri yüzillər sonrasında da dillər əzbəri olaraq əbədi yaşadılacaqdır. Şuşada olmaq, Cıdır düzündən Vətənimizin mavi səmalarında bərq vuran Günəşlə salamlaşmaq, xan qızı Natəvanın bulağından su içib, Şuşa qalası ilə qucaqlaşmaq hər bir azərbaycanlının və Azərbaycana "Can" deyən hər bir kəsin ən gözəl arzularından biridir. Məhz buna görə, Şuşaya aparan Zəfər Yolunun dastanını yazan qəhrəman ŞƏHİDLƏRMİZİN ruhunun yaşadığı hər daşı, hər qayanı öz gözləri ilə görən bütün həmvətənlərmizin ürəyində bir gün mütləq Böyük Azərbaycana qovuşmaq arzusu da boy atır. Həmin gün bütün bölgəmizin başı üzərindən qara buludlar birdəfəlik yox olacaq, Bakıdan Təbrizə, Zəngəzurdan Naxçıvana aparan yollar da Şuşa yolu qədər şanlı və müqəddəs olacaq.

**"Şuşa ili"niz mübarək, əziz oxucular!**

***Şəlalə Cabbarova***
***Naxçıvan şəhər Heydər Əliyev adına məktəbin***
***dil-ədəbiyyat müəllimi***

# Erməni terrorizmi və onun təbligat eybəcərlikləri

Müasir dünya XXI əsrə misli görünməmiş dəhşətli terror hadisələrinin sarsıntıları ilə girmişdir. Zaman keçdikcə terrorizm artıq bütün bəşəriyyət üçün qorxu törədir. Planetimizin müxtəlif bölgələrində törədilən qanlı terror hadisələri bütün tərəqqipərvər bəşəriyyəti bu dəhşətin qarşısını almağa, onun kökünü kəsmək üçün səyləri birləşdirməyə məcbur edir. Bəşəriyyət tarixində çoxlu müharibələr, zorakılıqlar olmuşdur. Dünyanın müxtəlif bölgələrində yaşayan bir sıra millətlər, etnik qruplar, vaxtaşırı terrora məruz qalmış, maddi-mənəvi ziyan çəkmiş, öz doğma yurd-yuvalarından zorla sürgün edilmiş, öldürülmüşlər. Bu kimi hadisələr haqqında tarixi, ədəbi mənbələrdə kifayət qədər geniş məlumatlar verilib. Unutmayaq ki, bir çox terror və zorakılıq əməlləri təkcə həmin dövrün yaddaşı içərisində ilişib qalmamış, ədəbi-folklorik simvolik əlamətlərini gələcək nəsillərə qədər daşıyaraq fürsət yarananda yeni terror hadisələrinin ilhamçısına, ideoloji zəmininə çevrilmişdir. Bu yazıda terror və təcavüzlərdən öz nəsibini almış bir azərbaycanlı kimi belə tarixi-ideoloji köklərin aşkar edilməsi baxımından maraqlı olan bəzi hadisələrə birgə nəzər salmaq istərdik. Məqsədimiz, tarix boyunca terroru və soyqırım siyasətini özlərinin aparıcı ideologiyasına çevirmiş erməni terrorizmi və onun simvollarından biri kimi tanınan — **“Ararat”** nişanının Ermənistandakı təbliğatına, onun qardaş



Türkiyə Cümhuriyyətinə və nə qədər acınacaqlı olsa da, bizim ölkə mətbuatına keçmiş olan sızıntılarına nəzər salmaqdır. Tarixi həqiqətlər, məruz qaldığımız faciələr keçmişə və bu günə doğru mövqedən baxmağı bizdən tələb edir. Çünki biz Azərbaycan vətəndaşları Yer kürəsinin başqa heç bir yerində bənzərinə rast gəlinə bilinməyən 10 minlərlə kvadrat kilometr işğal olunmuş ərazilərimizi, bir milyondan artıq qaçqın və köçkün insanlarımızın ağır vəziyyətini, talanmış tarixi və mənəvi sərvətlərimizi, iqtisadiyyatımıza vurulan on milyard dollarla ölçülən zərərləri unuda bilmərik. Bu reallığın səbəbkarının isə bəzi dövlətlərin dəstək və himayəsindən daha da quduzlaşan Ermənistan dövlətinin olması artıq bütün dünyaya məlumdur. Erməni terrorunun hədəfləri Türkiyə Cümhuriyyəti və müstəqil Azərbaycan dövləti, ümumilikdə Türk Dünyasıdır. Onlar artıq 100 ildən çoxdur ki, bizlərə qarşı əsl soyqırım siyasəti həyata keçirirlər. Təəssüf ki, onlara bu işdə dəstək verən xarici qüvvələr də vardır. Onlar unudurlar ki, **terrorizm** təkcə bir ölkə üçün yox, bütün dünya üçün ciddi təhlükə mənbəyidir. Bunu 2001-ci il sentyabrın 11-də ABŞ-da törədilmiş terror hadisələri bir daha sübut etdi.

Məlumdur ki, terrorist yalnız insanları cismani məhv etməklə kifayətlənmir, o həm də onların coğrafi ərazisini əlindən almaq, sərvətlərini qarət etmək, tarixini yox edib özününküləşdirmək məqsədi güdür. Erməni terrorizmi bu baxımdan daha təhlükəlidir. İndi artıq dünya xalqları iqtisadi inkişaf naminə qloballaşma prosesinə qoşulduğu, irimiqyaslı regional layihələr həyata keçirdiyi bir vaxtda qonşu dövlətlərə qarşı xəbis niyyətlərdən əl çəkməyən ermənilər özləri təklənmişlər. İqtisadi-sosial vəziyyətlərinin günü-gündən daha da pisləşməsi ucbatından ermənilər Ermənistanı tərk edərək dolanışıq üçün xarici dövlətlərə üz tutublar. Ermənistan böhran içərisində olsa da öz torpaq iddialarından və xəbis niyyətlərindən əl çəkmək istəmir. Belə ki, müstəqillik qazandıqdan sonra, digər postsovet respublikaları kimi onlar da

öz milli valyutalarını tədavülə buraxmışlar. Ancaq hər bir ölkənin mühüm dövlət atributlarından biri olan milli pul nişanı üzərində başqa bir dövlətin ərazisində yerləşən hər hansı bir obyektin təsvir olunması isə müasir dünyada yalnız Ermənistan Respublikasının timsalında rast gəlinən bir hadisədir. Erməni milli pul vahidi olan — **dramanın** üzərində müxtəlif erməni simvolları ilə yanaşı, tamamən Türkiyə Cümhuriyyəti ərazisində olan və heç bir zaman heç bir erməni üsul-idarəsinə mənsub olmamış **Ağrı dağının** rəsminin təsvir olunması ən azı siyasi fitnəkarlıqdan başqa bir şey deyildir. Bundan əlavə, həmin pul nişanı üzərində Ağrı dağının Naxçıvandan olan görüntüsünün təsvir olunması isə xain qonşularımızın torpaq iddialarının haralara qədər gedib çıxdığının əyani göstəricisidir. Əlbəttə, biz bədnam qonşularımız tərəfindən Ağrı dağı və ətrafındakı Araz çayı vadisinin — "Ararat" adı ilə erməniləşdirilməsi ideyaları ilə çoxdan tanışıq. Nuhun gəmisi əfsanəsində də adı çəkilən və bütün dünyada məşhur olan bu dağın ermənicə adı keçmiş Sovet Ermənistanında bir çox küçələrə, ictimai yerlərə, kollektiv təsərrüfatlara, stadionlara və hətta futbol komandalarına da verilmişdi. İndi isə həmin dövrlərin tarixə çevrildiyi bir şəraitdə ermənilərin bu fitnəkar əməlləri üçün yeni fürsətlər yaranmışdır. Artıq onlar "Ararat" təbliğatına yuxarıda göstərdiyimiz misallardan başqa heç şübhəsiz digər vasitələrlə də — firma adı, əmtəə nişanı, Ermənistan təyyarələrinin gövdələri və s. ilə də nail olmaq istəyirlər. Təəssüf ki, belə hallara qarşı olan ümümi laqeydliyimizin nəticəsində bu çirkin təbliğat artıq bizim respublikamıza da yol açmaqdadır. Biz bu təbliğatın Azərbaycan mətbuatında da özünə yer tapmasına yol verməməyə çalışsaq da, Bakıda ingilis dilində nəşr olunan həftəlik "Baku Sun" qəzetinin 30 aprel 2004-cü il nömrəsində dərc olunmuş "Expedition to seek Noah's Ark" başlıqlı yazını oxuyanlar bu sahədə bizim özümüzdə nə qədər nöqsanların olduğunu görə bilərlər. Təəssüf ki, xarici mətbuatdan

götürülmüş bu yazıda Ağrı dağının adının erməniləşdirilməsi faktına diqqət yetirilməyib. Belə yazıları azərbaycanlı oxuculara təqdim edərkən coğrafi adlarımızı, tariximizi dəqiq verməyə borcluyuq. Əmin olmaq istəyirik ki, həmin qəzetin azərbaycanlı redaksiya üzvləri bizim hamımızla bərabər belə bir incə, lakin mühüm məsələdə ayıq-sayıq olacaqlar.

***"Respublika", 16 may 2004-cü il***

# BU YOL ŞUŞA YOLUDUR




Qarabağdan səsi gələn igidlərim var olsun,
Xankəndinə gedən yolda Allah sizə yar olsun,
Torpağımı tapdalayan düşmən tar-mar olsun.
Xarı bülbül tənha qalıb həsrətindən solubdur,
Uğur olsun ey əsgərim, bu yol Şuşa yoludur!

***

Qubadlıda izim qalıb, ata yurdum öz yerim,
Kəlbəcərə sözüm qalıb, istəmirəm söz verim,
İstisuda gözüm qalıb, istəyirsən göz verim.
Laçınımın qəlbi qırıq, gözü yaşla dolubdur,
Uğur olsun ey əsgərim, bu yol Şuşa yoludur!

***

Murovdağda zəfər çaldın yayıldı səs-sorağın,
Füzuliyə yol açıldı mübarəkdir ayağın,
Xudafərin çox gözləyib Azərbaycan bayrağın.
Arazımın üzü güldü, ürək sözlə doludur,
Uğur olsun ey əsgərim, bu yol Şuşa yoludur!

***

Yaradandan qüvvət aldın, O qoruyur sizləri,
Gəncəmizin göz yaşları yaraladı bizləri,
Xocalıda al qisası, qoyma qalsın izləri.
Vur əsgərim, vuran qolun Şah İsmayıl qoludur,
Uğur olsun ey əsgərim, bu yol Şuşa yoludur !

***MİA.AZ, 22 oktyabr 2020-ci il***
***https://www.mia.az/w1000328/bu-yol-susa-yoludur-2020-10-22-173243***

# Azərbaycan əsgəri dünyanı erməni faşizmindən xilas edəcək...

*Bu gün böyük və güclü Vətənimiz tarixi sınaq içindədir. Elə bir sınaq ki indi bütün dünya xalqları sülh və rahatlıq içində yaşasalar da, qismətinə xain ermənilərlə qonşuluqda yaşamaq düşmüş Azərbaycan bir yumruq kimi səfərbər olub düşmənlə çarpışır. Düşmən isə məkrlidir. İllərlə yaşadıqları Azərbaycan torpağının çörəyini yeyib, suyundan içən ermənilər türklərə qarşı bəslədiyi nifrətlə, sanki indi bütün dünyanın boğazına yapışaraq hər yerdə qan axtarırlar. Amma düşmən nə qədər qəddar, nə qədər amansız olsa da, onun qarşısında güclü Azərbaycan Ordusu dayanıb.*

Qarabağ Azərbaycandır! İndi bu şüar ölkəmizdə kiçikdən-böyüyə hər kəsin dilində bir müharibə marşı kimi səslənir. Vətənimizin dilbər guşəsi, Üzeyir nəğməli, Bülbül səsli Qarabağın, nəhayət ki, düşmən işğalından azad edilməsi zamanı gəlib çatıb. Ali Baş Komandanımızın əmri ilə irəliyə doğru əks-hücuma keçən Azərbaycan əsgəri hamımızın həsrətində olduğu o müqəddəs torpaqlara qovuşdurur bizi. Orada bizi gözüyaşlı Kəlbəcər, Şuşa, xanimanı tar-mar olmuş Qubadlı, qanadı qırılmış Laçın gözləyir. Sentyabrın 27-də Ermənistan ordusunun növbəti təxribatına cavab olaraq başladılan əks-hücum əməliyyatları nəticəsində uzun müddət işğalda qalmış Azərbaycan torpaqlarının xeyli hissəsinin qısa müddət ərzində azad olunması, eləcə də böyük dövlətlərin bu münaqişənin həllindəki maraqları və Vətənin müdafiəsinə qalxmış müzəffər


Azərbaycan əsgəri dünyanı erməni faşizmindən xilas edəcək

İlkin tibbi yardımın təşkilinə dair təlim-treninq

ordumuzun **erməni faşizmi** üzərindəki parlaq qələbələri çox yaxında digər torpaqlarımızda da üçrəngli bayrağımızın dalğalanacağını, ədalətli sülhün bərpa olunacağını deməyə əsas verir.

Bəşəriyyət tarixində İkinci Dünya müharibəsi qədər genişmiqyaslı və dağıdıcı bir müharibə olmasa da, riyakar erməni faşizminin yaratdığı təhlükəni, sözün əsl mənasında, dost-düşmən tanımayan qlobal pandemiya ilə müqayisə etmək olar. Bu təhlükə xərçəng kimi yayılıb, heç gözlənilməyən yerlərdə peyda olub, qoca-cavan, qadın-uşaq demədən amansızlıqla hər kəsi qətl yetirməyə hazırdır. İş o yerə çatıb ki, erməni faşizmi, hətta alman faşizmindən nəsibini almış bir sıra ölkələrdə də virus kimi yayılmaqdadır. İkinci Dünya müharibəsinin lap əvvəlində almanlara cəmisi 40 gündə boyun əymiş Fransanın tam olaraq indi də erməni faşizminə təslim olması, əslində, bu canavarın nə qədər təhlükəli olduğunu bir daha sübut edir.

Hələ yaxın keçmişdən XXI əsrin Türk dünyası əsri olacağını proqnoz edirdilər. Zaman gecikmədi. Və indi bunun şahidiyik! Gördük ki, maddi zənginlik içərisində itib-batan, amma mənəviyyatca bataqlıqda çürüyən Qərb Uca Tanrının kiçik bir imtahanı qarşısında nə qədər aciz qaldı! Nə mütərəqqi texnologiya, nə iri kapital, nə də başqa xalqların üzərindəki hökmranlıq iddiası onların köməyinə çatmadı. Çünki zaman elə zamandır ki, onun çarxı dolandıqca vaxtaşırı gücünü bütün dünyaya göstərib hər şeyi öz tarazına qoyur. 2020-ci ildə də belə oldu. Hazırda bəşəriyyət gözəgörünməz virusun kökünü kəsmək üçün mübarizə apardığı bir dönəmdə Azərbaycan xalqı bir yumruq kimi birləşib son yüzilliyin probleminə birdəfəlik son qoymaq savaşına qalxıb. Bu, bir az dolanışıq tapan kimi vaxtaşırı baş dikəldib, təkcə azərbaycanlılara deyil, yaşadıqları hər yerdə bütün xalqlara xəyanət edən, fürsət düşən kimi hər cür alçaq əməldən çəkinməyən **soysuz ermənilərin** qanına işləmiş faşizmə qarşı savaşdır.

Erməni faşizminə qarşı mübarizə, sadəcə, Qarabağ torpağının azadlığı üçün aparılan müharibə ilə bitmir. İndi heç kimə sirr deyil ki, özlərini hər yerdə məzlum millət kimi qələmə verib siyasi alət olmaqdan zövq alan ermənilər dünya ölkələrində işə saldıqları konyak diplomatiyası və digər özlərinə yaraşan üsullarla asanlıqla ələ aldıqları siyasətçilər və onların dairələri vasitəsilə diasporlaşıb dənizlərə çıxmaq planları ilə yaşayırlar. Tarixboyu qətiyyətli siyasətçilər tərəfindən dəfələrlə qarşısı alınmış belə sərsəm xülyalar zaman-zaman bulanıq dövrlərdə özünə münbit yer tapmış və nəticədə, yüz minlərlə günahsız insanın ölümünə, milyonlarla insanın qaçqın düşməsinə səbəb olmuşdu. Odur ki, Qarabağın erməni terrorundan təmizlənməsi uzun illər ərzində cəzasız qalmış cinayətkar rejimin dünyada formalaşdırdığı təbliğat köpüyünün də havaya uçması deməkdir. Bu, həm də Gəncə, Mingəçevir kimi cəbhə xəttindən xeyli uzaqda yerləşən şəhərlərdə yaşayan dinc sakinləri hədəf alaraq son çırpınışlarını edən erməni faşizminin və onun havadarlarının iç üzünün tamamilə açılması deməkdir. Artıq aydın görünən mənzərə odur ki, heç bir dünya dövləti, hətta bir ay öncə Ermənistana açıq dəstək verənlər belə, ən yaxşı halda neytral mövqedə qalmaqla, necə deyərlər, səhvlərini başa düşüblər.

Ermənilər hiylə qurmağa çox ustadırlar. Faşizmə bulaşmış, türk qanına susamış ermənilər hiyləgər olduqları qədər, həm də qorxaq və acizdirlər. Hətta erməni şairi Yeğişe Çarens də öz milləti haqqında belə yazıb: **“Ermənilərdə riyakarlıq ana bətnində olarkən yaranır”.** Görünür, uşaqlıqda Osmanlı çörəyi yemiş bu insan XX əsrin əvvəllərindəki o mürəkkəb dövrlərdən yaxşı dərs çıxarıb ki, bu kəlmələri yazıb. Ermənilərin heç zaman bir dövləti olmadığını yazan Qevorq Aslan isə **“Ermənilər harada çörək boldursa, oranı özlərinə vətən hesab ediblər”** yazıb. Belə yazılı tarixi faktları çox misal gətirmək olar. Ancaq elə sonuncu misaldan da göründüyü kimi adları belə, başqasının olan ermənilər həm də oğrudurlar. Qarabağda zəbt etdikləri qədim Azərbaycan məskənlərinə uydurma adlar yapışdıran ermənilər yeri gəldi, gəlmədi, hətta yemək adlarını, mahnıları, musiqi alətlərini də erməniləşdirməyə çalışırlar. Ancaq bu bədbəxtlər

bilmirlər ki, artıq nə 100, nə də 30 il əvvəlki dövrdür. Dünya qloballaşır və əslində, bütün sağlamdüşüncəli insanlar bir məqsəd – yaxşı yaşamaq üçün yaşayıb, işləyirlər. Göyçədə məskunlaşmış, babasının haradan gəldiyini bilməyən zavallı sadə erməni bilmir ki, onun sərsəm ideoloqları on illər uzunu Azərbaycanın milli musiqi aləti olan **balabanı** "düdük"adı ilə milliləşdirmək üçün izafi vaxt itirdiyi dövrdə, dünya riyaziyyatı öyrənib, mühəndislər yetişdirib və indi onun işğalçı ordusunu başı üstündən, 90 dərəcəli bucaqdan vurur. Bax, budur erməni faşizminin gəldiyi nöqtədə onu gözləyən ən ədalətli cəza! Bu saatdan sonra artıq nə havadarlarına səxavətlə verdikləri bahalı canlı və cansız hədiyyələr, nə diplomatik yalvarışlar, nə də xaricdəki "vətənpərvərləri"erməni faşizminin köməyinə çatacaq. Bu, daxildə də Ermənistan hökumətinin iflasının bir başlanğıcıdır.

**Terror dövləti Ermənistanın** çöküşü, təkcə onun hər sahədə gücsüzlüyü, ianə üzərində qurulmuş iqtisadiyyatının zəifliyi və ideoloqlarının əsəbiliyi ilə əlaqədar deyil. Sovetlərin dağılması ilə keçən 30 il ərzində yeritdikləri qonşularla münaqişə siyasəti ucbatından ən azı onların 60 il gerisinə düşən Ermənistanda siyasi həyatın xronologiyası da acınacaqlıdır. Keçmiş İttifaqda Azərbaycanın sərvətləri hesabına özlərinə güzəran qurmuş ermənilər, müstəqil olduqlarından keçən müddət ərzində bir nəfər də olsun, nə görkəmli siyasi lider, nə də hərbi sərkərdə formalaşdıra bilmədi, tam əksinə, dövlət sərhədini böyük qardaşa etibar edib, strateji müəssisələrini də ona uduzdu. Türklər demiş, bunun fərqinə varanda isə artıq çox gec idi. Hay məntiqinə görə çıxış yolu isə etibarsız qardaşın ona sırıdığı köhnə silahları atəşləmək idi. 27 sentyabrda Ermənistan məhz bunu etdi və uduzdu. İşğalçının cavabını bu dəfə yüz qatına verən Azərbaycan Ordusunun indi bir vəzifəsi var: nəhayət ki, dünyanı, elə ermənilərin özlərini də erməni faşizmindən xilas etmək.

***"Şərq qapısı", 24 oktyabr 2020-ci il***

*http://www.oldserqqapisi.az/index.php/idztimai-siaysi/27316-azaerbaydzan-aeszhaeri-dunyan-ermaeni-fashizmindaen-khilas-edaedzaek.html*

# Sahibsiz qalmış Mişa yaxud erməni xislətinin acı sonluğu

Bu gün bütün dünyanın göz-qulağı 30 ilə yaxın bir müddətdə davam edən erməni işğalına son qoymaq üçün şanlı Azərbaycan Ordusunun apardığı əks-hücum əməliyyatından gələn uğurlu xəbərlərdədir. Açıq döyüşdə böyük itiklər verən


Sahibsiz qalmış Mişa və ya erməni xislətinin acı sonluğu...

31-10-2020 [13:38]

Əli CABBAROV,

Naxçıvan Dövlət Universitetinin dosenti

***

**Bu gün bütün dünyanın göz-qulağı 30 ilə yaxın bir müddətdə davam edən erməni işğalına son qoymaq üçün şanlı Azərbaycan Ordusunun apardığı əks-hücum əməliyyatından gələn uğurlu xəbərlərdədir.**

Açıq döyüşdə böyük itiklər verən işğalçı ordunun qaçışı, buna cavab olaraq son çırpınışlarını edən erməni vandallarının Azərbaycanın cəbhə xəttindən yüz kilometr uzaqdakı mülki vətəndaşlarımızı hədəf alması xəbərləri və bir zamanlar yaltaqlıqla ələ aldıqları havadarlarının xarici mətbuatdakı əzab dolu yazıları da gündəmdəki yerini qoruyur. Torpaqlarımızın işğalçı ünsürlərdən təmizlənməsi uğrunda aparılan döyüşlərdə olduğu kimi, Azərbaycanın diplomatik, informasiya və humanitar sahədə də qazandığı uğurları artıq hər kəs tərəfindən, hətta düşmən havadarları tərəfindən də etiraf olunur. Ötən gün ölkəmiz tərəfindən çox böyük humanitar addım atılaraq birtərəfli olaraq 30 erməni hərbçisinin meyitinin və döyüş bölgəsində köməksiz tərk edilmiş mülki şəxsin təhvil verilməsi və eyni zamanda erməni tərəfinin xəstə vəziyyətdəki 84 yaşlı Mişa Melkumyandan imtina etməsi əslində tanış bir

işğalçı ordunun qaçışı, buna cavab olaraq son çırpınışlarını edən erməni vandallarının Azərbaycanın cəbhə xəttindən yüz kilometr uzaqdakı mülki vətəndaşlarımızı hədəf alması xəbərləri və bir zamanlar yaltaqlıqla ələ aldıqları havadarlarının xarici mətbuatdakı əzab dolu yazıları da gündəmdəki yerini qoruyur. Torpaqlarımızın işğalçı ünsürlərdən təmizlənməsi uğrunda aparılan döyüşlərdə olduğu kimi, Azərbaycanın diplomatik, informasiya və humanitar sahədə də qazandığı uğurları artıq hər kəs tərəfindən, hətta düşmən havadarları tərəfindən də etiraf olunur. Ötən gün ölkəmiz tərəfindən çox böyük humanitar addım atılaraq birtərəfi olaraq 30 erməni hərbçisinin meyitinin və döyüş bölgəsində köməksiz tərk edilmiş mülki şəxsin təhvil verilməsi və eyni zamanda erməni tərəfinin xəstə vəziyyətdəki **84 yaşlı Mişa** Melkumyandan imtina etməsi əslində tanış bir mövzunu — **erməni xislətinini** əsl mahiyyətini bir daha gündəmə gətirir. Bəs nədir erməni xisləti?

Qəddar olduqları qədər **hiyləgər, yaltaq, qorxaq, satqın, ac və aciz!** Erməni xislətini ifadə etmək üçün bütün dillərdə olan neqativ kəlmələr kifayət edir. Etik qaydalar çərçivəsində yazıla bilməyən digər ifadələr də sanki hayların boyuna biçilib. Amerikadan Avstraliyaya qədər səpələnib hər yerdə özlərinə dövlət qurmaq xülyası quran bu etnik qrupu əldə

alət edən qüvvələrə də elə bu lazımdır. Çünki mənəviyyatdan uzaq yaşayan hər bir insanı kiçik bir tikə ilə istənilən qəlibə salmaq mümkündür. Və bu çox asandar. Yetər ki, tarixdən yoxsun, dili, əlifbası, ədəbiyyatı, musiqisi, adətləri, hətta mətbəxi də digər xalqlardan **oğurluq** olan bir insan — yəni erməni olsun. Bir balaca şirə gördükdə milçək kimi üzərinə toplaşan, qan gördükdə isə şivən qoparıb əzabkeş donuna girən ermənilərin sadəsindən liderinədək hər birində ortaq bir xüsusiyyət var: **"hay"** olmaq. Yəni onlara görə əgər guya dünyanın ən ağıllısı olub, bütün insanlarla dostluq edən, yaxud hamıdan üstün zəkayla ən çətin problemləri belə asanlıqla həll edə bilən, bununla yanaşı, fürsət yarandıqda xaincəsinə hücuma keçən, çətinliyə düşdükdə isə gözyaşları axıdıb **kömək dilənməkdən** də çəkinməyən bir qəbilə varsa, bu, ermənilərdir! Başqa cür ola da bilməz! Bu, tipik erməni xislətidir.

Erməni xisləti 200 ilə yaxındar ki, Azərbaycan xalqına yaxşı tanışdır. Cənubi Qafqaza köçürüləndən keçən bu dövr ərzində əvvəlcə itaətkarlıqları ilə özlərinə isti yer tutan ermənilər sonrakı dövrlərdə bu həssas coğrafiyada mövqe qazanmaq istəyən Rusiya, İngiltərəyə, daha sonra sovetlər, ondan sonra ABŞ və Fransa dövlətlərinin əlində balta sapına çevrildilər. Hətta İkinci dünya müharibəsi dövründə faşistlərin ola biləcək qələbə ehtimalına qarşı ermənilərin almanlarla işbirliyinə getməsi də təəccüblü deyildi. Hər halda Ermənistanda faşist əlaltısı Qareginə qoyulan abidə də bunu sübut edir. Ona görə də "erməni xisləti" deyəndə, britaniyalı yazıçı Dikson Consonun 1916-cı ildə qələmə aldı "Ermənilər" hekayəsində yazıldığı kimi, — **"onlar heç bir tərəddüd etmədən özlərini və qardaşlarını, qiymətli vətəndaşlarını təsadüfi qazanc, qənimət xatirinə qurban verən insanlardırlır."**

Bəli, bu xislətin varisi olan olan işğalçı Ermənistan ömrünün son günlərini yaşayan Mişanın nə özünü, nə də cəsədini qəbul etmədi. Amma görünür, acı sonluğu onun kimi

olacaq yüzlərlə, bəlkə də minlərlə erməni düşünürmü ki, bunun səbəbi nədir? Sözsüz ki, ermənilər özlərini yaxşı tanıyırlar. Amma onlar bunu heç zaman bilməyəcəklər ki, bunun səbəbi də elə erməni olmaqdadır. Yəni ot kökü üstə bitər! Çünki, mənəviyyat elə bir xəzinədir ki, onu nə **dolma, nə lavaş, nə də balaban** kimi oğurlayıb özününküləşdirmək mümkün deyil. Mənəviyyat gərək insanın zatı-südündən, onun minillərdən süzülüb gələn su yaddaşından gəlsin. Ermənilər də hər yüz ildən bir coğrafiya dəyişib, yüz dərənin suyundan içdiklərindən onların mənəviyyat torbasında bəşəri dəyərlərdən başqa nə desən vardır. Elə buna görə də artıq əli silah tutmayan zavallı Mişa da erməni mənviyyatsızlığının ən son qurbanı oldu. Ermanistan ona sahib çıxmadı! Amma mənim hələ sağ qalmış bir çox mişalara bir xatırlatmam var. Bilirəm ki, əksəriyyətiniz Türk və Azərbaycan dillərini bilirsiniz. Elə isə bizim yaşı min ildən artıq olan Kitabi-Dədə Qorquddan bir misal gətirim: Boyların birində kafirlər tərəfindən evi yağmalanmış Qazan xan düşmənlərindən ilk olaraq anasının sağ-salamat ona qaytarılmasını istəyir. Bax budur Türk olmaq!

Bütün müharibələr bitdiyində sülhə imza atılır. Yəqin ki, bir gün ermənilər də başlatdıqları bu qanlı savaşdan layiqli dərs çıxaracaqlar. Biləcəklər ki, qan gölündə boğulmamaq üçün içlərindəki o mənfur erməni xislətindən azad olmalıdırlar. Əgər bu mümkün olarsa onda bir gün nəhayət ki, özləri də adam olacaq, bütün qonşu xalqlar da rahat nəfəs alacaqlar.

***MİA.AZ, 31 oktyabr 2020-ci il***

***https://www.mia.az/w1000995/sahibsiz-qalmis-misa-ve-yanbspermeni-xisletinin-aci-sonlugu-2020-10-31-133901***

# QUBADLI AŞI (Esse)

Bu gün bizim bayramımızdır. Başaratlıların! Bu günləri çox gözlədik və heç zaman ümidimizi itirmədik. İllər keçdi, şükürlər olsun Uca Yaradana arzularımıza qovuşduq. Bu gün Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev **Qubadlının Başarat kəndinin** də erməni işğalından azad olunmasını rəsmən duyurdu. Və beləcə 2020-ci ilin 4 noyabrı hər birimiz üçün əbədi yaddaşlarda qalacaq bir tarix oldu.

Qarabağ bizimdir! İnşallah lap yaxında Qubadlıya qayıdarıq. Çoxdan həsrətində olduğumuz kəndmizə! Başarat mənə görə dünyanın ən gözəl kəndidir. Bir payız günü sanki Kiçik Həkərinin həfif mehindən üşüyürmüş kimi bir-birinə sığınan qızılı yarpaqların həzin pıçıltısı, sübh erkəndən kəndin hər yerindən duyulan təzə lavaşın ətri və təzəcə dəmə qoyulmuş samovar çayı harada var! Kəndə gəldiyinizdə qabağınıza qaçışan balaca uşaqların soyuqdan allanmış yanaqlarından bir-bir öpdükcə qəlbinizdə yeni həyat rahiyəsi qaynayacaq. Artıq evin kişisi olmuş bizim cavanların ürəyinizə yağ kimi yayılacaq səmimiyyətini və bir də dadından doymayacağınız Qubadlı plovunu heç zaman unuda bilməyəcəksiniz.



QUBADLI AŞI (Esse)

04-11-2020 [19:43]

**Nərmilə Abbasova,**

**Qubadlı rayonu, Başarat kəndi**

***

**Bu gün bizim bayramımızdır. Başaratlıların! Bu günləri çox gözlədik və heç zaman ümidimizi itirmədik. İllər keçdi, şükürlər olsun Uca Yaradana arzularımıza qovuşduq. Bu gün Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev Qubadlının Başarat kəndinin də erməni işğalından azad olunmasını rəsmən duyurdu. Və beləcə 2020-ci ilin 4 noyabrı hər birimiz üçün əbədi yaddaşlarda qalacaq bir tarix oldu.**

Qarabağ bizimdir! İnşallah lap yaxında Qubadlıya qayıdarıq. Çoxdan həsrətində olduğumuz kəndmizə! Başarat mənə görə dünyanın ən gözəl kəndidir. Bir payız günü sanki Kiçik Həkərinin həfif mehindən üşüyürmüş kimi bir-birinə sığınan qızılı yarpaqların həzin pıçıltısı, sübh erkəndən kəndin hər yerindən duyulan təzə lavaşın ətri və təzəcə dəmə qoyulmuş samovar çayı harada var! Kəndə gəldiyinizdə qabağınıza qaçışan balaca uşaqların soyuqdan allanmış yanaqlarından bir-bir öpdükcə qəlbinizdə yeni həyat rahiyəsi qaynayacaq. Artıq evin kişisi olmuş bizim cavanların ürəyinizə yağ kimi yayılacaq səmimiyyətini və bir də dadından doymayacağınız Qubadlı plovunu heç zaman unuda bilməyəcəksiniz.

Plov Azərbaycan mətbəxini şahıdır. Bizim Qarabağ plovunun şöhrəti isə hələ yüzillərdir dillərdə deyilir. Ən əziz qonağa aş süzülüb, təmtəraqla süfrəyə gətirilib. Qonağa hörmət, qonaqpərvərlik bizim ruhumuzda, qanımızdadır. Gözümüzü açandan

SON XƏBƏRLƏR

18:45 14.11.2021
Peyvənd olunanların sayı açıqlandı

18:32 14.11.2021
Azərbaycanda koronavirusa yoluxma artır, ölənlər var - CƏDVƏL

17:38 14.11.2021
ERMƏNİ HƏRBÇİLƏRİ LAÇIN SƏRHƏDİNDƏN GERİ ÇƏKİLMƏYƏ MƏCBUR EDİLDİ

16:52 14.11.2021
Prezident İlham Əliyev məşhur memarın vəfatı ilə bağlı nekroloq imzalayıb - MƏTN

16:23 14.11.2021
9 deputat Saakaşviliyə görə aclıq aksiyasına başlayıb - Gürcüstanda gərginlik böyüyür

15:40 14.11.2021
Suriyada terrorçular hərbçiləri pusquya salıb, 13 nəfər həlak olub

15:14 14.11.2021
ERMƏNİSTAN HƏRBÇİLƏRİ BİR NEÇƏ İSTİQAMƏTDƏN MÖVQELƏRİMİZİ YENƏ ATƏŞƏ TUTUR

14:53 14.11.2021
Mədəniyyət Nazirliyi Rasim Əliyevin vəfatı ilə bağlı nekroloq yayıb

Plov Azərbaycan mətbəxini şahıdır. Bizim Qarabağ plovunun şöhrəti isə hələ yüzillərdir dillərdə deyilir. Ən əziz qonağa aş süzülüb, təmtəraqla süfrəyə gətirilib. Qonağa hörmət, qonaqpərvərlik bizim ruhumuzda, qanımızdadır. Gözümüzü açandan təmiz havasına, saf suyuna vurulduğumuz doğma Qarabağa sevgmizdəndir bu hörmət, bu izzət. Dədə-babalarımız yüz illər boyu belə yaşayıblar. Nə gözəldi o illər, o günlər! O torpaqdakı həyat bizim hamımızın ürəyində yaşayır.

Min illərdir bütün qubadlılılara həyat verən **Həkərinin, Bərgüşadın su yaddaşında** yaşayır. Bəzən bitməsini istəmədiym şirin bir nəğmə kimi xatırlayıram otuz il əvvəlki Qubadlılı günlərimizi. Amma hardan gəldi o qara yel, kim aldı əlimizdən isti yuvamızı, illərlə qurub-yaratdığımz güzəranmızı?! Yollara saldı bizi! Hansı günləri yaşadıq! Amma əyilmədik, qırılmadıq, öz əsgərmizə, öz dövlətmizə, qətiyyətli rəhbərimizə inandıq. Bu günü gözlədik və elin vüsalına qovuşduq nəhayət, yenidən doğulduq sanki... Çox şirin nağıldı, deyilmi? Doğma yurda böyük qayıdış! Yenə dünənki kimi olacaq hər şey. Yenə evimizin çırağı yanacaq, yenə həyətdən səs gələcək, uşaqlar hamıdan tez qapıya qaçıb, atam gəldi, - deyəcəklər.

Bax, həmin gün günlərin ən gözəli olacaq. Yenə əvvəlki kimi ocaqlar közərəcək, qazanlar asılacaq, süfrələr bəzədiləcək və Sizləri ləziz **Qarabağ plovuna**, **Qubadlı aşına** qonaq edəcəyik.

***Bu dəfə Qubadlıda!***

***MİA.AZ, 4 noyabr 2020-ci il***
***https://mia.az/mobil/1001341***

# Torpağıma dönəcəyim gün gələr!




Titrətmə könlümü kaman kimidir,
Asta vur mizrabı tel ağlamasın.
Gözlərim yol çəkir dolan kimidir,
Dodaq titrəməsin dil ağlamasın.
***
İllərdir, aradım yarama məlhəm,
Ürəkdə yurd saldı bu həsrət, bu qəm.
O çinar kölgəsin çox özləmişəm,
Ocaqlar sönməsin, kül ağlamasın.
***
Dağ başına vaxt-vədəsiz çən gələr,
Səbr et, könül, gözlədiyin son, gələr,
Torpağıma dönəcəyim gün gələr,
Cığırlar sevinsin, yol ağlamasın.
***
Ocaq daşı yenə nağıl danışar,
Xatirələr çözələnər alışar.
Dağ arana, aran dağa qarışar,
Anam ağlamasın, el ağlamasın.

***MİA.AZ, 4 noyabr 2020-ci il***
[https://aqreqator.az/az/cemiyyet/1090403](https://aqreqator.az/az/cemiyyet/1090403)
[https://www.mia.az/w1001342/torpagima-doneceyim-gun-geler-2020-11-04-201129](https://www.mia.az/w1001342/torpagima-doneceyim-gun-geler-2020-11-04-201129)

# Bakı-Xankəndi-Şuşa turizm marşrutu

***Əziz Şuşa, sən azadsan!***

Xalqımızın ən yeni tarixində əbədi iz qoyacaq bu müjdə Şuşa həsrəti ilə yaşayan bütün azərbaycanlıların həyatında yeni bir mərhələnin də başlanğıcını qoydu. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bu xoş xəbəri paylaşması ilə bütün




Azərbaycan sanki bir anda şuşalı oldu. Şuşanı canlı görmək, Şuşanın havası ilə nəfəs almaq, Şuşadan dünyaya baxmaq kimi ülvi arzular yarandı insanlarda. Bu saatdan başalyaraq, 28 il əvvəl evinin açarını özü ilə götürüb ən son Şuşadan ayrılanlar yaşlılar, əslən şuşalı olub, heç zaman bu torpağı görməyən gənclər, Xarı-bülbül əfsanəsini indiyədək nənə-babasından dinləyən balacalar kimi 10 milyonluq bütün Azərbaycan həyəcanla Şuşa yoluna çıxmaq üçün günləri saymağa başladı. Bu xoş xəbər həm də ötən illər ərzində turizmçi kimi ürəymizin bir guşəsində bu gün üçün qoruyub saxladığımız **“Bakı-Xankəndi-Şuşa turizm marşrutu”** üzrə ilk səyahət ideyalarını da yaratdı.

Müsiqi beşiyi Qarabağ, Azərbaycanın mədəniyyət mərkəzi Şuşa özünün qonaqpərvərliyi ilə həmişə seçilən məkan olub. Qədim dövr və orta əsrlərdə Azərbaycana səyahət etmiş Türk, Avropa, rus və ərəb səyyahları qədim İpək yolu üzərindəki bu dilbər güşənin ecazkar təbiətindən yazmış, insanların qonaqpərvərliyindən dərin təəssüratlar almışlar. Qarabağın müasir ifadə ilə desək, bir turizm mərkəzi kimi tanınması isə hələ XIX əsrin ikinci yarısından başlayraq Azərbaycanın neft ölkəsi kimi inkişafı ilə buraya xarici

kapitalın axınından başlayır. O zamandan başlayraq Cənubi Qafqazın görməli yerləri ilə tanış olmaq istəyən bu əcnəbilər üçün Qarabağın gözəlliyi də cazibə elementi olub. Sonrakı vaxtlarda, Azərbaycanda Sovet hakimiyyəti dövründə Qarabağ respublikamızın ən çox seçilən turizm destinasyialarından biri olub, ittifaq və xarici ölkə mənşəli turistlər üçün sevimli tanışlıq, istirahət, müalicə, ekoturizm və əyləncə məzmunlu turlara ev sahibliyi edib. Çox da uzaq olmayan bu tarixi dövrdə istər Şuşa, istərsə də bütün Qrabağ bölgəsində gəlmə turizm üzrə ciddi inkişaf nəticələri qeydə alınıb. Hələ XX əsrin 30-cu illərində Şuşada kurort məqsədilə istirahət evi, daha sonrakı dövrlərdə panisonat və sanatoriya fəaliyyət göstərib. **Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, əfsanəvi "Cıdır düzü"** buraya səyahətə gələnlərin sevimli yeri olub. Eləcə də Xankəndi, Ağdam, Kəlbəcər ərazilərində də turislərin mənalı asudə vaxt keçimələri üçün imkanlar var idi. Bu dövrdə mövcud olan sosial-mədəni infrastruktur da o zamankı turistlərin tələbatına uyğun olaraq yaradılıb və bölgənin turizm-rekreasya potensialı onu beynəlxalq əhəmiyyətli bir səviyyədə tanıdıb. Ötən əsrin 70-80-ci illərində isə bütün Azərbaycanda olduğu kimi onun turizm incisi Qarabağda da turizmin inkişafı ən yüksək səviyyəyə çatıb, xeyli sayda kurort-sanatoriya, mədəniyyət müəssisələri, asudə vaxt mərkəzləri fəaliyyət göstərib, yerləşdirmə müəssisərində çox sayda yataq yerləri mövcud olub. Belə ki, 1987-ci ildə Azərbaycana xarici ölkələrdən gəlmiş 50 min, SSRİ-nin müxtəlif bölgələrindən gəlmiş 250 min turistin və yerli turizm-ekskursiya bürolarının təşkil etdikləri turlara qatılan 2,5 milyon nəfər daxili turistin mühüm bir hissəsi məhz Qarabağda olub. Ancaq Ermənistanın 1988-ci ildən başlayan hərbi təcavüzü nəticəsində təkcə Qarabağda deyil, eyni zamanda buradan qaçqın salınmış insanların ölkəmizin kurort-sanatoriya müəssisələrində yerləşdirilməsi ilə bütün Azərbaycanda daxili və gəlmə turizmə ciddi zərərlər dəydi.

Tarixə kiçik bir ekskurs əslində 30 ilə yaxın bir müddətdə davam etmiş erməni işğalının ölkəmizin turizm sənayesinə nə qədər ciddi ziyan vurduğunu təsəvvür etməyə kifayət edər. Söhbət təkcə təzminat olaraq itirilmiş gəlirlər, yaxud məhv edilmiş infrastrukturdan getmir. İş o yerə çatmışdı ki, Avropadan Bakıya oradan da Naxçıvana uçmaq istəyən əcnəbi turistlər hava yolunun erməni işğalı altındakı Qarabağ üzərindən keçmədiyinə əmin olmaq istəyirdilər. Yəni, bütün Cənubi-Qafqazın təhlükəsizlik imici də işğalçı ölkə ucbatından zərər görmüşdü. İndi isə qəhrəman Azərbaycan Ordusunun bu bölgəni sözün əsl mənasında təmizləməsi sivil həyatın vazgeçilməz artibutlarından biri olan turizmə də yeni qol-qanad verdi.

30 il əvvəlki kimi bu gün də **Xankəndi-Şuşa marşrutu** üzrə səyahət edən əcnəbi və yerli turistlər bundan sonra da çıxış nöqtəsi kimi paytaxt Bakı və ölkəmizin ikinci böyük şəhəri Gəncədən yola çıxa bilərlər. Bakıdan gələn turistləri Xankəndi və Şuşayadək təxminən 400 kilometr, Gəncədən isə təxminən 100 kilometrlik bir məsafə gözləyir. Yevlax, Bərdə və Ağdam şəhərlərindən keçməklə bu yolu normal turizm marşrutu kimi yarım gün ərzində keçmək olar. Ancaq qeyd etmək lazımdır ki, Şuşaya çatmaq üçün turistlər cənubdan Horadiz-Füzuli, yaxud Xudafərin-Qubadlı-Laçın, şimaldan isə Göygöl-Kəlbəcər istiqamətlərindən hərəkət edə bilərlər. 2020-ci ilin 27 sentyabrınadək mövcud olmuş təmas xəttinə qədərki Azərbaycanın nəzarətində olan ərazilərdə mövcud olan müasir yol-nəqliyyat infrastrukuru, insanlara göstərilən sosial-mədəni xidmətlər, bütövlükdə, ölkəmizin sosial-iqtisadi inkişafının bir göstəricsi kimi iri şəhərlərdən heç də fərqlənmir. Bunları müxtəlif vaxtlarda həmin yerlərə səfər etmiş jurnalistlərin, yaxud beynəlxalq müşahidəçilərin yol qeydlərində də görmək olar. Ancaq, bu dövrədək erməni işğalında qalmış ərazilərə, eləcə də Şuşaya ilk səyahət edənlər daha fərqli təəssüratlar alacaqlar.

Qarabağ, xüsusən Dağlıq Qarabağ iqlimi əsasən yayı və qışı mülayim olmaqla, təmiz, quru hava, bol yaşıllıq və şirin su ehtiyatlarına malikdir. Orta yüksəklikdəki Şuşa istiqamətində hərəkət edən turistlər üçün bu faktorlar ilin istənilən dövründə səyahət etmə imkanı deməkdir. Əvvələr, yəni sovet dönəmində Şuşa əsasən yay istirahət zonası olub, buradakı pansionat və fərdi evlərdə çox sayda şəhərli turislər yerləşirdi. Ancaq şübhəsiz, 8 noyabr —Şuşanın işğaldan azad olunması tarixi turizm baxımından da xüsusi əhəmiyyət daşıyacaq. Bu tarixi gün ölkəmizdə fəayliyyət göstərən turoperatorlar üçün çox dəyərli və simvolik turzəflər hazırlamağa imkan verəcək. Belə turlara qatılan hər yaş təbəqəsindən və hər cür sosial qrupdan olan insanlar Azərbaycan Ordusunun keçdiyi zəfər yolunu bu dəfə turist kimi keçəcəklər. Bu marşrutun cazibə elementləri kimi insanları heyrətə salacaq təkcə təbiət və relyef gözəllikləri deyildir. Bakı-Şuşa istiqamətində ilk səfərə çıxanlar, xüsusən, xarici media təmsilçiləri üçün belə səfərlər erməni vandalizminin əsl mahiyyətini göstərmək üçün xüsusi bir fürsət olacaq. Qarabağın 30 illik işğal dövrü ərzində hər yerdə dağıdılmış insan məskənlərini, korlanmış ekosistemi, dağıdılmış məzarlıqları və eləcə də daş dövrünü xatırladan primitiv erməni həyat tərzini bütün bəşəriyyətə göstərmək belə tanışlıq turlarının əsas motivi olacaq, foto-video həvəskarları üçün yeni bir gizli dünya açılacaq. Qarabağın azadlığı uğrunda həllediçi döyüşlərin aparıldığı, Azərbaycan Ordusunun yüksək dəqiqliklə düşmənə öldürücü zərbələr endirdiyi nöqtələri görmək isə daha yaddaqlan olacaq. Şübhəsiz, işğal sonrası Azərbaycan xalqı öz birliyi və güclü iqtisadiyyatı ilə bu torpaqlarda normal həyatı çox sürətlə dəyişdirəcək, Qarabağdakı yaşayış əvvəlkindən də gözəl və təmtəraqlı olacaq. Bütün işğal olunmuş ərazilərdə erməni vandalizminin qurbanı olmuş minlərlə tarixi abidəmiz, yurd yerləri bərpa olunacaq, Şuşadan yenidən müqəddəs **Azan səsi, Qarabağ şikəstəsi** ucalacaq, Xarıbulbulun üzü güləcək.

Bu gün Xankəndindən, Şuşadan, Kəlbəcərdən, Qubadlıdan yüzlərlə kilometr uzaqda müvəqqəti məskunlaşmış və Qarabağ torpağını beş barmağı kimi tanıyan bu yerlərin əzəli sakinləri üçün doğma vətənlərində bələdçilik etmək isə turoperatorlamız üçün bir az çətin olacaq. Şübhəsiz, dədə-babalarının min illik tarixindən süzülüb gələn yaddaşları bu insanları heç zaman aldatmayacaq və onlar 30 il əvvəlki kimi bütün Qarabağdakı yüksəklikləri, çayları, gölləri adı ilə çağırıb, Şuşanın qədim məhəllələrini, buradakı məscidləri, mədəniyyət müəssisələrini, Azərbaycanın tanınmış incəsənət xadimlərinin adı ilə bağlı tarixi məkanları da öz evləri kimi tanıyacaqlar. Yenidən Qarabağda, Şuşada həyat qaynayacaq, yenidən ocaqlar közərib yurdlar salınacaq, sakinlər qonaqlı-qaralı olacaqlar. Uca Haqqın ədaləti həmişə güclüdür. Xalqımız da bu ədalətə inandı, səbr etdi və savaşı qazandı! Qələbən mübarək Azərbaycan!

Qarabağın döyünən ürəyi Şuşanın azad olunması bütün Azərbaycan və Türk Dünyasına sevinc bəxş etdi. "Bakı-Xankəndi-Şuşa turizm marşrutu"u üzrə ilk düşüncələr də artıq simvolik deyil, mövcud istəklərin doğurduğu bir reallıqdan yarandı. Çünki Şuşa bizim, Qarabağ Azərbaycandır!

***MİA.AZ, 9 noyabr 2020-ci il***

***https://aqreqator.az/az/iqtisadiyyat/1097878***

***https://www.mia.az/mobil/1001672***

***http://85.132.16.133/index.php/ictimai-siaysi/27891-bak-khankaendi-shusha-turizm-marshrutu.html***

# Doğma torpaqlara qayıdanda müqəddəs Əshabi-Kəhfdən torpaq aparacağıq ki, paklaşsın

*Bu günlərdə Azərbaycan xalqı, eləcə də bütün Türk dünyasının dilində bir mövzu var: Noyabr ayının 10-da tarix yazan sərkərdəmiz, Ali Baş Komandan cənab İlham Əliyevin xalqa müraciət edərək şanlı qələbəmizin – Ermənistanın təslim olmasının müjdəsini vermə-si ilə soydaşlarımızın ürəklərindəki 30 illik yaraya su səpildi, işğala son qoyuldu. Müraciətdən sonra insanlar bu tarixi zəfərin sevincini paylaşmaq üçün küçələrə axışdılar, maşın karvanları küçələrdəki sükutu qələbə coşqusuna çevirdi. Tarixi qələbəmiz muxtar respublikamızda da ümumxalq şənliyi, böyük coşqu ilə qeyd edildi. Əllərində ay-ulduzlu bayraqlarla küçələrə axışan sakinlər “Başını dik tut, şəhid anası!”, “Şəhidlər ölməz, Vətən bölünməz!”, “Qarabağ Azərbaycandır!” və bu kimi şüarlarla şəhid ailələrinin mənzillərinə üz tutdular. Şəhid anaları ilə qələbə sevincini paylaşıb, bu qələbənin şəhidlərimizin qanı hesabına qazanıldığını, onların qanlarının yerdə qalmadığını bildirdilər. Ermənistanın məğlubiyyətə uğrayaraq təslim olması sevinci aşıb-daşan azərbaycanlılara, sanki yeni bir həyat bəxş etdi. Belə həmvətənlərimizdən biri də əslən Qubadlı rayonundan olan, hazırda Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbdə Azərbaycan dili və*



Doğma torpaqlara qayıdanda müqəddəs Əshabi-Kəhfdən torpaq aparacağıq ki, paklaşsın

*ədəbiyyatı müəllimi kimi fəaliyyət göstərən Şəlalə Cabbarovadır. Bu günlərdə onunla görüşüb təəssüratlarını öyrəndik.*

***– Şəlalə xanım, əvvəlcə bütün Azərbaycan xalqı kimi sizə də gözaydınlığı vermək istəyirəm. İşğal altında olan torpaqlarımız bir-birinin ardınca azadlığa qovuşur. Yəqin ki, o torpaqlarda doğulub boya-başa çatan biri kimi ikiqat sevinc hissləri keçirirsiniz...***

– Çox sağ olun! Əlbəttə ki... Allah ordumuzu, Ali Baş Komandanımızı qorusun! Yaşadığım hissləri dilə gətirmək mənim üçün çox çətindir. Qubadlının işğal olunduğu 1993-cü ilin avqust ayını, heç zaman unuda bilməyəcəyim o dəhşətli günləri xatırlayıram. Mən sizə 1988-1993-cü illərdən, rayonumuzun və bizim yaşadığımız Başarat kəndinin sakinləri üçün qaçqınlıq həyatının başlandığı illərdən danışıram. O vaxt orta məktəb şagirdi olsam da, həmin dövrləri yaxşı xatırlayıram. Kəndimiz Qubadlının şimal-şərqində, Şuşaya yaxın ərazidə yerləşdiyindən Qarabağa erməni təcavüzü başlayandan qanlı döyüşlərə şahidlik edib. O zaman kəndi qoruyan müdafiə batalyonunun əsgərləri məktəb binasında yerləşdiyi üçün dərslər keçilmir, biz də qorxu içində olurduq. Əli silah tutan yerli sakinlərin hamısı o zaman döyüşə atılmışdı. Hər dəfə kəndimiz topa tutulanda, şəhid xəbəri gələndə, gözümüzün qabağında qanı axan əsgərləri görəndə, sanki qiyamət qopurdu. Axıradək müdafiə olunan köməksiz insanların sonda öz doğma yurdunu, evini atıb çıxması qədər acı bir hiss varmı, görəsən? Yurdunu-yuvasını tərk edib, ev-eşiyini qoyub qaçmağa məcbur olan qadın-uşaqların fəryadını, haraya gedəcəyini bilməyən ailələrin ümidsizliyini yaşadıq. Ermənilərin top atəşindən yanıb tüstüsü qalxan kənd evləri, əlində əşyaları vahimə və səksəkə ilə ora-bura qaçan insanlar, ayaqyalın uşaqlar! Yolboyu Araz çayı kənarındakı dəmiryol stansiyalarının birinə toplanmış minlərlə insanın qorxu dolu baxışları arasında üz-gözü pərişan qızların, acından ağlaşan

körpələrin, çarəsizcə bilinməyənlərə doğru yol alan qocaların göz yaşları! Bütün bunlar o ağrılı-acılı dövrü yaşamış insanların heç zaman unuda bilməyəcəyi bir qaçqınlıq hekayəsi idi. 27 il sonra bu hekayənin sonluğu, şükürlər olsun, zəfərlə bitdi. İndi qürurluyuq. Torpaqlarımızı böyük siyasət nəticəsində, öz gücümüzlə, öz ordumuzla alırıq. Əgər şeirlə desəm:

*Bu dərdlər, ağrılar ölçüyə gəlməz,*
*Bu dərdlə, ağrıyla ölçülən bizik.*
*Sıyrılıb ağrılar məngənəsindən,*
*Hər gün zərrə-zərrə ucalan bizik!*

***– Sonra necə oldu ki, Naxçıvana gəldiniz?***

– Biz Bakıya, oradan da Sumqayıta gəldik. O zaman əksər qubadlılılar, demək olar ki, Sumqayıta toplandılar. Ailəmiz də oradadır. Mən isə 1996-cı ildə təhsilimi davam etdirmək üçün Naxçıvan Dövlət Universitetinə qəbul oldum, oxudum və çox qısa müddətdə bu torpağı sevdim və taleyin hökmü ilə ali məktəbi bitirəndən sonra da Naxçıvanı seçdim. Burada ailə qurdum. Bunun üçün çox xoşbəxtəm. Amma ürəyimdə göynəyən Qubadlı yarası bəzən sözə də sığmır. Bilirsiniz, bizim o yerin insanları sazlı-nəğməlidirlər. Atam İnqilab müəllimin dostları, iş yoldaşları ilə keçirdiyi saz-şeir məclisləri indi də xatirimdədir. Mənim universitetdə təhsil aldığım zaman mədəni tədbirlərdəki saz ifalarım uğurlu alınmışdı. İndi artıq o dövrlər arxada qalıb, uşaqlar böyüyüb, universitetdə təhsil alanı var. İşlədiyim Heydər Əliyev adına tam orta məktəbdə bütün müəllim yoldaşlarım da mənim kimi Qubadlının, digər şəhər və kəndlərimizin azad olunması, qələbə xəbərimizi böyük sevinclə qarşıladılar. Söz veriblər, bizə qonaq gedəcək, Qarabağ plovundan Başaratda dadacaqlar.

***– Qubadlı həsrətiniz çox uzun çəkdi. Bu qədər keçəndən sonra o torpağa yenidən bir də ayaq basmaq, sizcə, necə bir duyğudur?***

– Onu, məncə, hər insan yaşaya bilməz. Atasız ata yurduna qayıtmaq! On il əvvəl atam Sumqayıtda son nəfəsində “Bura Qubadlıdırmı?” – demişdi. O qayıda bilmədi, amma biz qayıdırıq yurdumuza, doğma Qarabağımıza! Böyük və güclü Azərbaycanın bir parçası olan Qarabağ bizimdir! Və hər zaman da bizim olacaq! Bir arzum var, inşallah, Qubadlıya yola çıxanda Naxçıvanın müqəddəs Əshabi-Kəhf ziyarətgahından bir ovuc torpaq da aparacağam ata ocağıma. Paklansın deyə! Burada torpaq təmizdir, heç zaman erməni ayağı dəyməyib. Sağ olsun, ölkə başçımız cənab İlham Əliyev bütün Azərbaycana bu sevinci yaşatdı. İndi yazılan bu dastan yüz illər sonra da xalqımızın tarix səhifələrini bəzəyəcək, əsgərlərimizin qəhrəmanlığı dillərə dastan olub övladlarımız üçün vətənpərvərlik salnaməsinə çevriləcək. Qoy mənim şeirimdən iki bənd də əsgərlərimizə ərməğan olsun!

*Murovdağda zəfər çaldın yayıldı səs-sorağın,*
*Füzuliyə yol açıldı mübarəkdir ayağın,*
*Xudafərin çox gözləyib Azərbaycan bayrağın,*
*Arazımın üzü güldü, ürək sözlə doludur.*
*Uğur olsun, ey əsgərim, bu yol Şuşa yoludur!*

*Yaradandan qüvvət aldın, O qoruyur sizləri,*
*Gəncəmizin göz yaşları yaraladı bizləri,*
*Xocalıda al qisası, qoyma qalsın izləri,*
*Vur, əsgərim, vuran qolun Şah İsmayıl qoludur*
*Uğur olsun, ey əsgərim, bu yol Şuşa yoludur!*

***“Şərq qapısı”, 19 noyabr 2020-ci il***

***http://85.132.16.133/index.php/telli-maemmaedova/28194-dozhhma-torpazhlara-zhay-danda-muzhaeddaes-aeshabi-kaehfdaen-torpazh-aparadzazhh-zh-ki-paklashs-n.html***

# Əsgərlərimizdə həmişə böyük ruh yüksəkliyi var idi

***Naxçıvanlı döyüşçü Elton İsmayılovla müsahibə***



**Naxçıvanlı döyüşçü Elton İsmayılov:**

***"Əsgərlərimizdə həmişə böyük ruh yüksəkliyi var idi"***

Azərbaycanın parlaq qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsi müzəffər Ordumuzun gücünü bütün dünyaya göstərdi. İşğalçı Ermənistanı torpaqlarımızdan qovmuş əsgərlərimizin qəhrəmanlığı indi dillərdə dastandır. Müasir silah-sursatlarla tək atışla düşmən hədəflərini bir-bir yox edən, Şuşanı əlbəyaxa döyüşdə düşməndən təmizləyən bütün əsgərlərimiz indi xalqımızın, Azərbaycan Ordusunun fəxridirlər. Artıq müharibə qurtarıb, döyüşlərdə iştirak etmiş əsgər və zabitlərimiz həmin günlərin qürurunu yaşayırlar. O döyüşçülərdən biri də leytenant Elton Pənah oğlu İsmayılovdur.

24 yaşlı Elton Şahbuz rayonunun Kükü kəndində anadan olub. 2011-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə daxil olub. 2014-cü ildə liseyi bitirən Elton Bakıda Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olub. 2018-ci ildə buradan məzun olan gənc zabit Qarabağ bölgəsində, təmas xəttindəki mövqelərdə kəşfiyyat taqımının komandiri vəzifəsində mürəkkəb şəraitdə hərbi xidmət keçib. 2020-ci ilin 27 sentyabrında Ermənistanın növbəti təxribatına cavab olaraq başladılan əks-hücum əməliyyatlarında Murovdağ, Hadrut və Suqovuşan uğurunda gedən döyüşlərin iştirakçısıdır. Sonuncu döyüşlərin birində yaralanaraq müalicəsini davam etdirən Eltonla görüşüb həmsöhbət olduq.

İlk döyüşə Murovdağ zirvəsinin ələ keçirilməsi uğrunda başladıqlarını deyən Elton bildirir ki, elə müharibənin ilk saatlarından ordumuz təşəbbüsü ələ almışdı. Əsgərlər arasında böyük ruh yüksəkliyi vardı. Gənc zabit deyir ki, buna qədər xidmət keçdiyi müxtəlif nöqtələrdə ermənilərin atəşkəsi dəfələrlə pozduğunun şahidi olmuşdu. Ordumuz da bunun cavabını vermişdi. Ancaq 27 sentyabrdakı əks-hücum bu dəfə düşmən üçün öldürücü oldu. Erməni əsgərləri hər yerdən qaçmağa başladılar. Üzbəüz mövqelərdə onların necə məhv edildiyinin şahidi olan Elton İsmayılov dinc sakinlərin ermənilər tərəfindən necə hədəf alındığından da danışır. Yaralanıb müalicə olunduqdan sonra evə buraxılmış döyüş yoldaşlarından birinin cəbhəyanı ərazidəki evinə raket düşməsi nəticəsində şəhid olması xəbəri onu daha çox sarsıdıb. Ancaq 10 noyabrda düşmənin təslim olması, Qarabağın tamamilə azad olunması digər hərbçi yoldaşları kimi, onu da çox sevindirib. Yaxın günlərdə yenidən hərbi xidmətə qayıdacağını bildirən zabit Böyük Qələbədə payı olan bütün döyüşçü yoldaşlarını ehtiramla xatırlayır. O əmindir ki, Ordumuz Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında bundan sonra da həmişə qalib olacaq.

İkinci Qarabağ müharibəsi iştirakçısı Elton İsmayılova bundan sonrakı xidmətində uğurlar və can-sağlığı arzu edib, xudahafizləşirik. Kənddə, rayonda eşidən, xəbər tutan hamı İsmayılovların evinə gəlir, insanlar Böyük Qələbəmiz münasibətilə onu və bir-birlərini təbrik edirlər. Hamıdan çox sevinən isə zabitin anası Natiqə xanım və 90 yaşlı Sənubər nənəsidir.

Qoy bir daha müharibə olmasın!

Əli CABBAROV

Azərbaycanın tam qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsi müzəffər Ordumuzun gücünü bütün dünyaya göstərdi. İşğalçı Ermənistanı torpaqlarımızdan qovmuş əsgərlərimizin qəhrəmanlığı indi dillərdə dastandır. Ağıllı silah-sursatlarla tək atışla düşmən hədəflərini bir-bir yox edən, Şuşanı əlbəyaxa döyüşdə düşməndən təmizləyən bütün əsgərlərimiz indi Azərbaycan Ordusunun fəxridirlər. Artıq müharibə qurtarmış və döyüşlərdə iştirak etmiş əsgər və zabitlərimiz həmin günlərin qürurunu yaşayırlar. O döyüşçülərdən biri də leytenant Elton Pənah oğlu İsmayılovdur.

24 yaşlı **Elton Şahbuz rayonunun Kükü kəndində** anadan olub. 2011-ci ildə Heydər Əliyev adına Hərbi Litseyə daxil olub. 2014-cü ildə litseyi bitirən Elton Bakıda Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olub. 2018-ci ildə buradan məzun olan gənc zabit Qarabağ bölgəsində, təmas xəttindəki mövqelərdə kəşfiyyat taqımının komandiri vəzifəsində mürəkkəb şəraitdə hərbi xidmət keçib. 2020-ci ilin 27 sentyabrında Ermənistanın növbəti təxribatına cavab olaraq başladılan əks-hücum əməliyyatlarında **Murovdağ, Hadrut və Suqovuşan uğurunda gedən döyüşlərin iştirakçısıdır.** Sonuncu döyüşlərin birində yaralanaraq müalicəsini davam etdirən Eltonla görüşüb həmsöhbət olduq.

İlk döyüşə Murovdağ zirvəsinin ələ keçirilməsi uğrunda başladıqlarını deyən Elton bildirir ki, elə müharibənin ilk saatlarından ordumuz təşəbbüsü ələ almışdı. Əsgərlər arasında böyük ruh yüksəkliyi vardı. Gənc zabit deyir ki, buna qədər xidmət keçdiyi müxtəlif nöqtələrdə ermənilərin dəfələrlə atəşkəsin pozduğunun şahidi olmuşdu. Ordumuz da bunun cavabını vermişdi. Ancaq 27 sentyabrdakı əks-hücum bu dəfə düşmən üçün öldürücü oldu. Erməni əsgərləri hər yerdə qaçmağa başladılar. Üzbəüz mövqelərdə onların necə məhv edildiyinin şahidi olan Elton İsmayılov dinc sakinlərin ermənilər tərəfindən necə hədəf alındığından da danışır. Yaralanıb müalicə olunduqdan sonra evə buraxılmış döyüş yoldaşlarından birinin cəbhəyanı ərazidəki evinə raket düşməsi nəticəsində şəhid olması xəbəri onu daha çox sarsıdıb. Ancaq 10 noyabrda düşmənin təslim olması, Qarabağın tamamilə azad olunması digər hərbçi yoldaşları kimi onu da çox sevindirib. Yaxın günlərdə yenidən hərbi xidmətə qayıdacağını bildirən zabit Böyük Qələbədə payı olan bütün döyüşçü yoldaşlarını ehtiramla xatırlayır. O əmindir ki, Ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bundan sonra da həmişə qalib olacaq.

İkinci Qarabağ müharibəsi iştirakçısı Elton İsmayılovla bundan sonrakı xidmətində uğurlar və can sağlığı arzu edib, xudahafizləşirik. Kənddə, rayonda eşidən, xəbər tutan hamı İsmayılovların evinə gəlir, insanlar Böyük Qələbəmiz münasibətilə onu və bir-birilərini təbrik edirlər. Hamıdan çox sevinən isə **zabitin anası Natiqə xanım və 90 yaşlı Sənubər nənəsidir.**

***Qoy bir daha müharibə olmasın!***

***"Şərq qapısı", 20 noyabr 2020-ci il***

***https://mia.az/w1002191/1002191***

# Yeddi uşaqlı Sarkisin Kəlbəcər günləri

## *hekayə*

Bu Sarkisdir, hamının yaxşı tanıdığı həmin **erməni dığası**. Əslində mənim onunla daha bir işim qalmayıb. Qanmayıb, bir vaxtlar gəlib oturub Kəlbəcərdə, indi də yığışıb öz ölkəsinə gedir. Cəhənnəmə getsin! Günahları varsa, Allah böyükdür, öz cəzasını çəkəcək mütləq. Amma bu saqqal basmış Sarkisə bir balaca diqqət etsəniz onu siz də yaxşı tanıyacaqsınız.



Sarkisin hardasa əlli beş yaşı olar. Yəni hələ çox qocalmayıb. Bilirsiniz, **ermənінin qocası** necə olur. Hələ qadınlarını demirəm. Sarkis əslən Ermənistanın Kəlbəcərlə həmsərhəd kəndlərindəndir. Ötən 90-cı illərdə köçüb buraya. O vaxtlar əsgərlikdən təzə gəlmişdi. Ailəsi geniş, evləri də balaca idi. Bir babat iş axtarırdı. Həmin dövr vəziyyət hər yerdə pis idi. Sovet hökuməti dağılmış, iş-güc də yox idi. Düzdür, dədə-babadan kartof əkər, çaxır çəkərdilər. Amma dolanışıq çox çətin idi. Eşidəndə ki, həmkəndliləri hər gün Qarabağdan maşın-maşın yağma daşıyır, gətirib satırlar, o da bir gün maşına oturub Kəlbəcərə üz tutdu. Sən demə var-dövlət burdaymış. Erməni yaraqlıları tərəfindən 10 saat içində Kəlbəcərdən çıxması üçün vaxt qoyulmuş **azərbaycanlılar evlərində** nə vardısa hamısını qoyub getmişdilər.

Həmin dövrlər Sarkis demək olar ki, hər gün Kəlbəcərin, Laçının Qubadlının boşılmış kəndlərinə gedir,

əlinə düşəni sökür, sahibsiz qalmış mal-qaranı sürüb gətrirdi. Amma bir gün fikirləşdi ki, bəlkə elə gedib orada yaşasın. Nəyinə lazım, burda ev tiksin, su çəksin. Qarabağda villa kimi evlər qalmışdı. Hansını istəyirsən, get, qal. Xalı-xalçası da içində, hazır, döşəməli. Beləcə Sarkis qonşudakı **göygöz Haykanuşla** evlənib Kəlbəcərdəki evlərin birinə yerləşdi.

Kəlbəcər onlara düşərli oldu. Geniş ərazilərdə mal-qara saxlayır, yaxşı pul qazanırdılar. Tezliklə Sarkis özünə bir yük maşını da aldı. Burda hər şey su qiymətinə idi. Nə desən, havayı. Daş lazımdı, kənddəki azərbaycanlı evlərindən birini sök, apar. Şifer, taxta lazımdı, nə qədər desən. Köhnə ev əşyası, qab-qaşıq da sel kimi. Elə bil dünyadakı **bütün ermənilərə** yetəcək yağma qalmışdı. Haykanuşun da kefi kök idi. Amma ürəyində nəsə bir qorxu hissləri vardı bu erməni qızının. Birdən!.. Amma günlər sürətlə keçirdi. Burda onların düz yeddi uşağı dünyaya gəldi. Düzdü, oxmadılar, amma birtəhər baş-göz etdilər bir-ikisini. Böyük oğlu Vazgen Xankəndində **Araikin donuz fermasında** işləyirdi. Ondan kiçiyi Armen də bir maşın alıb Pyatiqorskə taksavatlıq edirdi. Böyük qızı Anna da, ay parçası, **Şuşada rəqqasəlik** edirdi. Onun da pulu çoxdur. O biriləri isə hələ balacadır. Fikri vardı ki, Fizulidə boş bir evə köçsün. Amma salamat bir ev tapa bilmədi. Dığalar hamısını daşına qədər söküb qonşularına satmışdılar.

Üç-dörd il əvvəl, bir gün Haykanuş həyətin küncündəki toplanıb qalmış dəmir-dümürü Sarkisə göstərib, bunları burdan rədd elə, nə vaxtandır yığışıb qalıb, — dedi. Sarkis də, dər-dəmir nədi ay **haxçıx!**

— Bunlar qonşudakı evlərin divarlarından söküb yığdığım mis məftillər, evlərdən tapdığım qab-qazandır, yaxşı pula gedir. Aparıb satacam. Elə də etdi. Ertəsi gün nə vardısa bütün metalların hamısını maşina yığıb, düz **Araz qırağına** sürdü. Satıb-savdı. Bazarlıq edib, gələndə bir dənə də **unitaz** aldı. Bax, Sarkisi bütün dünyaya tanıdan həmin bu unitaz idi.

…Yaxşı alış-verişdən sonra kefi kökəlmiş Sarkis evə qayıdanda Haykanuşun gözləri kəlləsinə çıxdı. Əlini ətəyinə silib, ay kişi bu nədir yoxsa şəhərə köçürük? Bunu niyə almısan, başın xarab olub? — dedi.

— Ay haxçıx, başım olsaydı, niyə erməni olurdum, — dedi Sarkis. Görmürsən, unitazdır. Dünyadan xəbəri yoxdur, keçən il **Beyrutdan qohumların** qonaq gəlmişdi. Ölüb yerə girdim. Evdə yaxşı şeydir!

Haykanuş sevincindən göyə uçurdu. Xəyallara daldı. Birdən-birə özünü ev xanımı hesab elədi. Sağa-sola qaçır, sanki göylərdə uçurdu. Həyatından çox razıydı.

Amma nə oldusa birdən oldu. Sarkislə Haykanuşun 20 ildən artıq yağ-bal içində yaşadığı Kəlbəcər günlərinin sonu gəldi. Bir ılıq payız günü hər şey bir anda dəyişdi. Sanki yer-göy qovuşmuşdu. Gizlənməyə yer də yoxuydu. **Azərbaycan Ordusu** gəlirdi. Həm də ildırım sürətilə. Haykanuşun ürəyindəki həmin qorxu hisləri çin çıxmışdı. O da sanki birdən yuxudan ayılmışdı. Axı, bura onların deyildi. **Evin sahibi** gəlmədən yığışıb getmək vaxtıdır. Yoxsa iti qovan kimi qovacaqlardı onları. Əllərinə keçəni toplamağa başladılar. Evi yandırmadan qabaq nə vardısa hamısını maşına yığmaq istəyirdilər. Elə Sarkisin nə həvəslə aldığı bu uintaz da həmin gün xarici jurnalistin kamerasına tuş gəldi. Və beləcə, **bütün ermənilərin başını uca edən Sarkisi** bütün dünya tanıdı.

Bu söhbətdən artıq bir həftə keçib. Şələ-şüləsinin yığışdırmış Sarkis artıq evinə çatıb. Amma sonra eşitdik ki, yol qanqaraçılıqla bitib. Unitaz maşındaca qırılıb.

Necə deyərlər, olmayasan, tələsik iş!

***MIA.AZ 26 noyabr 2020-ci il***

***https://www.mia.az/w1002778/1002778***

# İşğal sonrası Qarabağ iqtisadiyyatı və turizmin inkişafı

*10 noyabrda Azərbaycanın tam Qələbəsi ilə başa çatan Vətən müharibəsi sonunda Qarabağda iqtisadi-mədəni inkişafın gələcək perspektivləri gündəmdəki yerini qoruyur. Ordumuzun möhtəşəm zəfərindən sonra Cənubi Qafqaz iqtisadiyyatının 60 faizinə malik olan Azərbaycan iqtisadiyyatının da Qarabağda nəyə nail olacağını bütün dünya maraqla gözləyir.*

30 ilə yaxın bir müddətdə Ermənistanın işğalı altında olmuş Qarabağın azad edilməsi uğrunda aparılan 44 günlük


Qarabağ iqtisadiyyatı və turizmin inkişafı

"Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə ekskursiya təşkil olunmuşdur

müharibə təkcə bu regionda deyil, bütün dünyada çox geniş rezonans yaratdı. İndi hər yerdə düşmən hədəflərini gözündən vuran ağıllı silah-sursatların tətbiqindən tutmuş, Şuşanı əlbəyaxa döyüşlə işğalçılardan təmizləyən Azərbaycan əsgərinin igidliyindən danışılır. Bu dövrdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin apardığı siyasət, qazanılmış diplomatik uğurlar isə, sözün əsl mənasında, dünya liderlərinə bir dərs oldu. Beləcə, ölkəmizdə ümummilli lider Heydər Əliyev tərəfindən möhkəm zəmin üzərində yaradılmış dövlət-xalq-ordu birliyi, nəhayət ki, öz ali məqsədinə – düşmənin torpaqlarımızdan qovulması hədəfinə çatdı. Artıq Azərbaycan qalib ölkədir.

Müharibə sonrası baş verən hadisələri indi bütün dünya maraqla izləyir. Zəhərli başı əzilsə də, hələ də quyruğu ilə sağa-sola çırpınan ilana bənzəyən məğlub Ermənistanda daxili vəziyyət getdikcə mürəkkəbləşərkən azadlığa qovuşmuş Qarabağda həyata keçiriləcək hər yeni layihənin təkcə işğal dövründəki yaraları sağaltması deyil, həm də işğaldan sonrakı dövrdə daha genişməzmunlu inkişafa səbəb olacağı gözlənilir. Bu layihələr bir tərəfdən Naxçıvan Muxtar Respublikasının birbaşa olaraq Azərbaycanın əsas hissəsinə çıxış yolunun açılması və bununla əlaqədar olaraq Frankfurt-İstanbul-Şanxay ticarət dəhlizində Qarabağın da çox mühüm mövqe qazanması, digər bir tərəfdən isə ölkəmizdə qeyri-neft sektoru və ixrac marşrutları üçün yeni perspektivlərin yaranması baxımından da əsas arqumentlər kimi gələcəkdə çox müzakirə olunacaq. Bunlarla yanaşı, işğal sonrası Qarabağda turizm mövzusunun aktual olduğunu da müxtəlif səviyyələrdəki çıxışlardan izləməkdəyik.

Azərbaycanın Qələbəsi xalqımızın qurub-yaratmaq əzmini də ortaya qoyub. Artıq işğaldan azad olunmuş rayonlarda dövlətin vacib idarəetmə strukturlarının fəaliyyətinin bərpa edilməsi, Suqovuşandakı turizm və hidroehtiyatların istifadəyə cəlb olunması, bu ərazilərdə başladılan yol-infrastruktur çalışmaları, Xudafərin ərazisindəki su anbarlarının hidroenerji və meliorasiya məqsədilə istifadəsi məsələləri kimi sırf iqtisadi mahiyyətli tədbirlər kimi gündəmə gəlməkdədir. Düşmənin tamamən Qarabağdan çəkilməsindən sonra bölgə iqtisadiyyatının dirçəldilməsi yaxın gələcəkdə bu torpağın yenidən bütün Cənubi Qafqazın inkişaf edən mədəniyyət mərkəzi, məşhur turizm destinasiyası olacağını deməyə əsas verir.

Qarabağ və erməni işğalından azad olunmuş digər yeddi rayon müstəqil Azərbaycan Respublikasının tərkib hissəsi kimi iqtisadi inkişaf baxımından tarixən ölkəmizin digər regionları ilə inteqrativ əlaqələrə malik olub. 30 il öncəsində də bu

bölgənin coğrafi mövqeyi, təbii sərvətləri və insan resursları **Qarabağ iqtisadiyyatının** inkişafında mühüm rol oynayıb. O vaxtlar burada yaradılmış nəqliyyat və infrastruktur şəraiti ilə yanaşı, mövcud olan təbii ehtiyatlar energetika, dağ-mədən sənayesi, kənd təsərrüfatı, emal sənayesi, meşə təsərrüfatı, balıqçılıq və turizm kimi sahələrdə mühüm layihələr həyata keçirməyə imkan verirdi. 1988-ci ilədək, yəni SSRİ-nin süqutunadək olan dövrdə Dağlıq Qarabağ iqtisadi rayonu məhz bu sərvətlər hesabına mühüm inkişaf göstəriciləri əldə etmiş və bu iqtisadi nəticələr birbaşa olaraq bölgədə məskunlaşmış əhalinin yaşayış səviyyəsində və məşğulluğunda özünü göstərmişdi. Həmin dövrün statistikasına nəzər salsaq, görərik ki, burada bir sıra məhsulların istehsalında respublika əhəmiyyətli nəticələr əldə olunub. Belə ki, təkcə kənd təsərrüfatı üzrə baxsaq, **taxılçılıq, tərəvəzçilik, meyvəçilik, üzümçülük, pambıqçılıq və tütünçülüklə yanaşı, ətlik və südlük heyvandarlıq** məhsullarının istehsalında mühüm göstəricilərin əldə olunduğunu görməkdəyik. Tarixən Qarabağ əhalisinin mənimsədiyi məşğuliyyət növləri və toplanan təcrübə burada əsas rol oynayıb. Eləcə də emal sənayesi və sənətkarlıqda, xüsusən dünyaca məşhur olan **xalçaçılıqda** Qarabağ adı hələ o dövrdə dünya markası halına gəlmişdi. Bütün bu və digər sahələrlə yanaşı, Qarabağ özünün təkrarolunmaz **turizm ehtiyatları və kurort-sanatoriya müəssisələri, qorunan təbii-rekreasiya məkanları** ilə səyahətçilərin də diqqət mərkəzində olub.

Qədim mədəniyyət nümunələrinə, əsrarəngiz təbii-iqlim şəraitinə, zəngin yeraltı və yerüstü sərvətlərə malik olan Qarabağın şöhrəti hələ yüz illər öncəsindən bütün dünyaya məlum olub. Qədimdə və xüsusən orta əsrlərdə Azərbaycana səfər edən səyyahlar bu torpağın gözəlliklərindən bəhs edib, buradakı unikal təbii, tarixi-mədəni zənginliklərdən söhbət açıblar. Gözəl həyat üçün hər cür şəraiti olan Qarabağ, bəlkə, elə bu səbəbdən də yadellilərin iştahasında olub, hücumlara

məruz qalıb. Tarixboyu amansız döyüşlər meydanı olmuş bu torpaq nə qədər çətin mübarizələrdən keçsə də, öz azərbaycanlı kimliyini qoruyub, düşmənlərinə boyun əyməyib. XIX əsrin ikinci yarısından başlayaraq neft üçün Azərbaycana gəlmiş xarici kapital sahibləri Cənubi Qafqazın ən görməli məkanlarından biri olan Qarabağa – Şuşaya, Kəlbəcərə səfərlər ediblər. Sonrakı vaxtlarda sovet hakimiyyəti dövründə Qarabağ həm xarici, həm də yerli turistlər tərəfindən çox seçilib. XX əsrin 30-cu illərindən Şuşadakı kurort müəssisələri, pansionat və sanatoriyalar, Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, əfsanəvi Cıdır düzü buraya səyahətə gələnlərin sevimli yeri olub. Bunlarla yanaşı, Xankəndi, Ağdam, Kəlbəcər ərazilərindəki rekreasiya məkanları bölgənin turizm-rekreasiya potensialı onu beynəlxalq əhəmiyyətli bir səviyyədə tanıdıb, respublikamıza gələn yüz minlərlə turistin mühüm bir hissəsi məhz Qarabağın payına düşüb. Xüsusən 1970-ci illərdən başlayaraq burada yaradılmış turizm-rekreasiya müəssisələrinin xidmətlərindən hər il yüz minlərlə yerli və xarici turist istifadə edib. Ancaq Ermənistanın 1988-ci ildən başlayan hərbi təcavüzü nəticəsində təkcə Qarabağda deyil, eyni zamanda buradan qaçqın salınmış insanların ölkəmizin kurort-sanatoriya müəssisələrində yerləşdirilməsi ilə bütün Azərbaycanda daxili və gəlmə turizmə ciddi zərərlər vurulmuş, turizm ehtiyatları, xüsusən Azərbaycan xalqının zəngin tarixi-mədəni ehtiyatları talanmış, bölgədə ekoloji böhran yaranmış, bütün infrastruktur məhv edilmişdir.

Qarabağ iqtisadiyyatında turizmin yeri buranın təbii ehtiyatları, coğrafi mövqeyi, tarixi zənginlikləri və potensial nəqliyyat imkanları ilə əlaqədardır. Buna görə də Qarabağın zəngin təbii ehtiyatlarının və xalqımıza məxsus milli-mədəni mirasının turizm dövriyyəsinə cəlb edilməsi qarşıdakı dövrdə görüləcək mühüm işlərdən biri olacaq. 30 ilə yaxın yurd həsrəti çəkən Qarabağ sakinlərinin, onların yaxın qohum-əqrəbalarının, müxtəlif humanitar missiyalar həyata keçirən

beynəlxalq təşkilatların nümayəndələrinin, dünyanın hər yerindən olan media ordusunun və bölgəyə yeni sərmayə yatırmaq üçün Azərbaycana gələcək investorların səyahət məsələləri digər işlərlə bərabər şəkildə həyata keçiriləcəkdir. **Turizm növlərinə gəldikdə, 8 noyabr – Şuşanın işğaldan azad olunması tarixi** turizm baxımından da xüsusi əhəmiyyət daşıyacaq. Bu tarixi gündə turlara qatılan hər yaş təbəqəsindən və hər cür sosial qrupdan olan insanlar Azərbaycan Ordusunun keçdiyi zəfər yolunu bu dəfə turist kimi keçəcəklər. Şuşa istiqamətində ilk səfərə çıxanlar, xüsusən xarici media təmsilçiləri üçün belə səfərlər erməni vandalizminin əsl mahiyyətini göstərmək üçün xüsusi bir fürsət olacaq. Qarabağın 30 illik işğal dövrü ərzində hər yerdə məhv edilmiş insan məskənlərini, korlanmış ekosistemi, dağıdılmış məzarlıqları və eləcə də Daş dövrünü xatırladan primitiv erməni həyat tərzini bütün bəşəriyyətə göstərmək belə tanışlıq turlarının əsas motivi olacaq. Bu marşrutlar Suqovuşandan Xankəndiyə, işğaldan ilk azad olunmuş Cəbrayıldan Kəlbəcərədək geniş bir ərazidə çox zəngin informativ resursa sahib olacaq. Xarici jurnalistlər, eləcə də bütün əcnəbi turistlər işğaldan miras qalmış şəhər və kəndləri gördükcə bu, onlarda ermənilərin gerçək həyat tərzi haqqında ən real təsəvvür yaradacaq. Onda bütün dünya biləcək ki, faşizm ruhlu bu insanlar istədiyi vaxt sıx məskunlaşdıqları Los-Angeles, Marsel, Beyrut, Rostovda da hər an belə izlər qoyub getməyə hazırdırlar.

İşğal sonrası Qarabağda turizmin inkişafı, hər şeydən əvvəl, bu bölgənin iqtisadiyyatının dirçəldilməsi və ölkəmizin digər yerlərində məskunlaşmış yerli insanların öz torpaqlarına qayıdışı üçün mühüm faktorlardan biri olacaq. Turizmin çox ciddi sosial-humanitar məzmunlu funksiyaları bunu etməyə imkan verir. Belə ki, turistlərə təklif olunacaq xidmətlər digər sahələrə nisbətən öz xərcini daha tez çıxardığından bu, bölgəyə işçi qüvvəsi axınına səbəb olacaqdır. Qarabağda həm

ekoturizm, həm mədəni tanışlıq, həm də müalicə turizmi üçün geniş imkanlar olduğundan burada turistlərə təklif edilən zərf xidmətlərinin də çeşidi və məzmunu olduqca müxtəlif olacaq. Laçın və Kəlbəcərin unikal relyef müxtəlifliyi burada həm yay, həm də qış turizminin perspektivlərini artırır. Turist marağı baxımından dünyada çox populyar olan səhləb bitkisi xarıbülbülü Şuşada canlı olaraq seyr etmək **Qarabağın turizm cazibədarlığını** xüsusi olaraq artırır. Qarabağ bölgəsi Azərbaycanın bir çox yerlərindən fərqli olaraq qışı və yayı mülayim keçən, yaşıllıqlarla zəngin olan bir ərazidir. Belə bir unikal təbii-iqlim xüsusiyyətləri ərazidə aqroturizmin və kənd-yaşıl turizminin də inkişafı deməkdir. Erməni işğalından sonra burada kənd infrastrukturunun sürətlə yenilənməsi, normal həyat üçün bütün zəruri şəraitin yaradılması bölgə kəndlərini şəhərli turistlər üçün sevimli istirahət məkanı edəcək.

Qarabağda turizmin gələcək inkişafının iqtisadiyyata çoxaldıcı effektindən əlavə, çox mühüm siyasi əhəmiyyəti də vardır. Bu gün artıq Şuşa şəhərinin və Xudafərin körpüsünün UNESCO-nun mədəni irs siyahısına salınması üçün işlərə başlanılıb. Bütün bunlar 30 il ərzində ermənilərin təkcə bu bölgə üçün deyil, bütün Cənubi Qafqaz bölgəsi üçün törətdikləri riskli bölgə imicinin də qırılması deməkdir. Qarabağın işğalına görə mövcud olmuş riskli bölgə anlayışı isə təkcə ölkəmizdə deyil, bütün bölgədə həm getmə, həm də gəlmə turizmə çox ciddi zərərlər vururdu. Bu gün hələ də cəzasını çəkdikləri sərsəm xəyallarından əl çəkməyib, quru bir ağac parçasına da tamah salan məğlub erməni cəmiyyəti bilməlidir ki, işğal etdiyi Qarabağda taladığı **Azərbaycan qızılı**, meşə sərvətləri, inşaat materialları kimi çox dəyərli turizm ehtiyatlarımız da olub. Buna görə də, Azərbaycanın Qarabağda qısa müddətdə turizmdən əldə edəcəyi müsbət nəticələr ölkəmizin turizm ehtiyatlarına, turizm sənayesinə və ümumilikdə, iqtisadiyyatımıza vurulmuş zərərlərə görə Ermənistanın ödəməli olduğu **maddi təzminatın** daha tutarlı

bir arqumenti olacaq. 2019-cu ilin nəticələrinə əsasən Azərbaycana gəlmiş **2,5 milyona yaxın əcnəbi turistin ölkə iqtisadiyyatına qazandırdığı, təxminən, 3 milyard ABŞ dolları** həcmində gəlir, bu baxımdan Qarabağın işğalı nəticəsində itirdiymiz gəlirlərin səviyyəsindən xəbər verir.

Turizm sülh və sabitliyin bəhrəsi, eyni zamanda rahat yaşayışın mühüm faktorlarındandır. Buna görə də Qarabağın azadlığa qovuşması XXI əsrin ilk mühüm hadisəsi kimi tarixə keçdisə, bu torpaqda turizmin inkişafı da bu bölgədə hamının arzu etdiyi humanitar inkişaf üçün mühüm töhfə olacaq.

***"Şərq qapısı", 11 dekabr 2020-ci il***
**https://www.mia.az/mobil/1002342**

# Erməni xəstəliyi: simptomları, müalicəsi

*İki yüz ilə yaxın bir müddətdə təkcə Cənubi Qafqaz regionunda deyil, elə səpələndikləri beş (bəlkə də, altı) qitədə insanların başını ağrıdan, terror, təxribat və fitnə yolu ilə normal həyatı məhv edən erməni xəstəliyi də davam etdikcə onun daşıyıcıları olan ermənilərin və hay heyranlarının qızdırması da vaxtaşırı olaraq qalxır. Müasir tibb elminə gerçək "erməni xəstəliyi" adı ilə qızdırma əlamətli genetik bir xəstəlik kimi məlum olan, tibbi statistikada isə, əsasən, erməni millətindən olan insanların daha çox yoluxduğu bildirilən və Şimali Afrika-Aralıq dənizi mənşəli bu mərizin müayinəsi və müalicəsi barədə dəqiq elmi fikirlər məlum olsa da, yaltaqlıq, lovğalıq, hiylə və qorxaqlıq kimi simptomları ilə hər yerdə rastımıza çıxan daha təhlükəli erməni xəstəliyi bu gün hamı ilə birgə bizim də başımızı ağrıtmaqdadır.*


Erməni xəstəliyi: simptomları, müalicəsi
(felyeton)
Əli CABBAROV

**Erməni xəstəliyi** unikal bir xəstəlikdir. Uzaq və yaxın tarixdə baş verən hadisələrə, eləcə də Azərbaycanın 44 günlük uğurlu Vətən müharibəsindən sonrakı cəmisi ikiaylıq bir müddətin xronologiyasına baxdıqda görürük ki, ermənilər, nəinki onların qanına işləmiş xəstəlikdən, nəhayət ki, qurtulmağa, insan kimi yaşayıb adam olmağa çalışır, tam tərsinə, bir-birini dişləyən **zombilər** kimi öz aralarında daha çox virus yayıb xəstələnməyə çalışırlar. Əslində, statistik olaraq ermənilərin bir-birini yoluxdurmasının pandemik bir fəlakət doğuracağı təhlükəsi yoxdur. Yəni, bəlkə

də, 70 faizdən çoxunun indi Ermənistan adlanan Qərbi Azərbaycan torpaqlarından kənarda yaşadığı bu etnik qrupun 6-7 milyonunun hamısı virusa bulaşsa, nə baş verər ki?! Başqa sözlə, indiki pandemiya şəraitinin təcrübəsi onu deməyə əsas verir ki, əgər bu qədər insanın hamısı gizli daşıyıcı olarsa, tək bircə sərt karantin rejimi ilə onları məhdudlaşdırmaq mümkündür. Ancaq tarixin ötən dövrlərinə, elə lap 100 il əvvəldən bu günədək olan dövrə baxdıqda görürük ki, ermənilərin bu tarixi xəstəliyini məhdudlaşdırmaq üçün nə tibb, nə digər təbiət elmləri, nə də sosial elmlərin gəldiyi nəticə bir fayda verir. Yeri gəldi-gəlmədi, lovğalanıb özlərini Yer üzünün ilk və əbədi sakinləri tipində göstərən ermənilərə gerçək kimliyini xatırladanda dərhal daban yalayıb ən miskin cildə düşmələrinə, yaxud pusquya yatmış zınqırovlu ilan kimi on illərlə səbirlə gözləyib qəfildən şikarını zəhərləyən, sonra da başı əziləndə, sanki heç bir şey olmamış kimi quyruğunu sağa-sola çırpıb ara qarışdırmalarına qarşı, görəsən, hansı vaksin, hansı dərman fayda verər? Deyəsən, çətin məsələdir. Çünki bu gün 10 noyabr 2020-ci il tarixli təslimolma sənədinə imza atıb, 30 il ərzində viran qoyduqları Qarabağdan rüsvaylıqla qovulan ermənilərin siyasi liderlərindən tutmuş xaricdəki əli pulla oynayan "yan"larınadək, demək olar ki, hamısı hələ də qızdırma içində, – bu məğlubiyyət hər şeyin sonu deyil, – deyə bir ağızdan sayıqlamaqdadırlar.

Görünür, xain qonşularımız yeni yüzilliyə yeni savaş standartları gətirmiş qalib Azərbaycan Ordusundan aldıqları layiqli dərsdən hələ də düzgün nəticə çıxarmayıblar. Ola bilər, ağır kəllə-beyin travması almış insanın nə gəldi söyləməsi mümkündür. Amma huşu özünə gələr-gəlməz yenidən böyük torpaqlar udmaq iştahası ilə ağzını açan ermənilər, görəsən, nədən belə xəstədirlər? Bunun səbəbləri nədir? Gəlin baxaq.

**Ermənilər acgözdürlər**. Bu, bəlkə də, onların tarixən kasıb yaşamaları, yaxud həmişə xidmətçi kimi ələbaxım olmalarına bağlıdır. Amma bu da vardır ki, bu insanlar yaxşı

bir fürsətçi kimi yaşadıqları yad ölkələrdə "düzüb-qoşmaq" ustası kimi yerli insanlardan da yaxşı yaşamağı bacarırlar. Əsl erməni xislətinin də dilənçilik olduğunu deməmək insafsızlıq olar. Ədalət naminə onu da demək lazımdır ki, "quyuya su tökməklə quyuda su olmaz" zərb-məsəli də ermənilər üçün çox tutarlıdır. Yəni Ermənistanda insanları yaşada biləcək zəngin təbii ehtiyatlar olmasa da, müasir dünya təcrübəsi göstərir ki, elmtutumlu istehsal ilə bunlarsız da yaxşı yaşamaq mümkündür. Amma gəlin görək sübh erkəndən, günbatana qədər Ağrı dağına qovuşmaq xəyalları ilə yaşayıb, Göyçə gölünü Xəzərdən də böyük hesab edən ermənilərdə haradandı bu təpər? Ac toyuq yuxusunda darı görər, – misalı ilə desək, Rusiyaya konservləşdirilmiş **badımcan kababı ixracı** ilə müasir Ermənistanda hansı işləri görmək, hansı irimiqyaslı layihələri reallaşdırmaq olar? Ona görə də ötən dövrdə konyak diplomatiyası və bundan daha alçaq yollarla ələ aldıqları üçüncü, dördüncü dərəcəli xarici havadarları sayəsində gördükləri işlərin mahiyyəti sonucda bir **çaxır xumundan** böyük olmadı. Nəticə də göz qabağındadır. Bu dövrdə erməni gənclər çörəkpulu üçün kütləvi olaraq xaricə axışdı, kəndlər boşaldı, iqtisadiyyat çökdü, qızları evdə qalıb qarıdılar.

**Hiyləgər ermənilər** fitnə-fəsad çıxarmağın əsl ustasıdırlar. Olanları gizlətmək, olmayanı qıpqırmızı adamların üzünə demək bacarığı, sanki bu insanların boyuna biçilib. Heç qara ləkələrlə dolu tarixlərini demirəm. Elə götürək ağ bayraq qaldırıb imdad dilədikləri 10 noyabrdan sonrakı dövrdə Ermənistan mətbuatındakı yazıları. Bir tərəfdən dövlət başçılarını satqın adlandıran erməni başbilənləri, digər tərəfdən elə cümlələr yazırlar ki, sanki Qarabağda qələbə qazanan elə bunlarmış. Yəqin ki, xalqımız Şuşa zəfərini yaşadığı gün ermənilərin Qubadlıda nəzarətin hələ də onlarda olması kimi gülməli bəyanatlarını xatırlayanlar vardır. Deməli, ermənilər yeri gəlsə, hətta öz binəva xalqını da aldatmaqdan çəkinmir, o ki qaldı dünyanı çaşbaş salmağa.

Amma çoxbilmiş tülkü quyruğundan tələyə düşər, – deyiblər. Ermənilər tarixboyu çirkin əməllərini saxtakarlıqla ört-basdır etsələr də, müasir dünya artıq internet, foto-videofakt dünyasıdır. Bir anda dünya olub-bitənləri görür, şərhə ehtiyac duymadan hər bir həqiqətin şahidi olur. Belə həqiqətlər isə yüzlərlə, minlərlədir. Odur ki, indi erməni xəstəliyinə tutulmuş **hər bir ermənінin bir qorxusu** var: içlərindəki qisas dolu faşizm hisslərinin birbaşa qurbanına çevrilmək! Çünki ermənilər qorxaq olduqları kimi də qəddardırlar. Yəni illər ərzində gizli saxladıqları kirli əməllərinə görə cavab verəcəyi günün qorxusundan onlar hər kəsə, hətta öz millətinə də qarşı amansız olurlar. Bu da erməni xəstəliyinin bir simptomudur.

**Ermənilər lovğadırlar**. Saray təlxəkləri kimi **gop edib camaatı əyləndirən ermənilər** elə modern yalanlar uydursunlar ki, gəl görəsən. Bu da erməni xəstəliyinin bir əlamətidir və məncə, onu müalicə etmək daha çətindir. Misal üçün, planetdə qitə adlarının “A” ilə başlayıb “A” ilə qurtardığını əsas gətirib, bütün Yer kürəsindəki quru ərazilərin onlara məxsus olduğunu iddia edən erməni, yəqin ki, Ermənistanın da baş yalançısıdır. Yaxud üzümün, əriyin, gilasın vətəninin Ermənistan olduğunu, lavaşın, dolmanın onların mətbəxinə məxsus olduğunu deyən ermənidən daha nə gözləyəsən? Hamı deyəcək ki, xəstədir, boş ver! Bəli, elə bu xəstə ermənilər idi ki, bir zaman Şuşada, Cıdır düzündə qol götürdülər, **amma yallı gedə bilmədilər**. Çünki yad torpaqda, onlara məxsus olmayan musiqinin ritmini tuta bilmədilər və hamılıqla büdrəyib, çox pis yıxıldılar. Həm də axı yallı həmrəylik simvolu kimi türk xalqlarına məxsus rəqsdir. Həmrəyliyin nə olduğunu isə təkcə ermənilər deyil, bütün dünya 44 günlük şanlı Vətən müharibəsi dövründə Azərbaycandan yaxşıca öyrəndi…

Nə isə, deyəsən, bütün bunlardan sonra onsuz da xəstə ermənilərin dərdi daha da artıb. Amma onu deyim ki, dərmanlarını da tapıblar. **Dəmir yumruq!** Bu dəmir yumruq

erməni xəstəliyinin ən tutarlı dərmanı kimi başlarında partlayıb bir az ağıl gətirdi. Bir müddət səsləri çıxmadı. Amma, deyəsən, hələ də tam sağalmayıblar. Elə isə müzəffər Ordumuzun Ali Baş Komandanının dediyi kimi: "Əgər bir də baş qaldırsalar bu dəfə 44 günlük müharibə yalan olacaq!" Çünki bütün dünya indi erməniləri, onların düçar olduqları xəstəliyi və simptomlarını da əvvəlkindən daha yaxşı tanıyır.

***"Şərq qapısı", 12 yanvar 2021-ci il***

***http://85.132.16.133/index.php/idztimai-siaysi/29190-ermaeni-khaestaeliyi-simptomlar-mualidzaesi-felyeton.html***

***https://www.mia.az/w1005578/ermeni-xesteliyi-simptomlari-mualicesi-2021-01-08-172537***

# Naxçıvan Dəmir Yolu dünya şəbəkəsinə qoşulmağa tam hazırdır

*İşğalçı Ermənistan isə bu yolun böyük hissəsini tamamilə dağıdıb.*

Son dövrlərdə Avrasiya məkanında gedən sürətli inteqrasiya prosesləri, xüsusən, ötən ilin payızında müzəffər



Naxçıvan Dəmir Yolu dünya şəbəkəsinə qoşulmağa tam hazırdır

İşğalçı Ermənistan isə bu yolun böyük hissəsini tamamilə dağıdıb

**Son dövrlərdə Avrasiya məkanında gedən sürətli inteqrasiya prosesləri, xüsusən, ötən ilin payızında müzəffər Azərbaycan Ordusunun işğalçı Ermənistan üzərində şanlı qələbəsindən sonra bölgədə yaranmış əlverişli geosiyasi vəziyyət və qardaş Türkiyənin Naxçıvanla qonşu vilayətlərində yaradılan və genişləndirilməsi planlaşdırılan nəqliyyat-kommunkasiya şəbəkəsi Avropanın qərbindən Asiyanın şərqinədək fasiləsiz dəmir yolu xəttinin istifadəyə verilməsi ideyasının reallığa çevrilməsinə zəmin yaradır.**

Tarixən, Şərqin qapısında milli maraqlarımızın alınmaz qalası kimi dayanmış qədim Naxçıvan özünün inkişaf səviyyəsi və bu beynəlxalq şəbəkədə tutduğu mühüm tranzit imkanları ilə dünyanın iri strateji araşdırma mərkəzlərinin diqqət mərkəzinə çıxıb. Artıq Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə bu beynəlxalq dəmir yolu şəbəkəsinin erməni işğalçıları tərəfindən Qarabağ ərazisində məhv edilmiş 100 kilometrlik Horadiz--Ağbənd hissəsinin bərpasına start verilib.

Dövlət başçısı bu xəttin yenidən çəkilməsinin təməlqoyma mərasimində onun çox böyük strateji əhəmiyyətini vurğulayaraq bildirib: "İlk növbədə, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək".

Yeri gəlmişkən, qeyd edək ki, nəqliyyat, yük daşınması həmişə inkişafın əsas amillərindən biri olub. Qədim İpək yolu ticarəti dövründə dəvə karvanlarının keçdiyi yollar simvolik olaraq bu gün sürətli mexaniki vasitələrlə keçilsə də, tarixi inkişafın bütün mərhələlərində bu yollara yenidən qayıdışlar daha üstün səviyyədə olub.

Azərbaycan Ordusunun işğalçı Ermənistan üzərində şanlı qələbəsindən sonra bölgədə yaranmış əlverişli geosiyasi vəziyyət və qardaş Türkiyənin Naxçıvanla qonşu vilayətlərində yaradılan və genişləndirilməsi planlaşdırılan **nəqliyyat-kommu-nkasiya şəbəkəsi** Avropanın qərbindən Asiyanın şərqinədək fasiləsiz dəmir yolu xəttinin istifadəyə verilməsi ideyasının reallığa çevrilməsinə zəmin yaradır. Tarixən, Şərqin qapısında milli maraqlarımızın alınmaz qalası kimi dayanmış qədim Naxçıvan özünün inkişaf səviyyəsi və bu beynəlxalq şəbəkədə tutduğu mühüm tranzit imkanları ilə dünyanın iri strateji araşdırma mərkəzlərinin diqqət mərkəzinə çıxıb. Artıq Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə bu beynəlxalq dəmir yolu şəbəkəsinin erməni işğalçıları tərəfindən Qarabağ ərazisində məhv edilmiş 100 kilometrlik Horadiz—Ağbənd hissəsinin bərpasına start verilib.

Dövlət başçısı bu xəttin

yenidən çəkilməsinin təməlqoyma mərasimində onun çox böyük strateji əhəmiyyətini vurğulayaraq bildirib: **"İlk növbədə, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək".**

Yeri gəlmişkən, qeyd edək ki, nəqliyyat, yük daşınması həmişə inkişafın əsas amillərindən biri olub. Qədim İpək yolu ticarəti dövründə dəvə karvanlarının keçdiyi yollar simvolik olaraq bu gün sürətli mexaniki vasitələrlə keçilsə də, tarixi inkişafın bütün mərhələlərində bu yollara yenidən qayıdışlar daha üstün səviyyədə olub. Bu gün də, dünya pilotsuz uçan aparatların döyüş möcüzəsindən danışarkən, bir zamanlar tacirlərin ən etibarlı güzargahı olmuş marşrutların yenidən dirçəldilməsi məsələləri artıq dünya gündəminin ilk onluğuna möhkəm oturub.

Şərq — Qərb dəhlizində hamı üçün faydalı olacaq yeni kommunikasiya xətlərinin istifadəyə verilməsi bu baxımdan beynəlxalq logistika mərkəzlərinin nəzərlərini 29 ilə yaxındır ki, təcavüzkar Ermənistanın Qarabağı işğal etməsi və Mehri dəhlizini məhv etməsi səbəbindən xarici aləmə bağlı qalmış Azərbaycan Dəmir Yolunun Naxçıvan Dəmir Yolu Hissəsinə yönəlib. Çünki bu yol əvvəlki kimi yenə alterantivsizdir, etibarlı əllərdədir və qorunub saxlanıb, dünya nəqliyyat şəbəkəsinə qoşulmağa tam hazırır.

Yaşlı və orta nəslin yaxşı xatırladıqları bu yolun əhəmiyyətinə nəzər salmaq üçün 30-40 əvvələ qısa ekskurs edək. Doğrudur, Naxçıvan Dəmir Yolunun, necə deyərlər, **Nikolayı taxtda görmüş qədər yaşı** vardır. Belə ki, 1903-cü ildə Çar Rusiyası hər yerdə olduğu kimi öz nüfuzunu artırmaq məqsədilə cənub sərhədlərində, Araz çayı boyunca da bu xəttin çəkilişinə qərar verib və Uluxanlı—Culfa dəmir yolu xətti çəkilib. O dövrdə yolun Naxçıvan—Culfa hissəsinin olduqca mürəkkəb relyef formasına baxmayaraq çox inadla və keyfiyyətlə çəkilməsinə xüsusi diqqət yetirilib. O zaman qurulmuş yol və körpülərdən hələ də istifadə olunması bunu sübut edir.

Bu yol o zaman bölgənin iqtisadiyyatının inkişafından çox, imperiyanın nüfuz və maraqları nəzərə alınmaqla salınıb. O zamankı dəmir yollarında hərəkət edən ikioxlu kiçik vaqonların yükünə hesablanmış bu yolda artıq dörd və daha çox oxlu vaqonların da hərəkəti mümkündür. Yolun sonrakı dövrlərdə istismarı və buradakı yük gərginliyi onu göstərdi ki, doğurdan da, Araz çayı boyunca çəkilmiş bu yolun bütün Cənubi-Qafqazın iqtisadi-mədəni həyatında mühüm rolu var.

1941-ci ildə Naxçıvan Dəmir Yolunun ən əhəmiyyətli hissəsi olan Culfa — Mincivan yol sahəsi istfadəyə verilib. Zamanlama baxımından diqqət etsək, görərik ki, bu tarix İkinci dünya müharibəsinin başlanmasına təsadüf edir. Belə ki, həmin hissənin çəkilişi hələ ötən əsrin 20-30-cu illərində planlansa da, artıq müharibə başlanan kimi SSRİ hökuməti arxa cəbhənin möhkəmləndirilməsi və İranla nəqliyyat əlaqələrinin genişləndirilməsi üçün bu layihəni çox sürətlə həyata keçirdi. Sonrakı dövrlərdə yolun buraxılış imkanları nəzərə alınaraq Naxçıvandan Mincivana, ordan da Bakıya qədər olan hissə daha çox yükdaşımalarda istifadə olunurdu.

Təkcə bir faktı demək kifayətdir ki, sovet dövründə Naxçıvan Dəmir Yolu ilə daşınan yüklərin 80-85 faizi məhz **nankor ermənilərə** ünvanlanırdı. Hətta Zəngəzur bölgəsi üçün

gətirilən yüklərin Naxçıvan stansiyasında boşaldılaraq daha sonra yük maşınları ilə daşındığını da bilirik. Hərəkətin həcmi isə nə az, nə çox, 80-ci illərin inkişaf dövründə hər gün 30-40 yük və sərnişin vaqonundan ibarət olmaqla 25 cüt qatara qədər çıxırdı. Toplamda hər il bu yol ilə 22-25 milyon ton yük, gün ərzində isə minlərlə sərnişin daşınırdı. O zamanlar **Moskva-Tehran marşrutu** üzrə hərəkət edən sərnişinlər də Naxçıvan Dəmir Yolundan istifadə edirdilər.

Naxçıvan Dəmir Yolunun bir nəqliyyat təsərrüfatı kimi inkişafı 1976-cı ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə o zamankı yolun mərkəzi aparatının İmişlidən Naxçıvana köçürülməsi ilə başlayıb. Bundan sonra hissə bütün yol təsərrüfatı Naxçıvandan idarə olunmağa, buradan planlanmağa başlanıldı. Onu da qeyd edək ki, hətta 2000-ci illərin əvvələrinə kimi Azərbaycan Dəmir Yolunun Lənkəran-Astara hissəsi də Naxçıvana tabe idi. Lakin ötən əsrin 90-cı illərində Naxçıvan Dəmir Yolu Hissəsi də böhranla üz-üzə qalmışdı. Ermənilərin artan iştahı, sönmək bilməyən torpaq iddiaları son nəticədə dəmir yolundakı hərəkətə də son qoydu. 1992-ci il aprel ayının 23-də axırıncı qatar Bakıdan Naxçıvana hərəkət edə bildi. Bundan sonrakı illər Naxçıvan Muxtar Respublikasının çətin nəqliyyat blokadası dövrü oldu.

Lakin Naxçıvan yaşadı və gələcəyə olan inamı da burada dəmir yolunu yaşatdı, onu dağılmaqdan xilas etdi. Bu gün Ermənistan ərazisində və işğal olunmuş ərazilərdə dağıdılmış dəmir yolunun peyk fotolarına, sosial şəbəkədəki şəkillərinə baxdıqda bu vəhşiliyi törədənlərin insan olduğuna inanmırsan. Həmişə Azərbaycanın mülkiyyətində olmuş bu yolun Mehri ərazisində depo, stansiya, tunel, körpü, elektrik təchizatı, rabitə, anbar kimi digər çox sayda dəmir yolu infrastrukturu obyektlərinin ermənilər tərəfindən necə dağıdılıb, metal qırıntısı kimi **“xuruş” edildiyini** görməkdəyik. Hələ yol bağlananda Mehri və Mincivan zonasında qalmış teplovoz, vaqon və müxtəlif təyinatlı avtomobilləri demirik.

Hər halda, həmişə yardım və ianələrlə yaşamış ermənilərdən yaradılanları qoruyub saxlamağı, nə zamansa, bəlkə, elə özlərinə də lazım olar deyə bu yolu dağıtmamağı gözləmək də sadəlövlük olardı. Nəticə isə göz qabağındadır. Naxçıvan Dəmir Yolunun Ermənistan ərazisindəki və Qarabağda 28 il işğalda qalmış hissəsi də tammilə məhv edilib. Təbii ki, bu gün artıq erməni təcavüzünün təsərrüfatın digər sahələrinə vurduğu ağır zərərlər kimi, Azərbaycan Dəmir Yoluna da vurulmuş zərbələr dəqiqliklə müəyyənləşdirilib, təzminat faktı kimi məğlub ölkə qarşısında iddia ediləcək.

Dəmir yolu təsərrüfatı çox mürəkkəb olub canlı orqanizm kimidir. Yenə də köhnə dəmiryolçuların dili ilə desək, o zamanlar dəmir yolu ağır dartı qurğularından tutmuş özünün uşaq bağçaları, məktəbi, xəstəxanası, mağazalarınadək bütün zəruri olan sahələri özünə birəşdirən bütöv bir sistem idi. Ümumilikdə, o zaman Azərbaycan Dəmir Yolunun Naxçıvan Hissəsində 4-5 min nəfərin işlədiyi qeyd olunur. Başqa sözlə, dəmir yolu o zamankı insanların iqtisadi və sosial həyatının bir parçası olub.

Fərəhli haldır ki, Naxçıvanın blokadaya alınmasından kifayət qədər vaxt keçsə də, muxtar respublika ərazisindəki dəmir yolu xətləri və bütün yol infrastrukturu tamamilə işlək vəziyyətdə saxlanılıb, hətta bir sıra yenilənmə işləri də aparılıb. Belə ki, ötən dövr ərzində Naxçıvan ərazisində bütün dəmir yolu stansiyaları və inzibati binalar yenilənib. Bu dövrdə yolun əsaslı təmir müddətinin 2--3 dəfədən artıq ötməsinə baxmayaraq daxili imkanlar hesabına yol təsərrüfatı qorunub saxlanılıb. Şəbəkəyə nəzarət artırılıb, yük və sərnişin qatarlarının hərəkət sürəti tənzimlənib.

Hazırda istismar olunan sərnişin qatarlarındakı komfort şəraiti isə köhnə sərnişinlərin təsəvvürlərindən tam fərqli olub ən müasir tələblərə cavab verir. İndi çox sərfəli qiymətlərlə Şərurdan Ordubada və geriyə hərəkət edən sərnişinlər istitmə sistemli, kondisionerli vaqonlarda oturub, WiFi-dan istifadə

edə, tər-təmiz yoldan Araza doğru uzanan mənzərəni seyr edə bilirlər. Bu sərnişinlərin sayı isə hər ay orta hesabla 10-12 min nəfərə çatır. Daşınan yüklər isə əsasən daxili tələbatın ödənilməsi üçün yerli tikinti materiallarından ibarətdir.

Bəli, yaranmış yeni situasiya artıq bölgədə daha geniş quruculuq və iqtisadi əlaqələr üçün yeni kommunkasiya xəttlərinin açılışını zəruri edir. **Londondan Pekinə** qədər uzanıb, üç qardaş ölkəni— **Türkiyə, Azərbaycan və Pakistanı** birbaşa olaraq bir-birinə bağlayacaq yeni dəmir yolunun Naxçıvandan keçməsi bütün region kimi muxtar respublikanın iqtisadiyyatına yeni güc qazandıracaq.

Qarabağda qazandığımız tarixi qələbənin yaratdığı reallıqların nəticəsi olaraq Mehri dəhlizinin açılması, yolun dağıdılmış hissəsinin bərpa edilməsi ilə bu xəttg boyunca yenə aramsız qatar səsləri gələcək, vağzallar sərnişinlərlə dolub daşacaq. Bu yol Naxçıvanın Şərqin Qapısı olduğunu eşidənlər üçün yaddaqalan və sərfəli bir səyahət marşrutu da olacaq.

Dəmir yolunda hərəkətin yenidən canlanması ilə ölkədaxili yüklərin daşıma xərcləri düşəcək, tranzit yüklərdən valyuta gəlirləri əldə olunacaq. Eyni zamanda Naxçıvanın çox qiymətli ixrac məhsulları üçün dünya bazarlarına mötəbər və tutumlu çıxış da asanlaşacaq.

***"Xalq qazeti", 12 mart 2021-ci il***
***https://xalqqazeti.com/az/news/72420***
***http://anl.az/down/meqale/xalqqazeti/2021/mart/737863(meqale).pdf***

## Əsir çinarın hekayəsi

*(esse)*

Hər bahar gələndə kəndimizdəki nəhəng çinar ağacını xatırlayıram. Üstündən illər keçsə də, sanki indiki kimi gözümün önündə dayanan o qocaman çinarın əzəmətli duruşunu heç zaman unutmayacağam. Ata yurdum Qubadlının axarlı-baxarlı **Başarat kəndinin** girəcəyində, geniş budaqlarının kölgəsində, bəlkə də, yüzlərlə insanı barındıra



Əsir çinarın hekayəsi

(esse)

Hər bahar gələndə kəndimizdəki nəhəng çinar ağacını xatırlayıram. Üstündən illər keçsə də, sanki indiki kimi gözümün önündə dayanan o qocaman çinarın əzəmətli duruşunu heç zaman unutmayacağam. Ata yurdum Qubadlının axarlı-baxarlı Başarat kəndinin girəcəyində, geniş budaqlarının kölgəsində, bəlkə də, yüzlərlə insanı barındıra bilən o çinar, deyilənə görə, indi daha yaşamır. Kim bilir, necə acılar çəkib, neçə-neçə ruhsuz düşmənlə qarşılaşsa da, öz qürurunu qoruyub. Axı bu torpaq Nəbinin yurdu, Əlyar, Şükür, Mais kimi qəhrəmanların Vətənidir. Silahı olmasa da, özünün çinar qaməti ilə düşmənə qarşı sonacan vuruşub, əyilmədən sınıb, ömrünü bitirib.

O dəhşətli avqust günlərində yağı düşmən Qubadlını hər tərəfdən mühasirəyə alanda kənd camaatı sonuncu dəfə həmin çinarın kölgəsində toplaşıb müdafiə batalyonundan gələcək xəbərləri ümidlə gözləyirdi. Həmin gün dədə-baba yurdunu, bəzəkli ev-eşiyini, bar-bəhərli bağ-bağçasını birdəfəlik atıb ümidsizliyə doğru yola çıxanların, ağlayan qadın-uşaqların fəryadına, sanki qoca çinar da səs vermişdi. Dili olmasa da, qoca çinar uca boyu ilə yaxınlaşan o qorxunc təhlükəni hamıdan yaxşı görürdü: erməni vandalizmi! Sanki çinarın ürəyinə dammışdı. Qadına, uşağa, qocaya, cavana, hətta canlıya, cansıza da fərq qoymadan hamını atəş altına alıb yox etmək üçün gözü dönmüş erməni vandalizmi! Amma çinar təmkinliydi. Az qala beş yüz il ərzində sakini olub yaşadığı bu torpaqda həmişə onu sevgi ilə salamlayıb, qamətindən fəxrlə danışan, hər gün səhər sübhündən axşam toranınadək görməyə adət etdiyi həmkəndlilərinə vəfa borcunu verməyə qərarlıydı çinar. Sonuncu başaratlını da sağ-salamat yola salıb, bu yerlərin keşiyində duracaqdı...

Deyirlər, çinarlar uzunömürlü olduğu qədər də vəfalı və səbirlidir. Doğma torpağın qucağında ona sahib çıxıb nazını çəkən insanların yolunu həmişə gözləyərlər. Yadellinin bir gün mütləq məhv ediləcəyini, köklərindən daha necə yüzlərlə çinar fidanlarının boy atıb ucalacağını bilən Başarat çinarı da sonunda vüsalına qovuşmuşdu. "Vətən yaxşıdır!" – deyib daha artıq gözləməyə səbri çatmayan igid oğullar bir gün qılıncı çəkib, qoç Koroğlu kimi atlandılar. Qisas zamanıydı! 28 il əvvəl anasının əlindən tutub qoca çinarla vidalaşan gözüyaşlı balaca uşaqlar indi cəsur döyüşçülər kimi geri qayıdıb dastana döndülər. Beləcə, bu əsgərlərin hər birinin ürəyindəki qisas alovu uzun illərin əzabında saçlarını ağardan qoca çinarın da torpağa bağlı köklərinə işıq tutdu, ürəyinə su səpdi.

Rahat yat, çinarım! İndi torpağında Azərbaycan bayrağı dalğalanır.

**Şəlalə CABBAROVA**

***Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbin müəllimi***

bilən o çinar, deyilənə görə, indi daha yaşamır. Kim bilir, necə acılar çəkib, neçə-neçə ruhsuz düşmənlə qarşılaşsa da, öz qürurunu qoruyub. Axı bu torpaq **Nəbinin yurdu, Əlyar, Şükür, Mais** kimi qəhrəmanların Vətənidir. Silahı olmasa da, özünün çinar qaməti ilə düşmənə qarşı sonacan vuruşub, əyilmədən sınıb, ömrünü bitirib.

O dəhşətli avqust günlərində yağı düşmən Qubadlını hər tərəfdən mühasirəyə alanda kənd camaatı sonuncu dəfə həmin çinarın kölgəsində toplaşıb müdafiə batalyonundan gələcək xəbərləri ümidlə gözləyirdi. Həmin gün dədə-baba yurdunu, bəzəkli ev-eşiyini, bar-bəhərli bağ-bağçasını birdəfəlik atıb ümidsizliyə doğru yola çıxanların, ağlayan qadın-uşaqların fəryadına, sanki qoca çinar da səs vermişdi. Dili olmasa da, qoca çinar uca boyu ilə yaxınlaşan o qorxunc təhlükəni hamıdan yaxşı görürdü: erməni vandalizmi! Sanki

**çinarın ürəyinə dammışdı.** Qadına, uşağa, qocaya, cavana, hətta canlıya, cansıza da fərq qoymadan hamını atəş altına alıb yox etmək üçün **gözü dönmüş erməni vandalizmi!** Amma çinar təmkinliydi. Az qala beş yüz il ərzində sakini olub yaşadığı bu torpaqda həmişə onu sevgi ilə salamlayıb, qamətindən fəxrlə danışan, hər gün səhər sübhündən axşam toranınadək görməyə adət etdiyi həmkəndlilərinə vəfa borcunu verməyə qərarlıydı çinar. Sonuncu başaratlını da sağ-salamat yola salıb, bu yerlərin keşiyində duracaqdı...

Deyirlər, çinarlar uzunömürlü olduğu qədər də vəfalı və səbirlidir. Doğma torpağın qucağında ona sahib çıxıb nazını çəkən insanların yolunu həmişə gözləyərlər. Yadellinin bir gün mütləq məhv ediləcəyini, köklərindən daha necə yüzlərlə çinar fidanlarının boy atıb ucalacağını bilən **Başarat çinarı** da sonunda vüsalına qovuşmuşdu. **"Vətən yaxşıdır!"** – deyib daha artıq gözləməyə səbri çatmayan igid oğullar bir gün qılıncı çəkib, qoç Koroğlu kimi atlandılar. Qisas zamanıydı! **28 il əvvəl anasının əlindən tutub qoca çinarla vidalaşan gözüyaşlı balaca uşaqlar** indi cəsur döyüşçülər kimi geri qayıdıb dastana döndülər. Beləcə, bu əsgərlərin hər birinin ürəyindəki qisas alovu uzun illərin əzabında saçlarını ağardan qoca çinarın da torpağa bağlı köklərinə işıq tutdu, ürəyinə su səpdi.

**Rahat yat, çinarım!** İndi torpağında Azərbaycan bayrağı dalğalanır.

***"Şərq qapısı", 16 mart 2021-ci il***

***http://85.132.16.133/index.php/humanitar/sosial/30087-aesir-dzhinar-n-hekayaesi.html https://www.mia.az/mobil/1010063***

# Kimsəsiz Marta...

Adını böyük hərflə yazmaq istəmədiym bu ermənilər yaman ərköyündürlər. Doymayan gözləri, utanmayan sifətləri, bitməyən tamahları bir yana, bir tərəfdən də bütün dünyanın onlardan danışmasını istəyərlər. Elə danışar, elə yazarlar ki, guya Aya ilk dəfə ayaq basan onlar olub, **ilk kosmik raketi də Ayastan fondu** düzəldib. Bir dənə ayıq İsgəndər almağa pulları olmayan ermənilər iş çətinə düşəndə dərisinə gün vurmuş buqələmun kimi rəngdən rəngə düşər, utanmaz-utanmaz yenə də ara qarışdırırlar. Elə baş dilomatları Ara Ayvazyan (Eyvazyan) kimi. Dünyanın ən məşhur ermənisi Kimin bu “ara”sı, yəni **Kardaşyanın qardaşı** qalxıb, “biz Qarabağda sülhün tərəfdarıyıq”, - deyəndə, görəsən, üzünün rəngi necə idi?!


Kimsəsiz Marta... - Dosent Əli Cabbarov yazır

19-03-2021 [13:09]

Əli Cabbarov

Naxçıvan Dövlət Universitetinin dosenti

acabbarov@mail.ru

***

Adını böyük hərflə yazmaq istəmədiym bu ermənilər yaman ərköyündürlər. Doymayan gözləri, utanmayan sifətləri, bitməyən tamahları bir yana, bir tərəfdən də bütün dünyanın onlardan danışmasını istəyərlər. Elə danışar, elə yazarlar ki, guya Aya ilk dəfə ayaq basan onlar olub, ilk kosmik raketi də Ayastan fondu düzəldib. Bir dənə ayıq İsgəndər almağa pulları olmayan ermənilər iş çətinə düşəndə dərisinə gün vurmuş buqələmun kimi rəngdən rəngə düşər, utanmaz-utanmaz yenə də ara qarışdırırlar. Elə baş dilomatları Ara Ayvazyan (Eyvazyan) kimi. Dünyanın ən məşhur ermənisi Kimin bu "ara"sı, yəni Kardaşyanın qardaşı qalxıb, "biz Qarabağda sülhün tərəfdarıyıq", — *deyəndə, görəsən, üzünün rəngi necə idi?!*

Otuz il boyunca yıxıb dağıtdıqları Qarabağ torpağında diş qurdalamağa bir quru çöp saxlamamış ermənilər üçün bunu deməkdən asan nə var ki. Çünki elə sifətləri vardır ki, istədkiləri zaman, istədikləri yerdə hər rəngə boyana bilərlər. Ötən ilin 10 noyabrında qorxudan ölü kimi saralıb imdad diləyən də, sonra İrəvandakı mitinqlərdə əl-qol atıb üzünü bozardan da, iki gün əvvəl avropalı diplomatın üzünə baxa-baxa yalan danışıb elə bu Ara kimi boynunun dalınadək qızaran da elə onlardır. Başqa sözlə, utanmadiqlari üçün ermənilərin üzünün rəngi abırından deyil, həyasızılığından qızarar.

Üzə qızaran ermənilər digər bir tərəfdən də özlərini Yer üzünün ən qədim sakinləri adlandırırlar. Düzdür, planetdə ilk

insan yarananda hələ “böyük Ermənistan” qurulmasa da bəlkə də erməni əlifbası olub. Harda gəldi - ağac kötüyündə, bir daş üzərində, yaxud yolun kənarında adını qazıyan ermənilər bu yolla bir vaxtlar həmin ərazinin onlara məxsus olduğunu işarətləyərdilər. Elə meşədəki **meymunlar** da öz ərazilərini işarətləməyi sevərlər. Amma təbii yolla. Ona görə də Darvinizmə hələ də inananlar varsa, sırf bu yetənəklərinə görə ermənilərin meymunla insan arasında ən qədim insanabənzər bir varlıq olduğunu sübut edənlərlə qismən razılaşmaq olar. Amma gəlin meymunlara da qarşı ədalətsizlik etməyək. Onlar ermənilər qədər şüurlu olmasa da, nisbətən daha yaxşı sosiallaşıb ora-bura səpələnmədən populyasiya halında yaşaya bilən, primitiv ailə dəyərlərinə sahib, dəcəllik edib burnu ovulanlarından həmən dərs çıxaran, edilməyəcək olanı heç vaxt etməyən, yaxud gedilməyəcək yerə getməyən, qarnı acanda sakitcə yemək axtaran, tox olanda da şənlənib acgözlük etməyən gözəl bir canlıdırlar.

Hələ siz ağacların uc pöhrələrini qırıb yeyəndən sonra onu dibindən qoparıb aparan meymunlar gördünüzmü? Yox! Yaxud qaldığı evin damını, pəncərəsini, unitazını söküb özü ilə aparan bir meymun varmı dünyada?!

Görəsən hansı meymun sığındığı divarın üstünə belə kasıb kimsəsizlər kimi öz adını yazar? “Kamo”, “Aşot”, nə bilim “Marta”… Yox bir, “Vazgen”! Belə **utanmaz işlər yalnız ermənilər kimi “ən qədim” xalqdan çıxar.** Görünür, bunların şüuru elə buncaymış ki, hər yerdə öz adlarını belə qazıyıb gediblər ki, bəs buradan da bir vaxtlar ermənilər keçib. Deyirəm yaxşi ki, güclü pulu-imkanları da olmayıb. Olsaydı hətta divarlara iyrənc şəkillərini də çəkərdilər.

Amerikadakı Kim kimi...

***MİA.AZ, 19 mart 2021-ci il***

***https://www.mia.az/w1010549/kimsesiz-marta-dosent-eli-cabbarov-yazir-2021-03-19-131500***

# Dəmir yumruq

*Ötən ilin payızındakı 44 günlük şanlı Vətən müharibəsindən sonra işğaldan azad olunmuş Qarabağ torpaqlarında Azərbaycanın sürətlə həyata keçirdiyi dinc quruculuq, kommunikasiya və humanitar tədbirlər davam edərkən, bir tərəfdən də bütün dünya dərin iqtisadi və siyasi böhran içindəki Ermənistandan danışmaqdadır. Görünür, leysan yağışdan sonra islanmış cücəyə bənzəyən çürük ordusunu nə zamansa gücləndirmək xülyası ilə yaşayıb revanş alacaqlarını ümid edən ermənilər cəmi 5 ay əvvəl yedikləri birinci dəmir yumruğun nokautundan tez ayılıblar. Buna görə də müzəffər Ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyevin fevralın 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimindəki çıxışında dediyi "Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax bu yumruğu görəcək, bu, yerindədir və bizim səbrimizi sınamasınlar. Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır" cümləsi onsuz da can çəkişən erməni cəmiyyətinin başında ikinci yumruq kimi partladı.*



Dəmir yumruq

(felyeton)

*Ötən ilin payızındakı 44 günlük şanlı Vətən müharibəsindən sonra işğaldan azad olunmuş Qarabağ torpaqlarında Azərbaycanın sürətlə həyata keçirdiyi dinc quruculuq, kommunikasiya və humanitar tədbirlər davam edərkən, bir tərəfdən də bütün dünya dərin iqtisadi və siyasi böhran içindəki Ermənistandan danışmaqdadır. Görünür, leysan yağışdan sonra islanmış cücəyə bənzəyən çürük ordusunu nə zamansa gücləndirmək xülyası ilə yaşayıb revanş alacaqlarını ümid edən ermənilər cəmi 5 ay əvvəl yedikləri birinci dəmir yumruğun nokautundan tez ayılıblar. Buna görə də müzəffər Ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyevin fevralın 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimindəki çıxışında dediyi* ***"Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax bu yumruğu görəcək, bu, yerindədir və bizim səbrimizi sınamasınlar. Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır"*** *cümləsi onsuz da can çəkişən erməni cəmiyyətinin başında ikinci yumruq kimi partladı.*

Ağıl, səbir, vətənpərvərlik və siyasi müdriklik hər bir çətin işin ən gözəl həllinə aparan düzgün yoldur. Zəhmətsevərlik, başqasının torpağına, malına göz dikməmək, insanlığa hörmət və tolerantlıq olan yerdə ən sərt təbii-iqlim şəraiti, yaxud çətin coğrafi mövqe də inkişafa mane ola bilmir. Bunu bir çox dünya xalqlarının timsalında görmək olar. Amma bunun əksinə, haralardansa qovula-qovula sonunda Cənubi Qafqazda yer yiyələnib, "yersiz gəldi, yerli qaç" məsələsindəki kimi özlərini həyasızlığa vurmuş ermənilərin belə getsə, sonları heç də yaxşı görünmür. Çünki Romanovdan Qorbaçovadək 150 ildə hamının qılığına girib, min bir feillə özlərinə sərvət toplayan ələbaxım ermənilər bir də baxıb gördülər ki, artıq zaman o zaman deyil. Yalan, fitnə, hiylə və yaltaqlıq daha işə yaramır. Ona görə də normal adam olana qədər başlarına dəyən dəmir yumruqlar bundan sonra da qaçınılmaz olacaq.

Tarixə nəzər saldıqda, işğalçı məğlub ölkələri təkrar təcavüz əməllərindən çəkindirmək məqsədilə müəyyən məhdud sayda ordu qurması şərtinə tabe etdirilməsinin, əslində, onların xeyrinə olduğunu hər kəs bilir. Şübhəsiz, Ermənistanı keçmişdəki Almaniya, yaxud Yaponiya ilə müqayisə etməyin özü də belə köklü mədəniyyətə sahib olan xalqlara qarşı hörmətsizlik olardı. Amma faşizm faşizmdir, böyüyü-kiçiyi olmaz. Ona görə də həm siyasi, həm iqtisadi, həm də digər bütün vasitələrlə Ermənistanın bir daha təcavüz iddiasına sahib ola biləcək ordu yarada bilməməsi bütün bölgənin sabitliyi üçün ən yaxşı çıxış yoludur.

"Erməni gəldi, təzə bəla gəldi!" Çoxlarına yaxşı tanış olan bu gürcü atalar sözü, əslində, ermənilərin heç zaman və heç bir yerdə nazı ilə oynamağın yeri olmadığını ən yaxşı xarakterizə edir. Hətta indiki vəziyyətlərində, yəni, sadəcə, yuxarı mərtəbədə hoppanıb-düşən dəcəl uşaqlar kimi adamı narahat edən belə xain qonşuların sabah qanıçən əjdahaya dönməyəcəyinə kim zəmanət verər ki? Nə qədər çoxdur dünyada süfrəsinin artığı ilə tazı bəsləmək həvəsində olanlar! Tarixboyu başqalarına alət olmaqdan, sadəcə, zövq almış bu etnik qrupdan nə desən, gözləmək olar. Hələ yalan, fırıldağı demirəm. Lazım gələndə, başqasının dilini özünə ana dili seçən ermənilərin adı, soyadı, dili, əlifbası da məhz belə yaranıb. Misal üçün latınca "U" hərfini tərs çevirib hər yerdən bir qulp yapışdır, olsun erməni əlifbası. Yaxud azərbaycanlı adlarını o biri "yan" üstə qoy, olsun erməni adları. Hər şey özləri kimi tərsinə, baş-ayaq.

Bəli, erməni həm də tərs olar. Elə bu tərslikdəndir ki, başlarına dəymiş birinci dəmir yumruqdan sonra müayinə və müalicə olunub, düzgün nəticə çıxarmaq əvəzinə başlayıblar bunun səbəbini haradasa, kimlərdəsə axtarmağa. Baş akademikləri çıxıb deyir ki, bəs Ermənistan Elmlər Akademiyasına on illərboyu bir Bayraktar qədər pul ayrılmadı, ona görə müharibəni uduzduq. Generalları deyir ki, bəs "İsgəndər"ləri düzəldən rus mühəndislər kefli olub deyə, partlamayıblar. Bir başqa erməni günahları top qovan Mxitaryanda, o biriləri də Kardaşyan bacılarında görür ki, xaricdən daha çox pul göndərmədilər, əsgərlər ac qaldılar. Fikirləşirəm ki, yaxşı ki, ötən ilin payızında Qarabağda elə bir qar-yağış yox idi, yoxsa deyərdilər bəs havalar pis keçdi, deyə məğlub olduq. Yəni düzü, həmişə inkar edən tərs ermənilərin başına vaxtaşırı vurulan dəmir yumruq qədər effektiv olan başqa bir dərman, deyəsən, hələ ki, olmayacaq.

Bəlkə də, erməni tərsliyindəndir ki, İrəvan küçələrində mitinq edib, günahkar axtaranlar nədənsə bilmirlər ki, bu məğlubiyyət və ondan sonrakı düşdükləri bu dərin böhran, əslində, Uca Allahın qisasıdır. Tanrı gec edər, amma güc edər! İnanmıram ki, erməni leksikoqrafiyasında belə bir ifadə olsun. Çünki Allaha inansaydılar, 29 il əvvəl soyuq fevral gecəsində Xocalıda tamamən silahsız, köməksiz insanları məhz azərbaycanlı olduqlarına görə öldürüb, dərilərini soyub, vəhşilik etməzdilər. O gecə bunu heç kim görmürdü. Amma hər şeyi görən Allahın Azərbaycan xalqına verdiyi səbir və inam sonunda od olub ermənilərin başına yağdı. Və, beləcə, dəmir yumruğun birinci zərbəsi ilə "erməni ordusu" mifi havaya sovruldu, erməni cəmiyyətinin çürük siması faş oldu.

Bəli, tarixdə ən qanlı, ən qəddar soyqırımına imza atmış belə bir millətin bir daha işğalçı ordusu olmamalıdır. Çünki son iki yüz ilin tarixi göstərdi ki, təkcə Qarabağda deyil, yaşadığımız regionda axan bütün qanların birbaşa səbəbkarı məhz erməni faşizmi, erməni millətçiliyidir. Bir xalqın varlığının, gələcəyinin yalnız humanizm, iqtisadi və mədəni inkişaf yolu ilə mümkün olduğunu görməyən ermənilərin hər fürsət düşdükcə şivən qoparıb qan tökməməsi, beş nəfəri bir yerə yığışanda müstəqillik tələb edib torpaq istəməməsi, başqalarına zəli kimi yapışıb zəhlə tökməməsi üçün təcavüzkar ordusu da olmamalıdır. Əgər bunu istəyirlərsə, başlarına dəmir yumruqlar çaxılması yenə davam edəcək. Həm də istənilən vaxt!

Əli CABBAROV

Ağıl, səbir, vətənpərvərlik və siyasi müdriklik hər bir çətin işin ən gözəl həllinə aparan düzgün yoldur. Zəhmətsevərlik, başqasının torpağına, malına göz dikməmək, insanlığa hörmət və tolerantlıq olan yerdə ən sərt təbii-iqlim şəraiti, yaxud çətin coğrafi mövqe də inkişafa mane ola bilmir. Bunu bir çox dünya xalqlarının timsalında görmək olar. Amma

bunun əksinə, haralardansa qovula-qovula sonunda Cənubi Qafqazda yer yiyələnib, **"yersiz gəldi, yerli qaç"** məsələsindəki kimi özlərini həyasızlığa vurmuş ermənilərin belə getsə, sonları heç də yaxşı görünmür. Çünki **Romanovdan Qorbaçovadək** 150 ildə hamının qılığına girib, min bir feillə özlərinə sərvət toplayan ələbaxım ermənilər bir də baxıb gördülər ki, artıq zaman o zaman deyil. **Yalan, fitnə, hiylə və yaltaqlıq** daha işə yaramır. Ona görə də normal adam olana qədər başlarına dəyən dəmir yumruqlar bundan sonra da qaçınılmaz olacaq.

Tarixə nəzər saldıqda, işğalçı məğlub ölkələri təkrar təcavüz əməllərindən çəkindirmək məqsədilə müəyyən məhdud sayda ordu qurması şərtinə tabe etdirilməsinin, əslində, onların xeyrinə olduğunu hər kəs bilir. Şübhəsiz, Ermənistanı keçmişdəki Almaniya, yaxud Yaponiya ilə müqayisə etməyin özü də belə köklü mədəniyyətə sahib olan xalqlara qarşı hörmətsizlik olardı. Amma faşizm faşizmdir, böyüyü-kiçiyi olmaz. Ona görə də həm siyasi, həm iqtisadi, həm də digər bütün vasitələrlə Ermənistanın bir daha təcavüz iddiasına sahib ola biləcək ordu yarada bilməməsi bütün bölgənin sabitliyi üçün ən yaxşı çıxış yoludur.

**"Erməni gəldi, təzə bəla gəldi!"** Çoxlarına yaxşı tanış olan bu gürcü atalar sözü, əslində, ermənilərin heç zaman və heç bir yerdə nazı ilə oynamağın yeri olmadığını ən yaxşı xarakterizə edir. Hətta indiki vəziyyətlərində, yəni, sadəcə, yuxarı mərtəbədə hoppanıb-düşən dəcəl uşaqlar kimi adamı narahat edən belə xain qonşuların sabah qaniçən əjdahaya dönməyəcəyinə kim zəmanət verər ki? Nə qədər çoxdur dünyada süfrəsinin artığı ilə tazı bəsləmək həvəsində olanlar! Tarixboyu başqalarına alət olmaqdan, sadəcə, zövq almış bu etnik qrupdan nə desən, gözləmək olar. Hələ yalan, fırıldağı demirəm. Lazım gələrsə, başqasının dilini özünə ana dili seçən ermənilərin adı, soyadı, dili, əlifbası da məhz belə yaranıb. Misal üçün latınca **"U" hərfini tərs çevirib hər yerdən bir qulp yapışdır, olsun erməni əlifbası.** Yaxud azərbaycanlı

adlarını o biri “yan” üstə qoy, olsun erməni adları. Hər şey özləri kimi tərsinə, baş-ayaq.

Bəli, erməni həm də tərs olar. Elə bu tərslikdəndir ki, başlarına dəymiş birinci dəmir yumruqdan sonra müayinə və müalicə olunub, düzgün nəticə çıxarmaq əvəzinə başlayıblar bunun səbəbini haradasa, kimlərdəsə axtarmağa. Baş akademikləri çıxıb deyir ki, bəs Ermənistan Elmlər Akademiyasına on illərboyu bir Bayraktar qədər pul ayrılmadı, ona görə müharibəni uduzduq. Generalları deyir ki, bəs “İsgəndər”ləri düzəldən rus mühəndislər kefli olub deyə, partlamayıblar. Bir başqa erməni günahları top qovan Mxitaryanda, o biriləri də Kardaşyan bacılarında görür ki, xaricdən daha çox pul göndərmədilər, əsgərlər ac qaldılar. Fikirləşirəm ki, yaxşı ki, ötən ilin payızında Qarabağda elə bir qar-yağış yox idi, yoxsa deyərdilər bəs havalar pis keçdi, deyə məğlub olduq. Yəni düzü, həmişə inkar edən tərs ermənilərin başına vaxtaşırı vurulan dəmir yumruq qədər effektiv olan başqa bir dərman, deyəsən, hələ ki, olmayacaq.

Bəlkə də, erməni tərsliyindəndir ki, İrəvan küçələrində mitinq edib, günahkar axtaranlar nədənsə bilmirlər ki, bu məğlubiyyət və ondan sonrakı düşdükləri bu dərin böhran, əslində, **Uca Allahın cəzasıdır**. Tanrı gec edər, amma güc edər! İnanmıram ki, erməni leksikoqrafiyasında belə bir ifadə olsun. Çünki Allaha inansaydılar, 29 il əvvəl soyuq fevral gecəsində Xocalıda tamamən silahsız, köməksiz insanları məhz azərbaycanlı olduqlarına görə öldürüb, dərilərini soyub, vəhşilik etməzdilər. O gecə bunu heç kim görmürdü. Amma hər şeyi görən Allahın Azərbaycan xalqına verdiyi səbir və inam sonunda od olub ermənilərin başına yağdı. Və, beləcə, dəmir yumruğun birinci zərbəsi ilə “erməni ordusu” mifi havaya sovruldu, erməni cəmiyyətinin çürük siması faş oldu.

Bəli, tarixdə ən qanlı, ən qəddar soyqırıma imza atmış belə bir millətin bir daha işğalçı ordusu olmamalıdır. Çünki son iki yüz ilin tarixi göstərdi ki, təkcə Qarabağda deyil,

yaşadığımız regionda axan bütün qanların birbaşa səbəbkarı məhz erməni faşizmi, erməni millətçiliyidir. Bir xalqın varlığının, gələcəyinin yalnız humanizm, iqtisadi və mədəni inkişaf yolu ilə mümkün olduğunu görməyən ermənilərin hər fürsət düşdükcə şivən qoparıb qan tökməməsi, beş nəfəri bir yerə yığışanda müstəqillik tələb edib torpaq istəməməsi, başqalarına zəli kimi yapışıb zəhlə tökməməsi üçün təcavüzkar ordusu da olmamalıdır. Əgər bunu istəyirlərsə, başlarına dəmir yumruqlar çaxılması yenə davam edəcək. Həm də istənilən vaxt!

***"Şərq qapısı", 1 aprel 2021-ci il***
***http://85.132.16.133/index.php/dzabbarov-aeli/30243-daemir-yumruzh.html***

# Qars müqaviləsindən Zəngəzur dəhlizinə aparan Böyük Türk qapısı – NAXÇIVAN

Cənubi Qafqaz Avropa və Asiya arasında mühüm mövqedə yerləşməklə əsrlər boyu Qərb və Şərq güclərinin maraq dairəsində olub.

XX əsrin əvvəlində baş verən mühüm hadisələr, bu bölgədə müstəqil dövlətlərin yaranması və onların gələcək statusunun müəyyənləşdirilməsi böyük dövlətləri də ciddi şəkildə maraqlandıran məsələlərdən idi. Burada hər kəsin bir-birinə güzəştə getməmək şərti ilə daha çox nüfuz dairəsinə malik olması, gələcək planlarını reallaşdırmaq üçün daha çox strateji əraziləri mənimsəmək kimi planları vardı. Belə taleyüklü məsələlərdən biri də indi öz əhəmiyyətini hər zamankından daha artıq şəkildə göstərən, bir zamanlar əlçatmaz xəyal kimi görünən, amma Azərbaycanın işğalçı Ermənistan üzərində şanli Qələbəsi ilə gündəmə gələn **Türk Birliyi** layihəsinə ən böyük töhfə vermiş Qars müqaviləsi idi.


Qars müqaviləsindən Zəngəzur dəhlizinə aparan Böyük Türk qapısı - NAXÇIVAN

02-04-2021 [13:22]

**Cənubi Qafqaz Avropa və Asiya arasında mühüm mövqedə yerləşməklə əsrlər boyu Qərb və Şərq güclərinin maraq dairəsində olub.**

XX əsrin əvvəlində baş verən mühüm hadisələr, bu bölgədə müstəqil dövlətlərin yaranması və onların gələcək statusunun müəyyənləşdirilməsi böyük dövlətləri də ciddi şəkildə maraqlandıran məsələlərdən idi. Burada hər kəsin bir-birinə güzəştə getməmək şərti ilə daha çox nüfuz dairəsinə malik olması, gələcək planlarını reallaşdırmaq üçün daha çox strateji əraziləri mənimsəmək kimi planları vardı. Belə taleyüklü məsələlərdən biri də indi öz əhəmiyyətini hər zamankından daha artıq şəkildə göstərən, bir zamanlar əlçatmaz xəyal kimi görünən, amma Azərbaycanın işğalçı Ermənistan üzərində şanli Qələbəsi ilə gündəmə gələn Türk Birliyi

Böyük dağıdıcı proseslərin getdiyi, milyonlarla insanın məhv edildiyi Birinci Dünya Müharibəsindən sonra Cənubi Qafqazda da mürəkkəb vəziyyət yaranmışdı. Böyük dövlətlərin zəifləməsindən istifadə edən bəzi qüvvələr, xüsusən azğınlaşmış silahlı erməni qrupları hər yerdə üsyanlar qaldırmaq, yeni yaranmış dövlətləin hökumətlərinə itaətsizlik etməklə xaos və qarışıqlıq törətməklə defakto olaraq əzici güclərin də dəyirmanına su tökürdulər. Təkcə Azərbaycana qarşı deyil, eləcə də Türkiyə və Gürcüstana qarşı əssasısz ərazi

iddiaları qaldıran ermənilər 1918-1920-ci illərdə silahlı basqınlar, dinc əhaliyə qarşı amansız hücumlar edərək minlərlə insanı qətl etsələr də öz əsl məqsədlərinə çata bilmədilər. Bu baxımdan, hətta o dövrün qalib ölkələri olan İngiltərə və ABŞ kimi güc mərkəzlərində Naxçıvanın Ermənistana verilməsi planları cızılsa da, qarşı cəbhədə baş verən proseslər və ən vacibi Naxçıvan əhalsinin cəsarətli müqaviməti bütün bu məkrli planları alt-üst etdi. Çar Rusiyasının Cənubi Qafqazda oyuncaq bir erməni dövləti yaratmaq planlarının bolşevik Rusiyası tərəfindən həyata keçirilməsi son nəticədə elə onların özünün də işinə yarayırdı. Tarixən ermənilərin satqın xislətinə bələd olan bütün böyük dövlətlər onların vasitəsilə bu coğrafiyada möhkənməlnmək üçün özlərinə yalaqlıq edən bu insanlara da qahmar çıxırdılar. Hətta Rusiyadakı bolşevik hakimiyyəti prinsipdə onlara düşmən olan erməni daşnakları ilə bu məsələdə bir mövqedən çıxış edirdilər: tarixi Azərbaycan torpaqları olan Zəngəzur kimi Naxçıvan da nəyin bahasına olursa olsun Ermənistana qatmaq!

O dövrdə, yəni 1920-ci illərin sonlarında **Rusların növbəti qızışdırmasından quduzlaşan ermənilərə** layiqli cavab verən Türk Ordusundan aman diləyən daşnaklar Cümrü muqaviləsi ilə Naxçıvana olan iddalarından əl çəkməyə məcbur edildilər. Bununla belə, Ermənistanın bolşevik Rusiyası tərəfindən işğal edilməsi də onları bu məkrli planlarından çəkindirmədi. O dövrdə Naxçıvanın görkəmli ictimai-siyasi xadimi Behbud ağa Şahtaxtınski tərəfindən 1921-ci ilin yanvarında keçirilmiş referendumda yerli əhalinin 94 faizinin Naxçıvanın Azərbaycanın tərkibində qalmaq istəyi erməni iddialarına ən şiddətli zərbəni vurdu. Əhalsinin böyük əksəriyyəti müsəlman olan Naxçıvanın gələcək taleyini həll etmiş bu qərar o zamankı Rusiya rəhbərliyini də onunla hesablaşmağa məcbur edirdi. Bu daha sonrakı proseslərdə, 1921-ci ildə Naxçıvanın statusu ilə bağlı Türkiyə və Rusiya dövlətləri arasında əvvəlcə Moskvada sonra da Qarsda

keçirilmiş gərgin danışıqlarda bir daha özünü göstərirdi. Naxçıvan məsələsini gələcəyin Türk qapısı kimi görən Türkiyə rəhbərliyi nəyin bahasına olursa olsun Naxçıvanı güzəştə getməyəcəyini qarşıya məqsəd qoymuşdu. Danışıqlar prosesində Naxçıvanın Azərbaycanın tərkibində muxariyyət statusu qazanmasında Nəriman Nərimanov və Behbud ağa Şahtaxtınskinin əvəzsiz xidmətləri öz bəhrəsini vermiş və 1921-ci ilin oktyabrında bağlanmış Qars müqaviləsinin müvafiq bəndlərində göstərildiyi kimi Naxçıvan muxtar diyar kimiAzərbaycanın tərkibində qalmış, Türkiyə və Rusiya kimi Ermənistan da bu tarixi sənədə imza atmışdır.

Çox böyük strateji əhəmiyyəti olan bu tarixi sənəd sonrakı dövrlərdə ermənilərin bitməyən torpaq həvəsini həmişə gözündə qoymuş, keçən yüz il içərisində dəfələrlə ara qarışdırıb baş qaldırdıqları zaman qarşılarına qoyulmuşdur. Ermənilər ən son XX əsrin sonlarında Qarabağda başlatdıqları növbəti fitnəkarlıqları zamanı da Naxçıvana olan əsassız iddialarını yenidən hay-küylə qaldırmış, amma o zaman Naxçıvanda fəaliyyət göstərən xalqımızın böyük oğlu Heydər Əliyevin qətiyyəti və qardaş ölkə Türkiyə ilə yaratdığı çox sıx əlaqələr nəticəsində bu dəfə də susmağa məcbur olunmuşdular.

Bu il Naxçıvanın Azərbaycan Respublikası tərkibində muxtariyyət statusuna beynəlxalq səviyyədə qarantiya verən Qars müqaviləsinin 100 illiyi tamam olur. Bununla bağlı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" 2021-ci il 8 fevral tarixli Sərəncamı və həmin sərəncama əsasən Tədbirlər Planının təsdiq olunması bu taleyüklü müqavilənin böyük əhəmiyyətini ortaya qoymuşdur. Doğurdan da ötən yüz ilin təcrübəsi göstərdi ki, hələ o dövrlər XXI əsrin Türk Dünyası əsri olacağını öncədən görə bilən, bunun üçün hər cür fədakarlığı və riskləri gözə alan vətənpərvər insanların əməyi heç də boşa getməmişdir.

Naxçıvanın Azərbaycanın tərkibində toxunulmazlığını birdəfəlik olaraq təsbit etmiş **Qars müqaviləsinin** imzalanmasına nail olmuş o zamankı Türkiyə və Azərbaycan rəhbərləri bir gün bu qardaş ölkələrin regionun mütləq güc sahibi olacağını, Zəngəzuru itirsələr də Böyük Türk dünyasına pərçimlənmiş paslı erməni xəncərinin ayaq altına atılacağını yaxşı bilirdilər. Axı, tarix çox zaman baş verən mürəkkəb proseslərin diqtəsi altında yazılsa da, dünyanı irəli aparan cəmiyyətin iqtisadi-mədəni inkişaf meyilləri bir çox hallarda bu proseləri sanki tərsinə də çevirə bilir. Bu dəfə də belə oldu. Ermənilər xaricdəki havadarlarının himayəsi altında fitnə və terrorla əylənib, bu torpaqları kirlətməklə məşğul olduğu dövrdə Türk dünyası elmin, təhsilin və ən başlıcası çalışqanlığın verdiyi əzmlə ən yüksək inkişaf səviyyəsinə çatıb bütün dünyada öz sözünü dedi. Təkcə Qars müqaviləsinin bağlandığı dövrdən deyil, eləcə də ermənilərin Cənubi Qafqaza köçürülməsindən keçən bütün müddət ərzində baş vermiş bütün erməni həyasızlığına birdəfəlik son qoymuş Müzəffər Azərbaycan Ordusunun apardığı şanlı Vətən müharibəsi bu məsələyə son nidanı qoydu. Biabırçı məğlubiyyətə uğrayaraq sanki, **özündən böyük ov udmuş ilanlar kimi qıvrılan erməni cəmiyyəti** indi yüz il içərisində törətdiyi saysız-hesabsız cinayətlərə görə cavab verməklə bərabər bir zamanlar bütün bu bölgənin inkişafında mühüm rolu olmuş Zəngəzur qapısını da yenidən açmağa məcbur edilmişdir.

Zaman sürətlə dəyişir və xülyapərəst ermənilər hələ də 1920-ci ilin səviyyəsində qalsalar da artıq onların da Qars müqaviləsi dövründəki tarixi proseslərdən düzgün nəticə çıxarması, yol kəsənin, qapı bağlayanın ən böyük ziyanı elə özünə vurduğunu dərk etməsinin vaxtı çatıb. Yüz il əvvəl Türk Dünyasının böyük öndərləri Türkiyə ilə həmsərhəd Naxçıvan qapısının açıq qalması üçün nə qədər qətiyyətli olmuşdularsa, bu gün də onların layiqli davamçıları qədim Azərbaycan torpağı Zəngəzur qapısını açmaqda bir o qədər əzmlidirlər.

Dünya türklərini bir-birinə daha yaxından bağlayacaq bu yol bütün bölgə ölkələri üçün mühüm iqtisadi faydalar gətirməklə bərabər XXI əsrin ən böyük humanitar-mədəni layihəsi də olacaqdır. Bu **layihənin titul vərəqində isə Naxçıvanın adı** böyük hərflərlə yazılacaq.

***MİA.AZ, 2 aprel 2021-ci il***

***https://xalqqazeti.com/az/news/73957***

***https://mia.az/w1011396/qars-muqavilesinden-zengezur-dehlizine-aparan-boyuk-turk-qapisi-naxcivan-2021-04-02-133507***

# Yumurta “Komandosu”

Keçən il başına gələnlərdən üzü bəri bu **“ay”sız Nikolayın** işləri heç yaxşı getmir. Bir tərəfdən zəhrimar virus, o biri tərəfdən də ölkədə baş alıb gedən özbaşınalıq, əhalinin hökumətə qarşı itaətsizliyi, generalların sayıqlamaları erməni cəmiyyətini yamanca qarışdırıb

Kasıbçılıq da ki o biri tərəfdən. İş o yerə çatıb ki, dini bayram ərəfəsi Ermənistanda yumurtanın bir dənəsi nə az-nə çox, bizim pulla 80 qəpiyə qalxıb. İnşallah bir-iki aya çörək də tapa bilməyəcəklər. Qarabağın taxılından gözlərini çoxdan çəkiblər. Adətlərinə görə çarə tükənəndə həmişə okeanın o tayına üz tutanların da ümidi tükənib. Çünki, Kardaşyan boşandığına görə bu saat onun da başı öz işlərinə qarışıqdır. Öz hayına qalıb. Tərs kimi Avropa da təzəlikcə bu hayları yaman qaralayıb. Sən demə, fransızlar ermənilərə konyak və şampan şərabını başqa adla satmağı tələb ediblər. Bu şəhərlər Fransadadır axı. Brend də onlara məxsusdur. Görünür, illər boyu fransızlarla səmim dostluqları erməniləri o qədər məst edib ki, zamanında Parisi “böyük Ermənistan” xəritəsinə salmayıblar. Yəni, bir balaca nəzərdən qaçırıblar.


YUMURTA “KOMANDOSU”

05-04-2021 [10:46]

Əli Cabbarov,

acabbarov@mail.ru

***

**Keçən il başına gələnlərdən üzü bəri bu "ay"sız Nikolayın işləri heç yaxşı getmir. Bir tərəfdən zəhrimar virus, o biri tərəfdən də ölkədə baş alıb gedən özbaşınalıq, əhalinin hökumətə qarşı itaətsizliyi, generalların sayıqlamaları erməni cəmiyyətini yamanca qarışdırıb**

. Kasıbçılıq da ki o biri tərəfdən. İş o yerə çatıb ki, dini bayram ərəfəsi Ermənistanda yumurtanın bir dənəsi nə az-nə çox, bizim pulla 80 qəpiyə qalxıb. İnşallah bir-iki aya çörək də tapa bilməyəcəklər. Qarabağın taxılından gözlərini çoxdan çəkiblər. Adətlərinə görə çarə tükənəndə həmişə okeanın o tayına üz tutanların da ümidi tükənib. Çünki, Kardaşyan boşandığına görə bu saat onun da başı öz işlərinə qarışıqdır. Öz hayına qalıb. Tərs kimi Avropa da təzəlikcə bu hayları yaman qaralayıb. Sən demə, fransızlar ermənilərə konyak və şampan şərabını başqa adla satmağı tələb ediblər. Bu şəhərlər Fransadadır axı. **Brend də onlara məxsusdur. Görünür, illər boyu fransızlarla səmim dostluqları erməniləri o qədər məst edib ki, zamanında Parisi "böyük Ermənistan" xəritəsinə salmayıblar. Yəni, bir balaca nəzərdən qaçırıblar.**

Qərəz, dolmanı "tolma" kimi yeməyi xoşlayan bu ölkədə bütün kasıb camaat belə-belə xəbərlərlə yatıb qalxırkən, bu

Qərəz, **dolmanı “tolma” kimi** yeməyi xoşlayan bu ölkədə bütün kasıb camaat belə-belə xəbərlərlə yatıb qalxırkən, bu günlərdə hələ burnu tam ovulmamış bir qrup erməni “komando” ləqəbli bir generalını o biri dünyaya yola salmaqla məşğuldur. Deyilənə görə bu keçmiş hərbçi Şuşanın əldən getməsinə ürəyi dözməyib, bütün erməniləri gözüyaşlı qoyub gedib. Cəhənnəmə getsin! Hər halda, əli qanlı bu **Xocalı**

**cəlladının** biri gün mütləq sonu gələcəkdi. Bir zaman Şuşanı işğal edənlərin komandiri olmuş bu dırnaqarası qəhrəman görünür, ermənin ta özüdür ki, geyidiyi həyasızlıq donu onun da başını tamamən xarab edib. Keçmiş Sovet ordusunda "dağ tülküsü" ləqəbi ilə tanınmış bu erməni elə tülkü xislətini də axıradək davam etdirib, bir neçə il əvvəl hətta Türkiyəyə də qarşı hücum planı hazırlayırmış. Burda deyirlər ki, keçinin əcəli gələndə…!

Nə isə! Amma yaxşı ki, o öz əcəliynən İrəvanda ölüb, yoxsa 82 yaşlı bu qoca da sahibsiz Mişa kimi ortalıqda qalacaqdı. İndi gorbagor olub, Şuşada, Xocalıda qətlə yetirdiyi günahsız, dinc insanların ruhları qarşısnda özü cavab verəcək. Amma o cani əsl cəzasını elə bu dünyada aldı. Yəqin ki, ermənilərin sağ qalmış bu sonuncu "komando"su internetdən Müzəffər Azərbaycan Ordusunun apardığı döyüşləri doya-doya izləyib. Və onda görüb ki, əsl komando kimdir: gecəynən tülkü kimi pusquya girib, Xocalıda qoca, qadın və uşaqları qətlə yetirənlər, yoxsa kəndirlə Şuşa qayalarına dırmanıb, bıçaq və tapançalarla üz-üzə döyüş aparanlar?!

Hələ mən səsi gələndə **hinduşqa balası kimi yerə sıvanan erməni əsgərlərini** bir-bir dənləmiş **"Qarabağ" Ordenli Bayraktarlarımızı** demirən. Erməni generalı yüz faiz bütün bunlaril görüb və ürəyi dözməyib. Çünki bilib ki, bundan sonra ermənilərdən olsa-olsa ancaq **yumurta "komando"su** çıxar. Onu da tapa bilsələr. Elə vaxtında ölüb.

***MİA.AZ, 5 aprel 2021-ci il***

***https://www.mia.az/mobil/1011532***

# Qoyunların “Mets Egerni”

Bu günlərdə Zəngəzura qonaq gəlmiş erməni baş nazirinin aborigen olmayan sakinlər tərəfindən ədəbsiz bir şəkildə necə qarşılanmasını görükdə insanın ağlında bu etnosun yüz ildən bəri öz başına nədən belə faciələr gətirdiyi kimi suallar yaradır. Ancaq tarixi həqiqətlərlə muasir reallıqların kiçik


Qoyunların “Mets Egerni”

23-04-2021 [12:51]

Əli CABBAROV,

Naxçıvan Dövlət Universitetinin dosenti

***

**Bu günlərdə Zəngəzura qonaq gəlmiş erməni baş nazirinin aborigen olmayan sakinlər tərəfindən ədəbsiz bir şəkildə necə qarşılanmasını görükdə insanın ağlında bu etnosun yüz ildən bəri öz başına nədən belə faciələr gətirdiyi kimi suallar yaradır.**

Ancaq tarixi həqiqətlərlə muasir reallıqların kiçik bir biososioloji araşdırması onu göstərir ki, öz dejavu hisslərinin imitasiyası ilə hər dəfə haray-həşir salan ermənilərin "Mets Egerni", yəni böyük faciəsinin səbəblərindən biri..., bəli, çox mühüm səbəblərindən biri onların həm də qoyun xarakterli olmalarındandır.

Bir çox canlıdan daha yaxşı sosiallaşa bilən ermənilər hər dəfə yaddaqalan faktlara imza atıblar. Hələ yüz il öncəsində, yəni indiki texnologiya və sosial şəbəkələrin olmadığı bir dövrdə qədim Mesapotamiyadan Qərbi Azərbaycanadək səpələnmiş ermənilər sanki instinktiv hisslərinin əmri ilə birdən-birə

20:48 13.11.2021
Türkiyədə koronavirusa yoluxma artır: daha 215 nəfər ölən var

19:47 13.11.2021
Ceyhun Bayramov Topçubaşovun məzarını ziyarət edib

19:00 13.11.2021
Şəhidin 10-cu sinif şagirdi olan bacısı dəm qazından zəhərlənərək ölüb

18:42 13.11.2021
Peyvənd olunanların sayı açıqlandı

18:35 13.11.2021
Azərbaycanda koronavirusa yoluxma artır, ölənlər var - CƏDVƏL

18:31 13.11.2021
Partiya sədrindən sərt açıqlama: "Bu gün həyat yoldaşına əlavə maaş istəyirlərsə, sabah oğluna, biri gün..."

18:16 13.11.2021
Deputatın bacısı oğluna 15 sutka verildi - Qalmaqal

18:06 13.11.2021
KƏLBƏCƏR İSTİQAMƏTİNDƏ ATIŞMA GEDİR: "Ordumuz adekvat tədbirlər görür" - MN açıqlama yaydı

bir biososioloji araşdırması onu göstərir ki, öz **dejavu** hisslərinin imitasiyası ilə hər dəfə haray-həşir salan **ermənilərin “Mets Egerni”,** yəni böyük faciəsinin səbəblərindən biri…, bəli, çox mühüm səbəblərindən biri onların həm də **qoyun** xarakterli olmalarındandır.

Bir çox canlıdan daha yaxşı sosiallaşa bilən ermənilər hər dəfə yaddaqalan faktlara imza atıblar. Hələ yüz il öncəsində, yəni indiki texnologiya və sosial şəbəkələrin olmadığı bir dövrdə qədim Mesapotamiyadan Qərbi Azərbaycanadək səpələnmiş ermənilər sanki instinktiv hislərinin əmri ilə birdən-birə ayaqlanıb çörəyini yediyi hökumətlərə qarşı üsyanlar qaldırdılar. Elə qış boyu bəslənib bir əlçim ot üçün sahibinə tam itaət edən qoyunlar da yazın nəfəsi burunlarına dəyən kimi cızığından çıxıb başlayırlar kəllə atmağa. Həm də nədənsə belə bir qəribə davranış çox qısa olub, yenidən itaətlə əvəz olunur. Bu da tam olaraq hər ilin aprelində yaxalarını cırıb özlərini həlak edən erməni etnosunun ay sonundan sonra yenidən adam şəklində yaşamağa çalışmasına bənzəyir. Ancaq **qoyunlardan fərqli olaraq ermənilər** bununla sanki öz tarixlərini də yazmağa çalışırlar. Belə ki,

yazda çölə çıxan şüursuz qoyunlar hələ doyunca ot tapa bilmədiyini görüb ilk gündən səhvini anlasa da ermənilər onlara çörək pulu göndərən ağalarına qarşı bir də utanmaz-utanmaz “Mets Egern” davasına başlayırlar. Amma hər dəfə xəyalları Atlantik okeanının suyuna düşən ermənilər bilmirlər ki, onları dinləməyə kimsənin daha nə vaxtı, nə də həvəsi vardır. Çünki dünya bilir ki, bu özünəqəsdin səbəbkarı elə onların erməni xisləti və qoyun kimi davranışlarıdır.

**Qoyun olmaq ermənilər üçün** həqiqətən böyük faciədir. Misal üçün, yaylaqdakı çobanlar yaxşı bilir ki, sürünün öndəgedəni, yəni ən ağıllı qoyunu bəzən tamahı üstün gəlib uçurumun təpəsindən aşağıya doğru əldəyməmiş çiçəkli otları yeməyə atlananda başına nə gəlir… Digər qoyunların da bir-birinin ardınca onun ardınca özünü ataraq öldürməsi ilə nəticələnən böyük faciə! Elə **ermənilərin Xarı bülbül otlamaq həvəsi** də bu şəkildə Qarabağ dağlarında, Şuşa sıldırımlarında gözlərində qaldı. İndinin özündə, 44 günlük şanlı Vətən müharibəsindən keçən 5 ay sonra qarların əriməsi ilə leşləri üzə çıxan işğalçı erməni əsgərləri də **Cıdır düzündə yallı gedən baş qoyunun ölmcül səhvi** ucbatından beləcə qırılmışdılar. Yaxud bu müharibədə **“TƏK HƏDƏF, TƏK MƏRMİ”** prinsipi ilə döyüşən Müzəffər Azərbaycan Ordusunun dəqiq zərbələrinə hər an, hər yerdə tuş gələ biləcəyini bilən **erməni əsgərlərinin sanki qoyun kimi bir yerə toplanıb** kütləvi hədəfə çevrilməsi də ən sadə hərbi taktika baxımından tipik qoyun davranışıdır. Düzdür, çobanı maddi zərərə salan əsl qoyunların belə məhv olması bir həftədən sonra unudulsa da, erməni sürüsünün belə qırğını onlar üçün gerçəkdən böyük faciə kimi hələ uzun müddət yaddaslarından çıxmayacaq. Elə, Zəngəzurda əllərində dəyənək baş nazirin avtomobilinin qarşısını kəsib, onu yumurta topuna tutanların da beynində bu instinkt vardı: **bilinməyən bir dillə qoyun kimi mələşə-mələşə** başlarına gələnin hesabını soruşmaq!

Bilmirəm, **erməni dilində "qoyun"** necə ifadə olunur, amma qoyun elə qoyundur. Yəni dünyanın hər yerində bu məzlum, məsum gözlü canlılar artırılaraq sahibkarına yaxşı gəlir gətirir. Bundan əlavə, bu faydalı heyvanlar heç zaman kəsilib yeyilmiş sürüdaşları üçün yas saxlamaz, qisas almaq üçün kölgəlikdə baş-başa verib plan çızmazlar. Bəlkə elə buna görə də bu yaz bir daha bərəkətli Qarabağ yaylaqlarında otlamayacaq erməni qoyunlarının böyük faciəsi artıq bitsə də ancaq onların öz içində görünür hələ neçə "Mets Egern"lər olacaq.

***MİA.AZ, 23 aprel 2021-ci il***

***https://mia.az/mobil/1012837***

***https://moderator.az/siyaset/374323/qaraba-yaylaqlarinda-otlamayacaq-ermeni-qoyunlarinin-byuk-faciesi-artiq-bitse-de/***

# Naxçıvan - Zəngəzur - Şuşa turizm marşrutu

## *(I hissə)*

Ölkəmizdə turizmin inkişaf üçün potensial cazibə gücünə malik olan istiqamətlərdən biri Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutudur.

Həm beynəlxalq, həm də Azərbaycan daxili turizm səfərləri üzrə səyahət güzərgahlarında mühüm keçid məntəqəsi olan Zəngəzurdan bu məqsədlə istifadə uzun müddət istifadəsiz qalmış bu marşrutun imkanlarının reallaşdırılması ilə yanaşı,



Naxçıvan - Zəngəzur - Şuşa turizm marşrutu *(I hissə)*

10-05-2021 [17:14]

**Əli CABBAROV,**

**Naxçıvan Dövlət Universitetinin dosenti,**

**Sankt-Peterburq Beynəlxalq Turizm Akademyiasının üzvü**

***

**Ölkəmizdə turizmin inkişaf üçün potensial cazibə gücünə malik olan istiqamətlərdən biri Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutudur.**

Həm beynəlxalq, həm də Azərbaycan daxili turizm səfərləri üzrə səyahət güzərgahlarında mühüm keçid məntəqəsi olan Zəngəzurdan bu məqsədlə istifadə uzun müddət istifadəsiz qalmış bu marşrutun imkanlarının reallaşdırılması ilə yanaşı, həm də 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində ölkəmizin qazandıgı parlaq qələbədən sonra bölgədən uzunmuddətli sabitliyin yaradılması yolunda da maraqlı ideyadır. Turizmin bütün dünyadakı post-konfliktlər dövründə ən yaxşı sabitləşdirici, sosial-iqtisadi, humanitar inkişaf vasitəsi olması bu baxımdan, Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutunun, ümumiyyətlə, Zəngəzur dəhlizinin gələcək perspektivlərini bir daha ortaya qoyur. İşğalçı Ermənistan

20:48 13.11.2021
Türkiyədə koronavirusa yoluxma artır: daha 215 nəfər ölən var

19:47 13.11.2021
Ceyhun Bayramov Topçubaşovun məzarını ziyarət edib

19:00 13.11.2021
Şəhidin 10-cu sinif şagirdi olan bacısı dəm qazından zəhərlənərək ölüb

18:42 13.11.2021
Peyvənd olunanların sayı açıqlandı

18:35 13.11.2021
Azərbaycanda koronavirusa yoluxma artır, ölənlər var - CƏDVƏL

18:31 13.11.2021
Partiya sədrindən sərt açıqlama: "Bu gün həyat yoldaşına əlavə maaş istəyirlərsə, sabah oğluna, biri gün..."

18:16 13.11.2021
Deputatın bacısı oğluna 15 sutka verildi - Qalmaqal

18:06 13.11.2021
KƏLBƏCƏR İSTİQAMƏTİNDƏ ATIŞMA GEDİR: "Ordumuz adekvat tədbirlər görür" - MN açıqlama yaydı

həm də 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində ölkəmizin qazandıgı parlaq qələbədən sonra bölgədən uzunmuddətli sabitliyin yaradılması yolunda da maraqlı ideyadır. Turizmin bütün dünyadakı post-konfliktlər dövründə ən yaxşı sabitləşdirici, sosial-iqtisadi, humanitar inkişaf vasitəsi olması bu baxımdan, **Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutunun**, ümumiyyətlə, Zəngəzur dəhlizinin gələcək perspektivlərini bir daha ortaya qoyur.

İşğalçı Ermənistan tərəfindən otuz ilə yaxın müddətdə işğal altında saxlanılmış Azərbaycanın Qarabağ bölgəsinin yenidən inkişaf etdirilməsi, bu torpaqlardan köçkün düşmüş

dinc əhalinin öz doğma yerlərinə qaytarılması, ümumlikdə Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar olunması baxımından Zəngəzurun tanışlıq, rekreasya və tranzit imkanlarının turizm dövriyyəsinə cəlb olunması bu bölgədə həlli vacib olan ən əhəmiyyətli məsələlərdən biridir. Bu mənada, 10 noyabr 2020-ci il tarixdə Azərbaycan, Rusiya və Ermənistanın birgə imzaladığı üçtərəfli razılaşmanın şərtlərinə əsasən bölgədə kommunikasiyaların yenidən açılması bu turizm marşrutunu da xəyallardan gerçəyə çevirəcəkdir. Tank üstündə olmasa da bu dəhliz vasitəsilə 101 il əvvəl olduğu kimi azərbaycanlılar buradan keçərək **İslam Mədəniyyətinin Paytaxtı Naxçvandan Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşayadək** bütün Zəngəzura, ordan da Qərbi Azərbaycana çıxış yolu əldə edəcəklər.

Zəngəzur özünün yerləşmə mövqeyi, qeyri-adi təbiəti və tarixi-mədəni zənginlikləri ilə hər kəs üçün cazibədardır. Cənubi Qafqaza ilk dəfə səyahət edən çox sayda əcnəbi üç parçaya bölünmüş böyük Azərbaycan arasındakı bu dilimin xəritədə nədən başqa rəngdə olmasını çox çətin başa düşür. Eləcə də Naxçıvana ilk dəfə səyahət edən turistlər də nəyə görə bu ərazinin Azərbaycanın əsas hissəsindən nədən aralı düşdüyünü anlamaqda çətinlik çəkirlər. Doğurdan da son min il ərzində baş vermiş tarixi prosesləri bir tərəfə qoyub, hətta mövcud xəritəyə belə diqqətlə baxdıqda **Dərbənddən Zəncana**, **Xəzərdən Kərkükə qədər** üç tərəfdən Türk-Oğuz yaşayış məskənləri ilə əhatə olunmuş bir ərazinin nəyə görə ermənilərə aid olduğu hər kəsdə haqlı suallar yaradır. Hər halda tarixi ədalət olsaydı bu belə olmamalıydı!

Tarixi Azərbaycan torpağı Zəngəzurun turizm marağı baxımından öyrənilməsi nostaljiyə qayıdış və gələcək iqtisadi-humanitar inkişaf perspektivləri baxımından çox əhəmiyyətlidir. Keçmişə qayıdış ona görə vacibdir ki, yeni dövrdə Zəngəzura səyahət edə biləcək hər bir şəxs, xüsusən, gələcək nəsillər bu torpağın əsl sahibləri haqqında təsəvvürlər

əldə edə biləcək, indiki Ermənistanın bir dövlət kimi formalaşdırılması zamanı baş vermiş bütün hadisələrin gerçək üzü ilə tanış olacaqlar. İndiki dövrdə emənilər hər nə qədər buradakı yerləri erməniləşirilmiş adları ilə dünyaya tanıtmağa çalışsalar da Zəngəzurun təbii gözllikləri, eləcə də emənilərin buraya göçürülməsindən min il əvvəllər mövcud olmuş tarixi abidələrin yerlərinə, türkmənşəli yaşayış məntəqələrinə qayıda bilmək, bu baxımdan, hər bir azərbaycanlının arzusudur. Qərbi Azərbaycanda indiki erməni əhalsinin dörddə üçünün təxminən 200 il əvvəl, yəni 1828-ci il Türkmənçay müqaviləsindən sonra buraya köçürülməsi ilə yarandığını və onların heç zaman burada aborigen insanlar olmadığını biliriksə, o zaman Zəngəzurun və digər mahalların da türkmənşəli yaşayış məntəqələri, qədim mədəniyyət nümunələri də bizim diqqətmizi cəlb edir. Belə yaşayış məntəqələri isə çox da uzaq olmayan keçmişdə yüzlərlə və daha çox olub. Belə ki, 1932-ci ildə, yəni Sovet hakimiyyətinin kifayət qədər gücləndiyi bir dövrdə Tiflisdə dərc olunmuş "Sovet Ermənistanın əhalisi" adlı nəşrdə ermənilərin özləri tərəfindən bu ölkdəki 2310 kənddən 2000-nin adının türk mənşəli olduğu göstərilir. Bu ölkədəki 36 rayondan 33-də azərbaycanlıların yaşaması da tarixi sənədlərdə çox ciddi şəkildə əks olunmaqdadır. Zəngəzura gəldikdə isə XX əsrin əvvəllərində bu mahaldaki 7 rayonda 240 azərbaycanlı kəndi olub ki, bu say da ermənilər yaşayan məntəqələrin sayından 3 dəfə artıq idi.

Zəngəzurun tarixi çox keşməkeşli olub. Hələ VII əsrdə ərəblərin istilasına məruz qalmış Zəngəzur daha sonra xronoloji olaraq Şəddadi, Səlcuqlu, Monqol, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Osmanlı dövlətlərinin tabeliyində olub. Nadir şahın ölümündən sonra Azərbaycanda xanlıqların yaranması ilə Zəngəzur mahalı əsasən Qarabağ xanlığının tərkibində olub. XIX əsrin əvvəlində Cənubi Qafqaza rusların gəlməsi ilə başlayan qara günlər Zəngəzurdan da yan keçməmişdir. Əvvəllər Qarabağ əyalətinin tərkibində Həkəri və

Bərgüşad çayları hövzəsindən tutmuş Zəngəzur dağ silsiləsinədək böyük bir mahalı tutan bu torpaqlar 1841-ci ildə Zəngəzur və Mehridən ibarət olmaqla iki yerə bölünmüşdür. Daha sonrakı dövrlərdə Zəngəzurun taleyi daha da mürəkkəb olsa da bu ərazinin Qafqaz Albaniyası dövründə olduğu kimi yenə də Azərbaycanın tərkib hissəsi olduğu tarixi sənədlərdə qəti şəkildə öz əksini tapıb. Buna görə də xalqımızın Zəngəzura olan marağı hər bir azərbaycanlının min illər ərzində formalaşmış su yaddaşından süzülüb gələn Vətən sevgisinin məhsulu kimi dəyərləndirilməli və bütün dünya da bunu belə qəbul etməlidir.

Yüzillər əvvəlki kimi indi də Zəngəzurda zəngin tanışlıq və təbii-rekreasya ehtiyatları vardır. Təəssüf ki, buradakı təbii və tarixi-mədəni turizm ehtiyatları hazırda Ermənistan tərəfində istismar olunub, bu ölkə iqtisadiyyatına külli miqdarda gəlir qazandırır. Ona görə də bunların Azərbaycana məxsus ehtiyatlar kimi tanınması və tanıdılması baxımından, gələcəkdə Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutunun mühüm cazibə elementləri kimi öyrənilməsinin əhəmiyyəti böyükdür. Ermənilər 30 ilə yaxın bir dövrdə işğal etdikləri Qarabağ torpağından qovulduqdan sonra onların Azərbaycanın nə qədər sərvətlərini talan etdiyini görən dünya bundan sonra Zəngəzurda və eləcə də indiki Ermənistanda nə qədər sayda tarixi Azərbaycan kənd və şəhərlərini erməniləşdirdiyini, alban kilsələrini qriqoriyanlaşdırıb erməni abidəsi kimi istismar olunduğunu, azərbaycanlıların təkcə XX əsrdə dörd dəfə deportasiya məruz qoyulduğunu, məskənlərini necə yox edildiyini səyahətlər yolu ilə öz gözləri ilə görəcək. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Azərbaycan Orlusunun Ali Baş Komandanı İlham Əliyevin dediyi kimi: Ermənistan bunu istəsə də, istəməsə də!

Naxçıvandan Zəngəzur dəhlizi ilə bu uzun və maraqlı yola çıxanlar ilk olaraq Zəngəzurun Mehri rayonu ilə tanışlıq imkanı əldə edirlər. Azərbaycanlılar üçün bu bir növ daxili

turizm marşrutu olsa da gələcəkdə Zəngəzur dəhlizindən istifadə edəcək olan əcnəbilər üçün bu yol çox maraqlı beynəlxalq turizm marşrutu kimi yaddaşlarda qalacaq. Adının heç cür sona qədər ermeniləşdirilə bilinmədiyi **Mehri** cənubda Araz çayı vasitəsilə İranla, qərbdə Ordubad, şərqdə Zəngilan və şimalda Qafan rayonları ilə həmsərəhddir.

Ərazisi təxminən 660 kvadrat kilometr olub, yüksək dağlıq lanşafta malikdir. Sovet dövründə rayon ərazisindən, Araz çayı boyunca Azərbaycanın mülkiyyətində olmuş dəmir yolu keçirdi. 1988-ci ildən ermənilərin başlatdığı münaqişədən sonra bu dəmir yolu da istifadəsiz qalmış, yol infrastrukturu dağıdılmış, hətta polad relslər belə metal parçası kimi qonşu ölkəyə satılmışdır. Mehri rayonu ərazsində sonradan adları eybəcər hala salınmış çox sayda azərbaycanli kəndləri vardır. Hazırda beş min nəfərdən də az əhalisi olan Mehri şəhəri ilə yanaşı rayondakı irili-xırdalı cəmi 13 kənddən adları Aynazur, Əlidərə, Əmrah daşı, Bənövşəbuşt, Qul, Maralzəmi, Mülkü, Nüvədi kimi qədim türklərə aid yurd yerlərini misal göstrmək olar ki, müasir Ermənistandakı gərgin demoqrafik vəziyyət ucbatından onların da əksəriyyəti tamamilə boşdur.

Mehri özünün yüksək dağ aşırımı ilə seçilir. Şimaldan 2500 metrdən yüksək olan dağ aşırımı və cənubdakı Mehri qalası diqqətləri cəlb edir. Zəngəzura köçürülmüş erməniər bir qayda olaraq alban kilsələrinin özləşdirilməsi ilə məşğul olduğundan **Mehri qalası** qalıqlarının ermənilәşdirilməsinə imkan tapmamışlır. Əvəzində, Mehriyə gəlmiş turistlərin yol qeydlərindən və fotoşəkillərdən buradakı tipik erməni həyat tərzi elementləri diqqəti cəlb edir. Belə ki, Qarabağdan fərqli olaraq yaxın keçmişdə bu torpaqlarda döyüşlər olmasa da dağıdılmış infrastruktur, primitiv sosial-mədəni şərait və Anadolu türklərinin ifadəsi ilə desək **“Hacı Murad dönəmi”ndən** qalmış nəqliyyat vəsitələri və yaşayış binaları Mehridə çarpıcı olaraq nəzərə çarpır. Tarixi-nostalgiya baxımından Zəngəzura səyahət edən turistlər üçün Mehridə ən

cazibədar yaşayış məntəqələrindən biri şübhəsiz, **Nüvədi kəndidir**. Belə ki, 1920-ci ildə Moskvanın təzyiqi ilə Zəngəzurun Ermənistana verilməsindən sonra Nüvədi kəndi əvvəlcə Zəngilanda qalmışdır. Lakin, 1969-cu ildə rəsmi olaraq Mehri rayonuna hədiyyə olunmuş Nüvədi kəndi Sovet hakimiyyəti dövründə də bu respublikada azərbaycanlılara qarşı həyata keçirilmiş mənəvi terror və diskriminasiyaya qarşı inadla müqavimət göstərmiş, burada gülcü təsərrüfat qurmuş və öz vəsaitləri hesabına sosial-mədəni həyat şəraiti—məktəb, klub, kitabxana, həkim ambulatoriyası yaratmış, 30-dan artıq alim yetişdirmişlər. 1988-ci ilin sonuna yaxın artıq Ermənistandan 250 min nəfər soydaşımızın deportasiyası tamamlansa da Nüvədi azərbaycanlıların son qala statusunu qoruyub saxlayraq yalnız 1991-ci ilin avqustundua rus əsgərlərinin də dəstəyinə arxalanan ermənilər tərəfindən işğal olundu və kəndin 2 minə yaxın sakini qaçqın düşdü. Buna görə də Naxçıvan-Zəngəzur-Şuşa marşurutunda hər bir azərbaycanlının Nüvədi dastanı ilə yerində tanış olması, bu kənddə qalmış həyat izlərini öz gözləri ilə görmək istəyi olacaqdır. Turizm marağı baxımından Zəngəzurun hər yerində olduğu kimi Mehrinin Nüvədi kəndində də qədim türk tayfalarının izlərinə rast gəlmək olar. Nüvədi yaxınlığındakı Qarqadaş dağındakı Göytürk qayaüstü rəsmlərini xatırladan peiroqliflər qədimdə burada yaşamış olan Qar-qar tayfalarından xəbər verir.

**Qafan** Zəngəzurun böyük rayonlarından biri olub, cənubda Qubadlı və Zəngilan, şərqdə Sisyan və Qorus, cənub-qərbdə Mehri rayonları ilə həmsərhəddir. Ərazisi Mehri rayonundan təxminən 2 dəfə çox olub 1345 kvadrat kilometrdir. Əsasən dağlıq əraziyə malik olub, ən yüksək zirvələri Qapıcıq və Xusdub dağlarıdır. Dəmir yolu xətti vardır. Qafan Bakı və İrəvan şəhərlərindən təxminən eyni məsafədədir.

Qafana tarixi nəzərdən baxdıqda, erməni sovet ensiklopediyasında da yazıldığı kimi bütün Zəngəzurda olduğu kimi bu qədər böyük ərazinin V əsrdən 1920-ci ilə qədər heç bir erməni dövlətinin tərkibində olmadığını görürük. Zəngəzurla ilk dəfə tanış olanlar üçün təkcə Qafan rayonunda 200-dən artıq kənd, çay, göl, dağ zirvəsi adlarının türk mənşəli olduğunu bilmək çox maraqlı faktlardır. Nə qədər erməniləşdirilməyə çalışsalar da müasir Ermənistan xəritəsində hələ də belə adları görmək mümkünüür. Kitabi Dədə-Qorqud dastanında da xatırlanan belə yurd yerlərmiz Zəngəzur mahalında da rast gəlinməkdədəir. Qafanda 1988-ci ilədək 40-a yaxın kənddə sırf azərbaycanlılar yaşamışdır. Lakin 1918-ci ildə bu kəndlərdə, xüsusən, 5 mindən çox əhalisi olmuş Qatar, 2 mindən çox əhalisi olmuş Oxçu kəndlərində baş vermiş qırğınlar nəticəsində azərbaycanlılara qarşı kütləvi cinayətlər törədilib.

Qafana getmək üçün səyyahlar Mehri-Qacaran yolunu seçə bilərdər. İran sərhəddindən 50 kilometr məsafədə, Oxçu çayı yatağında yerləşən və keçmiş adı Oxçu olmuş bu şəhər özünün mis-molibden mədənləri ilə tanınır. Buradan təxminən 30 kilometr məsafədəki Qafan şəhərinə 40 dəqiqəyə çatmaq olar.

Qafan Zəngəzurun böyük şəhərlərindən biridir. Ermənistanda törədilmiş ən son etnik təmizləmədən sonra 1991-ci ildə şəhərin adı da mənəvi terrora məruz qalaraq rəsmi qərarla "Kapan" adlandırılmışdır. Habuki, "Qaf" dağı haqqında Azərbaycandakı mövcud əfsanəyə görə Qapıcığa ən yaxın böyük şəhərin adının onunla bağlı olması da ən məntiqli səslənir. Oxçuçayın orta axarındakı Qafan Cənub-şərqdən Bərgüşad, cənubdan Mehri dağ silsiləsi, qərbdən Xustub zirvəsi ilə əhatə olunmuşdur. Qafanın təkrarsız təbiəti və florası çox qədimlərdən səyyahları özünə cəlb etmişdir. Qafan Zəngəzurda meşələrlə zəngin olan bir rayondur. Burada Oxçuçay hövzəsinin yuxarı hissəsində "Turşsu" deyilən

məşhur mineral bulaqlar vardır. Qazangöl və Yaşılgöl gölləri də Qafanda yerləşir.

Qafanın zəngin tarixi keçmişi vardır. Hələ eramızdan yüzillər əvvəl insan məskənləri kimi adı çəkilən Qafan Qafqaz Albaniyasının bir hissəsi kimi burada baş verən hadisələrin mərkəzində olub. Yaşanılan tarix, istər qədim Alban dövlətləri, istər ondan sonrakı dövrdə burada mövcud olmuş müxtəlif dövlətlərin təsiri nəticəsində yaradılmış mədəniyyət nümunələri burada heç bir zaman erməni kökənli insanların izlərinə dair ipucları vermir. Bölgənin təbii, tarixi-mədəni zənginliyi qədim türk dillərində də ifadə olunduğu kimi sırf milli morfo-etnik mənşəyimizi əks etdirir. Bu baxımdan, təkcə Mehri və Qafan nahiyələri arasındakı Mehri və Xusdub dağlarının arasındakı yerləri xatırlamaq kifayətdir — "Ördəkli yurdu", "Darbərə yaylağı", "Qaraçılar yurdu", "Qoşa nov yaylağı", "Xankəndi yaylağı" "Bəsitçay" və sair kimi yerlər, yaxud, Qazançı, Ağkənd, Mahmudlu, Daşbaşı, Kürkənd, Çiriş, Şəhərçik və sair kimi çox sayda türk toponimli yaşayış məntəqələri buranın əzəli sakinlərinin kimliyindən xəbər verir. Təkcə **Şəhərcik** kəndinin tarixçəsinə baxsaq, bu gün ermənilər Qafanda Njde və Andronik kimi cəlladalara abidə qoyub, bununla dünyaya meydan oxuduqları bir vaxtda, bir zamanlar, yəni 1918-ci ildə Zəngəzurda tüğyan edən erməni terroruna qarşı kənd sakinlərinin əfsanəyə dönmüş müdafiəsini yada salmaq kifayətdir. Hafizələrdə yaşayan tarixə əsasən, o dövrdə kəndi qoruyan 140 nəfər könüllü il yarım ərzində son nəfəsə qədər döyüşüb, Andronikin qoşunlarına ağır zərbələr vurublar. Tarixi mənbələrə görə könüllülərin komanidirlərindən olmuş Səhlalı Orucəli oğlu ağır yaralı halda ermənilərə əsir düşməmək üçün öz anasından onu evində yandırmağı istəyib. Erməni toplarının atəşi altında qalan kəndin son sakinləri Zəngəzur sisiləsinin çətin keçilən aşırımlarından keçərək Ordubad kəndlərinə sığınblar. Sovet hakimiyyətinin qurulmasından sonra öz doğma kəndlərinə qayıda bilən 600-ə

yaxın şəhərcikli burada təsərrüfat və sosial həyat qursalar da daim mənəvi terrora məruz qalıblar. Belə ki, sovet dövründə Ermənistanın hər yerində olduğu kimi təhsil sahəsində azərbaycanlılara qarşı göstərilən diskriminasya burada özünü göstərib. 1960-cı illərdə belə Şəhərcikdə dərslər məscid binasında, sonra isə kolxozun öz hesabına tikilmiş dördotaqlı binada gündə iki və üçnövbəli olmaqla keçilib.

Təbii ehtiyatlar baxımından Qafan təkcə Zəngəzurun deyil, bütün Ermənistanın ən zəngin yerlərindəndir. Əlvan metal filizləri ilə zəngin olan Zəngəzurun bu bölgəsi XIX əsrdə Qərbi Azərbaycanın bütün gəlirinin yarıdan çoxunu təşkil edib. Şübhəsiz, bu sahədə qazancları Qarabağın işğalı dövründə Kəlbəcərin və Zəngilanın da mis və qızıl sərvətlərinin qarət edilməsi üçün onların iştahını artırıb, Azərbaycana milyardlarla dollar ekoloji və maddi zərər vurublar. Qafandakı mineral ehtiyatları mənimsəməklə yanaşı ermənilər sənaye tullantılar ilə Araz çayı hövzəsini də çirkləndiriblər. Turizm ehtiyatlarına gəldikdə isə Qafan bölgəsində Oxçuçay dərəsinin bənzərsiz landaşftı, bolsulu çaylar, Göygöl gölü, Oxtar çayı, fauna və flora, həmçinin Qafan qalası, Qazan xanın məskən saldığı yerlə bağlı olan Qazan düşən adlı yer, adı **Babək hərəkəatı ilə bağlı olan Darvaz qala**sı, Govurqala, xalq qəhrəmanı Babəkin müəllimi Cavidanın adı ilə bağlı olan Pircavidan məqbərəsi, Kığı çayının sahilində yerləşən Hacat kəndindəki abidələr Qafanın görməli yerlərindəndir.

Çar Rusiysı dövründə **Zəngəzurun mərkəzi olmuş Gorus** unikal təbii gözəliklərə malikdir. 20 min nəfərdən artıq əhalsi olan Gorus şəhəri ətraf landşaftına görə çox cazibədardır. Bu şəhər Zəngəzurun və eləcə də Qarabağa gedən yolun kəsişmə nöqtəsində olub, mühüm tranzit mövqeyindədir. Gorusa Qafandan və Sisian-Laçın dəhlizindən keçməklə çatmaq olar. Zəngəzurun ən gözəl və ən böyük su hövzəsi sayılan Qara gölün böyük bir hissəsi Gorus rayonunun ərazisindədir. Gorus təkcə Zəngəzurun deyil, **bütün Qərbi**

But the fortune of life can change even unexpectedly. More than 20 years of well-to-do life of Sarkis-Haykanush in Kalbajar ended at once. So that in one mild autumn day everything turned up and down. As if the earth was burning. The Sarkis family could find nowhere to hide and save their lives. The victorious Army of Azerbaijan was coming to liberate their occupied lands from these nomadic Armenians. The fear of Haykanush became true. Suddenly she awoke from her deep sleep. Just now she understood that this land wasn't theirs. It would be better to leave the house and all Garabagh lands for their real owners. Otherwise, all Armenians will be banished from the lands of Azerbaijan shamefully.

Knowing everything clearly they began to get ready and return back to "their own land". Before firing this house they started to load their old lorry with everything that they had at home. So, that time Sarkis firstly brought his water-closet pan and gently placed it among other soft things for safety, not to be broken. All foreign journalists could take this event with their cameras. With his water-closet pan, Sarkis became popular throughout the world.

Already two months were left behind after that shameful event. Now at present Sarkis is in Armenia. But later we learned that on the way home an accident had happened and his lovely water-closet pan was broken.

***Axar.az 26 noyabr 2021-ci il***

***https://en.axar.az/news/politics/604339.html***

# Şuşa gözəldir…

## Gözəl Şuşa haqqında ən gözəl kəlmələrdən seçmələr

*(“Şərq qapısı” qəzeti, 1970-1990)*

Torpaq, Vətən, böyük və güclü Azərbaycan! Bu gün qəhrəman şəhidlərimizin ölməz xatirəsinin anım günündə hər bir Azərbaycan vətəndaşının ürəyini dağa döndərən bu kəlmələrin


Şuşa gözəldir…

16-10-2021 [21:09]

Gözəl Şuşa haqqında ən gözəl kəlmələrdən seçmələr

("Şərq qapısı" qəzeti, 1970-1990)

***

Torpaq, Vətən, böyük və güclü Azərbaycan! Bu gün qəhrəman şəhidlərimizin ölməz xatirəsinin anım günündə hər bir Azərbaycan vətəndaşının ürəyini dağa döndərən bu kəlmələrin nidası bir il əvvəl düşmənin canına vahimə salmış "Qarabağ Azərbaycandır!" kəlməsinin nidası ilə qoşalaşdıca xalqımızın, onun müzəffər ordusunun qarşısına heç bir işğalçının bir daha çıxa bilməyəcəyini bütün dünya şahid olur.

Ədalətsiz yaşamağa alışmış, otuz il dil sürüyüb, reallıqları görməzdən gələn dünya ən sonunda böyük ədalətlə barışmalı oldu: Şuşasız Qarabağ, Qarabağsız ümumiyyətlə Azərbaycan ola bilməz! Çünki bu torpaqlara hələ erməni nəfəsi dəyməyəndə Qarabağ, Şuşa bizim yaddaşımızın kökündə, nəğmələrimizin nəqəratında, ən gözəl kəlmələrin başlığında yaşayır, nəsildən nəslə yaşadılırdı. Elə bir başqa tarixi ədalətsizliklə, Zəngəzurun hay köçmənlərinə hədiyyə olunması ilə böyük Azərbaycanan ayrı düşmüş qədim Naxçıvan torpağında yaşadılan Şuşa, Qarabağ sevgisi kimi.

Bu sevginin ətrini bu günümüzə qədər qoruyub saxlayan Naxçıvanın 100 yaşlı mətbu orqanı olan "Şərq qapısı" qəzetinin

nidası bir il əvvəl düşmənin canına vahimə salmış “Qarabağ Azərbaycandır!” kəlməsinin nidası ilə qoşalaşdıca xalqımızın, onun müzəffər ordusunun qarşısına heç bir işğalçının bir daha çıxa bilməyəcəyini bütün dünya şahid olur. Ədalətsiz yaşamağa alışmış, otuz il dil sürüyüb, reallıqları görməzdən gələn dünya ən sonunda böyük ədalətlə barışmalı oldu: **Şuşasız Qarabağ, Qarabağsız ümumiyyətlə Azərbaycan ola bilməz!** Çünki bu torpaqlara hələ erməni nəfəsi dəyməyəndə Qarabağ, Şuşa bizim yaddaşımızın kökündə, nəğmələrimizin nəqəratında, ən gözəl kəlmələrin başlığında yaşayır, nəsildən nəslə yaşadılırdı. Elə bir başqa tarixi ədalətsizliklə, Zəngəzurun hay köçmənlərinə hədiyyə olunması ilə böyük Azərbaycanan ayrı düşmüş qədim Naxçıvan torpağında yaşadılan Şuşa, Qarabağ sevgisi kimi.

Bu sevginin ətrini bu günümüzə qədər qoruyub saxlayan Naxçıvanın 100 yaşlı mətbu orqanı olan “Şərq qapısı” qəzetinin onillər əvvəlki qızıl arxivindən qiymətli seçmələri oxucularımıza olduğu kimi imzaları ilə birlikdə təqdim edirik.

* * *

Təbiət öz səxavətini bizim şəhərdən əsirgəməmşdir. Sağlam dağ havası, sıx yaşıllıqlar sanki nəhəng oksigen fabrikidir. Yaxınlıqda mineral su çeşmələri. Yaxşı istirahət etmək üçün bundan artıq nə lazımdır. Biz Şuşanın kurort sərvətlərindən

mümkün qədər geniş istifadə etməyə çalışırıq. Şəhər böyüyür, öz hüdudlarını genişləndirir…

***Valeh Kazımov, 15 fevral 1970***

* * *

Uca dağlar qoynunda məskən salmış Şuşanın bu günü könül oxşayandır. Onun gözəl təbiəti, hüsünə sığmayan mənzərəsi vardır. Bu şəhərin görkəmi mərmər pillələri xatırladır. Bir-birinin ardınça munçuq kimi düzülmüş yaşayış evləri, içtimai binalar biri digərinin qarşısını kəsməsin, onu ört-basdır etməsin deyə səki kimi pilə-pillə ucaldılmışdır. Bu da onun görkəmini daha füsunkar etmişdir…

***Cəlal Rəfiyev, 11 mart 1970***

* * *

Dərələr və dağlar üzərində salınmış Şuşanı qartal yuvası adlandırmışlır. Şairlər onun gözəlliyinə şeirlər qoşmuş, təbiblər gözəl ab-havasından riqqətə gəlmişlər. Bir zamanlar Şuşa qala kimi tikilmişdir. Qalanın indiyədək qalan divarlarının hündürlüyü 8 metrə çatır. Şəhərdə bu gün belə XVIII əsrdə tikilmiş qalaları görmək olar. Şuşa lap qədimdən şairləri, bəstəkarları, xanəndələri, yazıçıları ilə məşhurdur. Bu şəhər Vaqifin, Ü.Hacıbəyovun, Bülbülün vətənidir. Böyük rus şairi Sergey Yesenin öz məktublarının birində yazmışdır ki, Qafqazda deyirlər: “Əgər sən xanəndəlik etmirsənsə deməli Şuşadan deyilsən”…

***Alqayıt Kərimov 18 sentyabr 1973***

* * *

El arasında Şuşanı Azərbaycanın xalq musiqi konservatoriyası adlandırırlar. Həqiqətən də belədir. Şuşa istedadlı musiqi xadimləri yetişdirmiş, özünün zəngin sənət irsi ilə şöhrətlənmişdir. Şuşada musiqi ilə bağlı olmayan ailə tapmaq belə çətindir…

***F. Əliyeva, Şuşadakı Şərq musiqi alətləri fabrikinin ustası, 23 aprel 1975***

Başı buludlarda gizlənən qarlı-qartallı dağların zirvəsini görmək istəsəniz Şuşaya gəlin. Dərin dərələrin, sıx meşələrin, təkrarolunmaz gözəlliyinə, dolama yollara baxmaq istəsəniz Şuşaya gəlin. Sıldırımlardan tökülən gur çayların, nəğməli

şəlalaların səsinə qulaq asmaq istəsəniz Şuşaya gəlin. Diş göynədən İsa bulağından bircə qurtum içmək, dünyada yeganə olan Xarıbülbül çiçəyinin ətrini duymaq, cüyür gözlərinin gözəlliyinə baxmaq istəsəniz Şuşaya gəlin. Saymaqla qurtaran deyil bu yerlərin füsunkarlığı…

***Q.Ağayev, 3 aprel 1975***

* * *

**Şuşanın baharı**

Qızıl işığını, qızıl nurunu,
Bulud ələklərdən ələyir günəş.
Səhər yağışında yuyunan dağı,
Körpə tək şəfəqə bələyir günəş

*

Zirvədən açılan kəlağay-duman
Dərin dərələrdə baş alıb gedir.
Olur şəfəqərlə üfüqlər əlvan,
Çaylar qıjıltıyla səs salıb gedir.

*

Güneylər bürünür yaşıl alova,
Quzeylər ağarır dənər qar kimi.
Ağaclar üstündə çoxalır yuva,
Quşlar vəcdə gəlir bəstəkar kimi

*

Sərin külək əsir Cıdır düzündən,
Titrəşir çiçəklər bir ehtizazla.
Qıvrılır səmada şimşəklər hərdən,
Göylər qaqqıldayır coşqun avazla.

*

Bahar paltarını geyinib Şuşa,
Olur şirin nəğmə, qanadlı şeir.
Bu gözəl bahara söz qoşa-qoşa,
Sənətkar olmuşdur Bülbül, Üzeyir.

***Elman Elsəvər, 23 aprel 1975***

* * *

Məşhur Avropa səyyahlarından biri demişdir: Şuşanın baharı əsrarəngiz rənglərin, sehirli səslərin, ürəkləri sənət alovuna salan qanadlı düyğuların birliyindən yaranır. Bu baharda qeyri-adi bir yaraşıq, ülviyyət və gözəllik büsatı vardır. Əfsunlu qıfılbəndlərdən keçib, ürəklərə süzülən əvəzsiz musiqi çalarları, şirin zəngulələr, laylalar qədər incə və məlahətli muğamat guşələri bu torpağən nəfəsidir…

***Hüseyin Razi, 27 aprel 1977***

* * *

Bu gün əlvan gözəlliklər sərgsi kimi zirvədə dayanmış Qarabağın xəritəsindəki Xankəndi rəvayətlərdə, kövrək xatirlərdə, nisgilli söhbətlərdə xəyalımızın güzgüsünə düşür. Bu güzgüdə ərlər, ərənlər, yadelli qəsbkar süngüsü ilə döşləşib adımızı yenilməzlər tarixinə yazan əcdadımızın vüqarlı görkəmi, şirin zəngulələr, qanadlı guşələr, incə xallar selində birləşib gur nəhrə dönən musiqimizin sehirli qıfılbəndləri, torpağın doğmalıq bəsirəti, analıq mehri canlanır.

Keçmişin dalğın və mükəddar görkəmini xəyala gətirəndə Xankəndi elə bil bir anlığa əsatirləşib kədərli hekayətləri ilə dil açır, qədim təzkirə kimi gözlərimiz önündə səhifələnir. Bu səhifələr də sanki əfsunlu şikəstə kimi qarlı-qartallı dağların qaşında səsləşib əks-sədası ilə bizi düşündürür…

***Hüseyin Razi, 12 iyul 1979***

* * *

Yolumuza göylər su çiləyir, narın yağış altında Şuşa dolaylarını qalxırıq. Gözlərimiz önündə Qarabağın gözəllik sərgisi açılır. Bahar öz fırçası ilə qarlı-qartallı dağlar, keçilməz dərələr boyunca təkrarolunmaz yaraşıq büsatı yaratmışdır. Dolaylar əzəmətli bir qalanın bürclərinə sarınan pillələr kimi görünür. Bu pilləri qalxdıqca gözlərimiz önündə elə bil tarix səhifələnir. Əsrlərin arxasına boylanırıq, üfüqlə birləşmiş kimi görünən qranıt hasarlarda sanki bütün Qarabağın vüqarı cəm olunmuşdur...

***Hüseyin Razi, 1 may 1982***

* * *

Salon titrəyirdi. Hamı bir nəfər kimi ayağa qalxaraq balaca sənətkarları alqışlayırdı. Rus, moldovan, ukraynalı, latış və başqa millətlərin nümayəndələri onları başa düşməsələr də Qırxqız dağlarının bulaqları kimi həzin şırıltıyla axıb gedən böyük Qarabağ musiqisinin təsirindən yaxa qurtara bilmirdilər.

İlahi, bu qızılgüllər kimi pak olan körpələrin ürəyindən qopub gələn səs idimi, yoxsa möcüzə?…

***"Şərq qapısı", 6 avqust 1988***

* * *

Xalqımız üçün çox həyəcanlı olan bu payız günündə də ana torpağın harayı çox qüdrətlə səslənməkdədir. Mənə elə gəlir ki, Araz boyda ayrılıq şırımına baxmayaraq o sahilli, bu sahilli bir arzu ilə bütövləşən Azərbaycan ayağa qalxaraq, məğrur qamətini haqsız zərbələrə söykəyir, andını və məsləkini bayrağa çevirib, üfüqlərə qaldırır.

Bütün dünya Azərbaycan xalqının vətən və ədalət naminə göstərdiyi fədakarlığa heyrət və heyranlıqla baxır. Bizə layqed olanlar həqiqətə göz yuman, satqınlıq edib özgə torpağına qəsd edənlər, süfrəmizin çörəyinə, Bakı nefti ilə yanan çırağına xəyanət edənlər, onların havadarlarıdır.

Saxta dostluğuna inandığımız insanları tanımaq üçün hələ böyük Nizami Gəncəvi belə demişdi:

*Yaxşı ad qazanmış gözəl dost ara,*
*Onda yetişərsən ağ günə, vara*

***Hüseyin Razi, 27 noyabr 1988.***

***https://www.mia.az/w1022711/susa-gozeldirhellip-2021-10-16-210839***



**"Big Bang"dən sonrakı gerçək həyat, yaxud Marseldən Marsa uçan boş xəyallar...**

19-02-2022 [10:54]

Əli Cabbarov,

Naxçıvan Dövlət Universitetinin dosenti

***

Deyilənə görə, artıq orbitinə çatmış təzə amerikan teleskopu bu dəfə Yerin qaranlıq tərəfindən bizim indiyə qədər görmədiyimiz məsafələri görəcək, kainatın yarandığı "Big Bang", yəni Böyük partlayışdan sonra baş verənlərə işıq tutacaq.

Deyilənə görə, artıq orbitinə çatmış təzə amerikan teleskopu bu dəfə Yerin qaranlıq tərəfindən bizim indiyə qədər görmədiyimiz məsafələri görəcək, kainatın yarandığı **"Big Bang", yəni Böyük partlayışdan** sonra baş verənlərə işıq tutacaq.

Dünyanın bütün elm və üləmaları bunun həyəcanı ilə yaşayarkən bizim Qafqazın yeni sakinləri olan ermənilər isə il yarım bundan əvvəl Qarabağda başlarına yağmış bombaların partlayışından hələ də özünə gəlməmiş, tam tərsinə boş xəyallarla hər gecə Marsa qədər uçub qayıdırlar. Doğurdan da əgər çürük ordusu yerlə bir olmuş erməni cəmiyyəti bu qədər yumruqdan sonra özünə gəlmiş olsaydı qalxıb özləririni bu qədər gülünc vəziyyətə salmazdılar.

Futbol sevilən oyundur, amma sizi inandırım ki, azarkeşlər onu nə qədər sevsələr də futbolçuların özləri qədər ondan zövq alammazlar. Yəni bir komandaya fanatiklik edib, onun qələbələrinə sevinən, məğlubiyyətinə üzülən nə qədər azarkeş varsa, tək bir futbolçu qədər oyunların nəticəsinə maraqlı ola bilməzlər. Yəni, futbolçular bir peşəkardırlar və hesab nə olursa olsun sonda qalib gələn yenə də dostluq,

qazanan isə yenə də futbolçuların özləridir: həm maddi, həm də qeyri-maddi olaraq.

Biz də sevimli komandamız, Azərbaycan futbolunu Avropada layiqincə təmsil edən doğma Qarabağımızın, **Ağdamın "Qarabağ" Futbol klubunun** qələbələrinə həmişə sevinmiş, ürəkdən azarkeşlik etmişik. Elə, bu yaxınlarda Avroliqa turnirində "Olimpik" Marsel komandasına qarşı səfərdə keçirdiyi oyun kimi. Təmsilçimiz güclü rəqibinə futbol hesabı ilə uduzsa da baxımlı hucum oyunu ilə təkcə öz azakeşlərinin deyil, bütün tamaşaçıların rəğbətini qazandı. Şübhəsiz, fransız stadionuna toplaşan və ekrandan oyunu izləyən çoxsaylı azarkeşlər Olimpikdən Cengiz Ündərin, yaxud Qarabağdan Tural Bayramovun gözəl oyunlarını doyunca seyr etdiyi zaman tribunalardakı bir qrup hay xəstəsinin özlərinə məxsus provokasiyası da gözdən qaçmadı. Bu mənzərə, sözün əsl mənasında tükü tökülmüş ac itlərin qurda uzaqdan hürməyi qədər miskin olub, sahiblərinə sədaqət göstərmək cəhdindən başqa bir şey deyildi.

**"Ermənilər toz kimi bütün dünyaya səpələnmişlər".** Orta əsrlərdə əsilləri Krımdan olan, ancaq Polşada doğulub Qərbi Ukraynanın Lvov şəhərində o dünyalıq olmuş erməni yazar Simeon Lehatsiyə məxsus olan bu kəlmələr o dövrdən tutmuş indiyə qədər erməni populyasiyasının xəritəsini tam aydın ifadə edir. Argentinadan Arkanzasa, Kaliforniyadan Kamçatkaya, Suriyadan Hindistana qədər toz kimi səpələnmiş ermənilər sanki sosial canlılara xas hissləriylə bir-birini qoxularından tanımaqda əsl dünya çempionudurlar. Elə bu xüsusi iybilmə qabiliyyətidir ki, ermənilər hardasa yaranmış bir boşluğu dərhal tapıb hərəkətə keçər, fürsət düşdükcə aranı qarışdırıb qan tökər, bu mümkün olmadıqda əzabkeş libasını geyib şivən qoparарlar. İstənilən halda isə son sədaqət nümunəsi kimi onlara müvəqqəti məskunlaşma yeri vermiş dövlətlərin siyasətçilərinin seçki karvanında beşinci təkər kimi

faydalı olmağa çalışıb, bununla da fəxr edərlər. Elə Marseldəki stadionda oturub, Qarabağ xəyalları edənlər kimi.

…Marseldəki ermənilər öz gic işlərində olsun, Cənubi Qafqazda artıq 2022-ci ilin fevralıdır və buradakı ermənilərin tam məğlubiyyəti ilə bitmiş 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunmuş Qarabağda Azərbaycanın apardığı genişmiqyaslı quruculuq sürətlənməkdə, Zəngəzur dəhlizinin açılması üzərində qətiyyətli işlər aparılmaqda, ağıllı yaşayış məntəqələri yaradımaqda, Mədəniyyət paytaxti Şuşamızın 270 illiyinə hazırlıqlar aparılmaqdadır.

Dünya bazarında taxılın, qızılın, neftin və qazın qiymətinin qalxdığı bir ərəfədə marselli ermənilər 30 il ərzində Zəngilnadan, Kəlbəcərdən qəsb etdikləri tonlarca qızılın, Qarabağın bərəkəli torpaqlarından topladıqları 100 min ton taxılın artıq xəyal olduğunu, əvəzində isə **Gorus-Qafan yolu üzərindəki gömrük postunda ödədikləri milyonlarla dollar rüsumun** artıq gerçək olduğunu bilməmiş olmazlar. Elə isə Fransada özünə zəngin həyat quran erməni yaxşı olardı ki, **Qərbi Zəngəzurda bir xum çaxır və 15 kilo kartofla** builki sərt qışı birtəhər keçirən bədbəxt ermənini revanşizmə qızışdırmasın. Çünki, burada, **Ermənistandakı həyat sözün əsl mənasında Böyük partlayışdan sonrakı boşluğa bənzəyir.** Marselin yaşıl çimlərində oynanan futboldan zövq almaqdansa, minlərlə kilometr uzaqda, Ağrı dağından da o tərəfdəkı yoxsul soydaşlarını təhrik edib, iyrənc səhvlər etdiklərini bir daha düşünsünlər. Çünki tək bir reallıq, sonunda yüz boş xəyalı paramparça edər.

Reallıq isə odur ki, Qarabağ Azərbaycandır!

***MİA.AZ. 19 fevral 2022-ci il***

***https://www.mia.az/w1029500/ldquobig-bangrdquoden-sonraki-gercek-heyat-yaxud-marselden-marsa-ucan-bos-xeyallar-2022-02-19-105800***

# Erməni faşizminin qanlı silahlarının sərgiləndiyi Hərbi Qənimətlər Parkı

*Qarabağda otuz ilə yaxın bir müddətdə davam etmiş erməni işğalına son qoymuş şanlı Vətən müharibəsindən sonra informasiya cəbhəsində davam edən mübarizə düşmənin iç üzünün dünyada ifşa olunması, onun faşist xislətinin, insanlığa qarşı cinayətlərinin daha geniş panoramda işıqlandırılması vəzifəsini qarşıya qoyur. Çünki dünyada qlobal problemlərin kəskinləşdiyi, iqlim, enerji və ərzaq təhlükəsizliyi kimi başəri əhəmiyyətli məsələlərin gündəmdə olduğu bir dövrdə, təəssüf ki, faşizmə qarşı da mübarizə aparmaq zərurəti hələ də qalmaqdadır. Ona görə də ötən yüzillikdə dünyanın qara ləkəsi olmuş faşizmin acı sonundan dərs çıxarmayan erməni millətçiliyi, onun ideoloqlarının arxasınca sürünən kütbeyin hay sürüsünün birdəfəlik səsini kəsmək üçün bütün tərəqqipərvər bəşəriyyətin həmrəy olması gərəkdir.*


QARABAĞ AZƏRBAYCANDIR!

Erməni faşizminin qanlı silahlarının sərgiləndiyi

Hərbi Qənimətlər Parkı

Adı, mənşəyi və tarixi özlərinə də qaranlıq olan ermənilərin canına hopmuş faşizm ruhu bu gün təkcə qonşuları üçün deyil, bütün dünya üçün böyük bir təhdiddir. Bu azmış kimi faşizm hay arsızlığı ilə birgə mutasiya olunduqda heç bir elmin çözə bilməyəcəyi bir genetik kod əmələ gəlir ki, onun da çarəsi, ancaq “dəmir yumruq” kimi sərt tədbirlərdən keçir. Tarixin ən dəhşətli — Xocalı soyqırımını törətmiş, cəsədləri,

qəbirləri təhqir edə biləcək aşağı səviyyədə vandal olan ermənilərin bir etnos kimi faşizmə yuvarlanması təkcə onların əsassız torpaq iddiaları ilə bitmir, tam əksinə, özlərini hamıdan ali səviyyədə göstərən **“böyük millət”** ideologiyasından da qaynaqlanır. Yer kürəsində guya torpaq, su qədər qədim bir tarixləri olduğunu, utanmasalar Nuh Peyğəmbərdən də qabaq dünyanın ilk sakinləri olduqlarını iddia edə biləcək dərəcədə üzsüz olan ermənilərin bu gedişlərinə dur deyəcək bir güc isə erməni faşizmindən ən çox zərər görmüş Azərbaycan xalqı, onun müzəffər Ordusudur. 44 günlük şanlı Vətən müharibəsindən sonra darmadağın edilmiş erməni ordusunun silahlarının sərgiləndiyi Hərbi Qənimətlər Parkına gələn ziyarətçilər ordumuzun bu gücünün bir daha şahidi olurlar.

Paytaxt Bakı şəhərindəki üçrəngli Azərbaycan bayrağının dalğalandığı Hərbi Qənimətlər Parkında məğlub erməni ordusuna aid vurulmuş və ya döyüş meydanında düşmənin atıb qaçdığı saz vəziyyətdə olan ən müxtəlif hərbi texnika guya məğlubedilməz olan erməni ordusu mifinin puç edilməsi və eləcə də qaniçən düşmənin nə qədər amansız olduğunu bütün dünyaya göstərir. Vətən müharibəsində hərbi qənimət kimi götürülmüş texnikaların yalnız bir hissəsinin sərgiləndiyi Hərbi Qənimətlər Parkında olarkən erməni faşizminin nə qədər məkrli planlar hazırladığını bir daha görmək mümkündür. Parkdakı erməni ordusuna məxsus qadağan edilmiş silahlardan tutmuş kustar üsulla hazırlanmış silahlara qədər bütün ölümsaçan texnika məhz fürsət düşəndə dinc insanlara qarşı hər cür terror əməlləri törətməkdə bir nömrəli olan ermənilərin əl-qolunu açan vasitələr olmuşdur. Mülki obyektlərə qarşı işlədilməsi qadağan olunmuş orta mənzilli “İsgəndər M” və “Smerç” raketləri, Xirosimanı məhv etmiş gücdə **nüvə başlığı da daşıya bilən** “Toçka-U” raketləri, ağır T-72 tankları, “Kub” zenit-raket kompleksləri, “Qvozdika” özüyeriyən artilleriya qurğuları, avtomatik zenit topları, “Şilka” özüyeriyən zenit qurğuları, “Şturm-S”, “Kornet-EM” və “İqla-

S” özüyeriyən tank əleyhinə raket kompleksləri, müxtəlif kateqoriyalı zenit, “Qiansit-B”, haubitsa topları və minaatanlar, “Qrad” yaylım atəşi kompleskləri, hava hücumundan müdafiə sistemləri, piyadaların döyüş maşınları, yüksək keçid qabiliyyətinə malik hərbi avtomobillər, minalar və müxtəlif yüngül silahlar bu parkda sərgilənir. Göründüyü kimi, təkcə atom bombasının olmadığı erməni cəbbəxanası insanlığa qarşı hər cür cinayətlər törətmək üçün kifayət qədər zəngin olub. Düzdür, texnikalara aid informasiya lövhələrinə baxdıqda onların əksəriyyətinin azı 30 il yaşı, bəzi topların isə 1945-ci ildə istehsal edildiyini gördükdə erməni mifinin nə qədər gülünc və cəfəngiyyat olduğunu, erməni ordusunu maliyyələşdirmiş Hayastan fondunun saxtakar missiyasının genişliyini bir daha görürük. Ümumilikdə, parkda sərgilənən boynubükük erməni texnikalarının vəziyyəti onu deməyə əsas verir ki, hətta saz vəziyyətdə ələ keçirilmiş silahlar belə, uzun müddət baxımsız qalmış, onlara başdansovdu münasibət göstərilmişdir. Bu mənada, təkcə erməni ordusunun deyil, bütün erməni cəmiyyətinin düşdüyü ağır böhran və yoxsulluq girdabının tipik göstəricisidir bu silahlar. Ayrıca olaraq parkda erməni hərbi qulluqçularının gündəlik yaşayış predmetlərinə və ya əsgərlərin qidalarına aid eksponatlar da, əslində, yuxarıdakı fikirləri bir daha təsdiq edir. Parkın girişindən asılan, döyüşdə hərbi qənimət kimi ələ keçirilmiş erməni hərbi avtomobillərinin nömrələrindən düzəldilmiş və üzərində iri hərflərlə yazılmış “Qarabağ Azərbaycandır!” yazısı işğalçının acı sonunu bir daha bütün dünyaya nümayiş etdirir. Çünki istənilən halda indi artıq soyuq bir metal parçası olan bu texnikaların, bəlkə də, 30 il əvvəl 26 fevralda 366-cı rus motoalayının tərkibində Xocalıda dinc əhaliyə qarşı soyqırımı törətmədiyini kim deyə bilər ki? Yoxsa çürük erməni ordusunun əsl döyüşdə nə qədər davam gətirə biləcəyini bütün dünya gördü. **Cəmi 44 gün dayana bildilər**.

Dənizdən-dənizə gülünc ərazi iddiaları olan ermənilər bir zamanlar Xəzərə qədər yürüşlə ölkəmizi təhdid edərdilər. İndi doğma Xəzərin sahilində, Bakının mərkəzində sərgilənən erməni ordusuna məxsus olmuş ayı kimi yöndəmsiz hərbi texnikaları gördükdə düşünürsən ki, **rus dəmiri** nə qədər sərt olsa da, əsgərlərimizin cəsarəti, ağlı, zəkasının qarşısında o da, bax beləcə, təpəsindən vurulacaq. Müasir müharibələrin beşinci nəsil ultradəqiq texnologiyalarla aparıldığını, döyüşlərin tək mərmitək hədəf prinsipi ilə aparıldığını nəzərə alsaq, bu silahların, ancaq Gəncənin, Tərtərin, Bərdənin dinc sakinlərini vurmaq üçün yararlı olduğunu demək olar. Bu mənada, ən müasir silahlarla təmin olunmuş, ən çətin döyüş şəraiti təlimi almış qəhrəman Azərbaycan Ordusu bu texnikalarla döyüşmüş erməni əsgər və zabitlərini məhv etməklə, əslində, erməni faşizminin də belini qırmışdır. **Beli qırılmış çaqqalın** qana susamış dişlərini bir-bir söküb onu acından öldürmək üçün isə indi əlimizdə hər cür əsasımız və daha çox gücümüz var.

***"Şərq qapısı", 25 fevral 2022-ci il***

***https://www.serqqapisi.az/xeberler/ermeni-fasizminin-qanli-silahlarinin-sergilendiyi-herbi-qenimetler-parki***

# Gözəlin göz yaşları və Allaha tapşırılan Nataşa

### *Rusiya-Ukrayna müharibəsinin günahsız qurbanlarının xatirəsinə*



Gözəlin göz yaşları və Allaha tapşırılan Nataşa

03-03-2022 [15:37]

Əli Cabbarov

Naxçıvan Dövlət Universitetinin dosenti

***

*Rusiya-Ukrayna müharibəsinin günahsız qurbanlarının xatirəsinə*

***

**Bir gün mütləq bir şəkildə hamının tərk edəcəyi bu gözəl dünyada yeni bir müharibə alovlandı: Rusiya-Ukrayna müharibəsi! Üzərindən cəmi 7 gün keçsə də bəlkə də tarixin indiyə qədərki ən dəhşətli qardaş qırğını olan bu müharibədə də yenə günahsız insanlar qətl edilir, təbiətin və bəşəriyyətin yaratdığı gözəlliklər məhv olur.**

Tarixdəki bütün müharibələr gec-tez ədalətlə sona çatmış, işğalçılar layiqli cəzasını almış, xalqlar yenidən bir-birinin mədəniyyətini paylaşmış, geridə qalanlar isə anaların ah-naləsi, günahsız körpələrin göz yaşları, şirin həyatının astanasındakı gənclərin yarımçıq qalmış arzuları və bir də savaş qurbanlarının xatirəsinə ucaldılmış abidələr olmuşdur

Bir gün mütləq bir şəkildə hamının tərk edəcəyi bu gözəl dünyada yeni bir müharibə alovlandı: Rusiya-Ukrayna müharibəsi! Üzərindən cəmi 7 gün keçsə də bəlkə də tarixin indiyə qədərki ən dəhşətli **qardaş qırğını** olan bu müharibədə də yenə günahsız insanlar qətl edilir, təbiətin və bəşəriyyətin yaratdığı gözəlliklər məhv olur.

Tarixdəki bütün müharibələr gec-tez ədalətlə sona çatmış, işğalçılar layiqli cəzasını almış, xalqlar yenidən bir-birinin mədəniyyətini paylaşmış, geridə qalanlar isə anaların ah-naləsi, günahsız körpələrin göz yaşları, şirin həyatının astanasındakı gənclərin yarmçıq qalmış arzuları və bir də savaş qurbanlarının xatirəsinə ucaldılmış abidələr olmuşdur. Müharibələri yaradan səbəblər, onların acı nəticələri nə qədər öyrədilsə də, uşaqlara lap kiçik yaşlarından onun qorxu və

fəlakətləri anlatılsa da, təəssüf ki, şeytanın yuva saldığı beyinlər bu kabusu hələ də yaşatmaqdadır.

Müharibə kabusunu bəlkə də ən çox yaşayan xalqımız, Azərbaycan Respublikası vətəndaşlarıdır. Hələ ötən əsrdə yaşadığımız iki dünya müharibəsindən başqa, az qala yüz ildən çox müddətdə terror və bəd əməllərlə insanları qorxuya salmış **erməni faşizmi** də tarixin bütün dövrlərində qanlı əməlləri ilə azərbaycanlıları qətl edib, xalqımıza qarşı elan olunmamış müharibələr aparmışdır. Ona görə də dünyanın harasında olursa olsun bir münaqişə ocağı baş verib, qan töküləndə dərhal öz şəhidlərmiz, Qarabağın işğalından sonra 30 il qaçqın, köçkün vəziyyətdə yaşamış soydaşlarımızın göz yaşardan mərhumiyyətləri yada düşür. Bütün müharibələrin bir an öncə bitməsi üçün dua etdiyimiz bir dövrdə tarixən sıx iqtisadi-mədəni əlaqələrimiz olmuş **iki slavyan xalqın müharibəsi** də sözün əsl mənasında hər iki tərəf üçün bir faciə olmaqla bizi də ciddi şəkildə narahat edir.

Müasir internet dövründə Rusiya-Ukrayna müharibəsinin istər arxazəminindəki prosesləri, istər müharibəyə qədərki ara qızışdaranları, istərsə də onun baş verməməsi üçün can-başla səy göstərənləri indi bütün dünya yaxşı bilir. Ancaq bu müharibədə elə bilinməyənlər vardır ki, onları yalnız və yalnız bomba sığınacağnda oturub, sabaha sağ çıxmağı gözləyənlər, ətraf aləmlə əlaqəsi kəsilib kiminsə öldü-qaldısından xəbəri belə olmayanlar, qürbətdəki övladından, yaxınından xəbər ala bilməyib evinin içində az qala dəli olanlar, ərzaq, su ehtiyatı qurtarıb ağlayan körpəsini nə ilə ovunduracağını bilməyənlər, bombalardan dağılmış evini, oxuduğu məktəbi görüb göz yaşı tökənlər, əsir götürlmüş övladının videosuna internetdə rast gəlib şok olanlar bilərlər. Bütün belə bilinməyənlər isə ard-arda gələn xəbərlər, rəsmi açıqlamalar və sosial şəbəkə paylaşımları ilə bölüşüb çoxaldıqca gözümüzün qarşısında real bir mənzərə yaranır. **Müharibə!**

**Ukrayna gözəl ölkədir.** Hətta köhnə tarix kitablarındakı IX əsr Kiyev rus dövləti haqda yazıldığından da artıq dərəcədə qeyri-adi təbiəti, bərəkətli torpaqları, çalışqan insanları, mədəniyyəti və elmi ilə bu gözəl ölkədə yaşayanlara çoxları qibtə ilə yanaşmışdır. Bizdən yaşlı və bizim nəslin insanları, yaxud bu ölkə ilə uzaqdan, yaxından tanış olanlar söhbət Ukraynadan düşəndə Azərbaycanla da yaxın tarixi dostluğu olan son dərəcə **tolerant insanların** yaşadığı ərazini başa düşürlər. Çox varlı olmasalar da kimsənin malında, **torpağında gözü olmayan** ukraynalılar təhsil, idman, mədəniyyət, turizm kimi sahələrdə yüksək etimad toplamaqla bu günkü kimi dünyanın da simpatiyasını qazanmışlar. Xülasə, bəlkə, gözəl olmağın cazibəsidir ki, bu gün keçmiş SSRİ-dən qopmuş, amma hələ də tam müstəqilliyinə qovuşa bilməmiş qardaş Ukrayna hələ də işğal, əzab və əziyyətlərdən qurtula bilmir. Gözəlin elçisinin çoxluğundandır, ya nədənsə sözdə ona heyranlığını gizlədə bilməyən, amma real təhlükə ilə üz-üzə qaldıqda yalnız mənəvi dəstək verənlərin əksinə olaraq bu gün Ukrayna xalqı qeyri-bərabər güc nisbətində döyüşə atılıb, torpağını qorumaqla bütün dünyanı heyran qoyub. “Bəyənsən də döz, bəyənməsən də, gözəlim!” — deyən işğalçı ordu komandirinin yuxusunu qaçıran vətənəpərvər Ukrayna xalqı inanlımaz dirənci ilə Qərbin də alçaq senarilərinin üstündən xətt çəkib, öz yolunu seçdi. “Ya olum, ya da ölüm” taktikası ilə dərin Ukrayna bataqlıqlarını, qalın Ukrayna meşələrini düşmənə məzar edən qəhrəman xalq bununla da öz seçdiyi liderinə inanıb onu ayaqda alqışlatdı. Beləiklə, nəticəsi nə olursa olsun, bu müharibə artıq indidən Avorpanın və eləcə də bütün dünyanın şəklini dəyişdi. Əgər 2020-ci ilin payızındakı Azərbaycanın işğalçı Ermənistana qarşı apardığı 44 günlük şanlı Vətən müharibəsi bütün Cənubi Qafqazda yeni reallıqlar yaratdısa, 2022-ci ilin 24 fevralında ABŞ-ın **proqnozundan** cəmi 1 həftə gec başlayan Rusiya-Ukrayna müharibəsi də bütün dünyada yeni reallıqlar yaratdı. Bu müharibə indiyə

qədər böyük dövlətlərin siyasi gedişləri ilə pərdələnən güclərin hansının dən davası, hansının isə din davası apardığını üzə çıxardı. Bundan əlavə, ultradəqiq zərbələrlə vurulub metal yığınağına çevrilmiş hərbi texnikaların artıq zamanının çoxdan keçdiyini, **iqtisadiyyatından böyük orduya** sahib olmağın nə qədər biabırçı nəticələr doğurduğunu, Azərbaycanın da böyük müsbət təcrübəyə malik olduğu sınanmış xalq-dövlət-ordu tandeminin nə dəqər sağlam olduğunu bu müharibə ilə bütün dünya bir daha gördü. Müasir cəmiyyətin bütün sahələrinə, iqtisadiyyata, sosial və mədəni həyata damğasını vurmuş internet isə bu müharibədə üçünci bir tərəf kimi ağıllının və haqlının yanında oldu. İstər gerçək, istər saxta məlumatlar olsun insanlar üzərindəki ağıllı cihazlarla son xəbərləri paylaşıb ağılsız siyasətçilərə meydan oxudular. Sonda qazanan isə torpaq ehtirası ilə yanan ayı iştahlı işğalçıları lənətləyən insanlıq oldu. Ukraynada əsir düşən, bəlkə də günahsız olan **ac rus əsgərini** öz balası kimi yedizdirib, onu anası ilə telefonda görüşdürən, kövrəldikcə başını da sığallayan ukraynalı qadının insanlığı kimi. Üzündə məğrur olsa da içindəki göz yaşları ilə telefonda danışdığı Nataşanı, əsir əsgərin anasını da Allaha əmanət edən bu **Ukrayna gözəli** ölkəsini viran qoymuş müharibəni qızışdıran **Solovyov, Simonyan, Skabayeva** kimi iblislərə də unutmayacaqları bir insanlıq dərsi keçdi. Kim bilir, bəlkə də son dəfə, əgər o da artıq sağ deyilsə.

**Son söz rus xalqınındır!**

***MİA.AZ. 3 mart, 2022-ci il***
***https://www.mia.az/mobil/1030177***

# ŞUŞANIN NOVRUZ BÜSATI (esse)

Torpağının bütövlüyünə qovuşmuş, qalib Azərbaycana bahar gəlmişdir!

Novruz hər il Azərbaycanda böyük təntənə il qarşılanır. Hətta doğma Qarabağımız 30 il düşmən tapda-ğında olanda da xalqımız bu el bayramında “Uca Allah gələn **Novruzu bizlərə Şuşada keçirməyi** nəsib etsin”, — arzusu ilə birbirini aramış, ürək sözlərini çatdırmışdır. Müzəffər Ordumuz Qarabağı düşmən işğalından azad etdikdən sonra artıq ötən ildən ölkə başçısı, Ali Baş Komandan cənab **İlham Əliyevin Şuşada, Cıdır düzündə şöləndirdiyi ilk Novruz tonqalı** bir daha bu torpaqlara yağı düşmən ayağının dəyməyəcəyini, uşaqlarımızı daha xoşbəxt, daha təhlükəsiz gələcək gözlədiyini bütün dünyaya elan etdi. Bu həm də Novruz tonqalı timsalında bütün dünyanı sülhə çağıran, bu torpaqlarda qara günlərin artıq geridə qaldığını və bundan sonra Qarabağda yalnız və yalnız quruculuğun, dinc həyatın və mədəniyyətin yaşayacağının bəyanı idi.


ŞUŞANIN NOVRUZ BÜSATI (esse)

19-03-2022 [12:52]

**Hər il Novruzda təbiət ılıq yaz Günəşinin hərarətindən bir daha cana gəlib oyandıqca doğma torpağımız bu dünyanın ən gözəl guşəsi kimi insana gəl-gəl deyir.**

Ötən payızdan torpağa sığınıb baharın gəlişini gözləyən novruzçiçəyi gözünü açıb yeni bir həyata başladıqca Bakıdan Gəncəyə, Şirvandan Şəkiyə, Naxçıvandan Şuşaya qədər Vətənimizin hər yerində yeni bir büsat, Novruz büsatı boy atır. Torpağının bütövlüyünə qovuşmuş, qalib Azərbaycana bahar gəlmişdir!

Novruz hər il Azərbaycanda böyük təntənə il qarşılanır. Hətta doğma Qarabağımız 30 il düşmən tapdağında olanda da xalqımız bu el bayramında **“Uca Allah gələn Novruzu bizlərə Şuşada keçirməyi nəsib etsin”**, - arzusu ilə birbirini aramış, ürək sözlərini çatdırmışdır. Müzəffər Ordumuz Qarabağı düşmən işğalından azad etdikdən sonra artıq ötən ildən ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin Şuşada, Cıdır düzündə şöləndirdiyi ilk Novruz tonqalı bir

Novruzun Qarabağda, Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşada qarşılanması Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları üçün çox əlamətdar hadisədir. Əgər 44 günlük şanlı Vətən müharibəsi dövründə dünyaAzərbaycan xalqının dəmir yumruq kimi möhkəm birliyinin şahidi olmuşdusa, Şuşada keçirilən hər Novruz bayramı da bu şəhərin, eləcə də bütün Qarabağın azərbaycanlılar üçün nə qədər əziz olduğunu da bir daha göstərir. Artıq başı üzərindəki qara buludları yox

olmuş Şuşasına qovuşmuş Günəş kimi hər kəs buradakı Novruz büsatını da bərabər yaşamaq istəyir.

Şuşa artıq mədəni dünyanın cazibə mərkəzidir. Ölkə başçımız **2022-ci ili "Şuşa ili" elan** etməklə, əslində, bütün dünyanın diqqətini yenidən bu şəhərə, Qarabağa və bütün Azərbaycana cəlb etdi.

Bundan sonra ölkəmizin Mədəniyyət Paytaxtı olmaqla, Şuşa xalqımızın qədim mədəniyyətinin dünyaya tanıdılmasının, torpaq sevgisinin ən sonunda mütləq qalib gələcəyinin canlı təbliğatçısı olacaq. İndi hamını özünə səsləyən Şuşa qəhrəman şəhidlərimizin dastana döndüyü bu torpaqlarda yaradılacaq yeni büsatı ilə çox yaxında cənnətin qapısı kimi bütün dünyanın üzünə açılacaq, insanların ürəyində yeni gözəl arzular oyanacaq.

Bu gün isə burada, öz torpağında Novruzu qarşılayan şuşalıların, qəhrəman əsgərlərimizin, xarıbülbülün sevgisinin şirin vüsalına qovuşmuş bütün Azərbaycan xalqının bir arzusu var: qoy heç zaman bahar Günəşimiz sönməsin, bir daha övladlar şəhid olmasın.

***MİA.AZ. 19 mart 2022-ci il***

***https://www.mia.az/mobil/1030968***



## Ohanyan "səddi" - Vətən müharibəsi şəhidlərimizn xatirəsinə

29-09-2022 [15:08]

Əli Cabbarov,

Naxçıvan Dövlət Universitetinin dosenti

***

Dünya hərb tarixinə dərin iz qoymuş, Azərbaycan xalqının qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazılmış 44 günlük şanlı Vətən müharibəsi nəticəsində işğalçı erməni ordusu darmadağın edilmiş, qalib Azərbaycanın diqtəsi ilə regionda yeni geostrateji reallıqlar yaranmışdır.

Dünya hərb tarixinə dərin iz qoymuş, Azərbaycan xalqının qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazılmış 44 günlük şanlı Vətən müharibəsi nəticəsində işğalçı erməni ordusu darmadağın edilmiş, qalib Azərbaycanın diktəsi ilə regionda yeni geostrateji reallıqlar yaranmışdır. Düşmənin biabırçı məğlubiyyəti ilə nəticələnən bu müharibədən sonra şəhidlərimizin qanı bahasına qazanılmış möhtəşəm qələbənin qorunub saxlanılması və eləcə də sülh müqaviləsinin bağlanılması istiqamətindəki hərbi və diplomatik sahədə həyata keçirilən işlər Azərbaycanın beynəlxalq arenada nüfuzunu daha da artırmışdır. Azad Qarabağın hər qarışını cənnətə çevirəcək qüdrətli Azərbaycan dövlətinin, onun müzəffər Ordusunun və qətiyyətli Ali Baş Komandanının gücü qarşısında artıq heç bir keçilməz sədd yoxdur.

Ancaq müharibənin gedişi və onun başlanmasından keçən iki ilə qədərki mürəkkəb dövrün təhlili göstərdi ki, bu və ya digər şəkildə bizimlə birgə bu regionda yaşayacaq olan erməni toplumu mənsubları məğlubiyyətin acısından, yaxud düşdüyü dərin siyasi-iqtisadi böhrandan özünə gəlməyərək hələ də dırnaqarası miflərin xülyaları ilə sanki özlərini yenilməz

cəngavərlər sayaraq gah yel dəyirmanı ilə savaşan Don Kixot kimi harada gəldi hücum edir, gah da **Tiqranabənzər meymunlar** kimi yerli-yersiz şuluqluq salaraq daha da acınacaqlı və gülünc vəziyyətə düşürlər. Bu ilin sentyabrında Azərbaycanın dövlət sərhədində baş verən genişmiqyaslı erməni təxribatına, buna qədərki Brüssel görüşlərində isə bunun əksinə, nisbətən "ağıllı" davranışlarına baxdıqda qabarma-çəkilmə effekti göstərən erməni siyasi liderlərinin və mənsub olduqları sosiumun biomorfoloji genezisinin, DNT quruluşunun çox mürəkkəb olduğunu deyə bilərik. Bütün bu qarmaqarışıqlıq isə, son nəticədə, elə bu ölkənin və burada yaşayan insanların qarşısında böyük bir sədd çəkir.

Ermənilər sədd çəkmək, süni əngəl yaratmaqda əsl dünya çempionudurlar. Ənənəvi **erməni tərsliyi**, kiçik bir barmaq yarasını şişirdib şivən qoparmaq bacarığı, bacarsalar, Marsda da özlərinə əcdad tapmaq həyasızlığı və bir də çox məşhur utanmazlıq hissləri hayların heç kimdə olmayan bu fövqəl istedadının ana kapitalıdır. Amma fiziki və mənəvi körpülər tikib savab qazanmaqdan xeyli uzaq düşmüş erməni icması süni divarlar və sədlər çəkməklə bilmirlər ki, onlar bu yolla olsa-olsa, özlərini dünyadan təcrid edib, daha da Daş dövrünə qayıdacaqlar. Təkcə Qarabağın işğalı ilə keçmiş ötən 30 ilin xronikası göstərir ki, belə sədlər nə qədər onların özlərinə xas haylı-küylü olsa da, bir dəmir yumruqla yerləyeksan olacaq qədər çürük və zəminsizdirlər. Elə ikinci Qarabağ müharibəsi



öncəsində təmas xətti boyu çəkilmiş dırnaqarası “Ohanyan səddi” kimi.

“Ohanyan səddi”, yaxud işğalçı dövlətin keçmiş **dırnaqarası müdafiə naziri** Seyran Ohanyanın adını daşıyan, təxmini uzunluğu 200 kilometrə qədər olmuş müdafiə xətti ermənilərin bir zaman Azərbaycan əsgərinin hökmən buradan keçərək əks-hücuma atılacağına inandığı yerdə uzun illər ərzində tikilmiş mürəkkəb mühəndis istehkam qurğulardan, yeraltı bunkerlərdən, tank və piyada əleyhinə maneələrdən, uzunmüddətli atəş nöqtələrindən, minalanmış ərazilər və dayaq nöqtələrindən ibarət olmaqla Ermənistanın sülh deyil, işğalçılıq siyasəti yeritdiyinin bir sübutudur. Hər nə qədər 44 günlük müharibəyə kimi olan dövrdə qoşunların təmas xəttində ATƏT-in **Minsk qrupu adlı bir triadanın** görə bilmədiyi bir sədd olsa da, fakt oldur ki, bu sədd yüz milyonlarla dollara genişhəcmli torpaq, tikinti və kommunikasya işlərinin nəticəsində başa gəlmişdi. Doğrudur, ermənilər heç zaman antik bir xalq, bu sədd də Böyük Çin səddi qədər möhtəşəm olmasa da, “Ohanyan səddi” haqqında danışmağın müharibədən ötən iki ilin və qarşıdakı dövrün təhlili baxımından əhəmiyyətli ola bilər.

Hər nə qədər ermənilər üçün alınmaz bir qala donu geydirilsə və daim olaraq gücləndirilsə də, artıq 2016-cı ilin Aprel döyüşlərində bu xətti keçməyin Azərbaycan əsgəri üçün çətin olmayacağı görünmüşdü. Hələ şanlı zəfərimizə aparan həmin döyüşlərdə müzəffər Ordumuz bu bədnam səddi iki yerdən yarmağa müvəffəq olmuş, bütövlükdə, erməni ordusunun çürük skeletini bu səddin içinə gömmüşdü. İki il əvvəl başladılan İkinci Qarabağ müharibəsinin ilk saatları isə bütün erməni xülyaları kimi “Ohanyan səddi”nin, onun dırnaqarası yaradıcılarının kabusuna çevrildi. Başqasının ərazisində tikilmiş bu səddin bütün konstruksiya elementləri onu qorumağa çalışan işğalçı düşmən əsgərləri ilə birlikdə cəmisi iki gündə tamamilə məhv edildi.

Hazırda “Ohanyan səddi” ilə fiziki olaraq tamamilə mahiyyətini itirmiş, Azərbaycan öz ərazi bütövlüyünü təmin etmişdir. İki il əvvəl qanlı döyüşlər getmiş bu ərazidə indi ilk şəhidlərimizin xatirəsi yaşadılır. Ancaq qələbədən sonra sülhə gedən yolun məğlub Ermənistan tərəfindən inadla uzadılması onu göstərir ki, buradakı insanların xislətində, onların şüuraltı instinktlərində hələ də eni-boyu bilinməyən çox sayda “Ohanyan sədləri” qalmaqdadır. O sədlər ki ağ-qara demədən bütün ermənilərin qarşısında dayanaraq onları bu dünyanın gözəlliklərini görməkdən, sivil dünyaya qatılıb adam kimi yaşamaqdan məhrum edir. Həm maddi məhrumiyyətlər, bir yandan da belə mənəvi korluq ucbatından komaya düşmüş erməni toplumu bunun günahını özündə axtarmaqdansa, yenə də otuz il əvvəlki kimi başqasına xəndəklər qazmaqda israrlıdırlar.

Amma yaxşı olardı ki, xəndəkbaz ermənilər bu müddət ərzində başlatdıqları müharibənin, yaxud elə “Ohanyan səddi”nin onlara nəyə başa gəldiyinə bir baxsınlar. Belə ki, ilk olaraq keçmiş SSRİ dağılandan sonra yeni müstəqil dövlətlər üçün dünyaya yeni inteqrasiya imkanları yarandığı halda ermənilər hələ o zaman beyinlərində olan bu səddin o biri tayında qalıb özlərinə başqa yol seçdilər. Qonşu həyətinə daş atan dəcəl uşaqlar kimi əzizlənmək istəyən bu insanlar düşünmədilər ki, xaricdəki havadarlarının sonsuz dəstəyinə inanıb qonşularına xain olmaqla çox da uzağa gedə bilməyəcəklər. Belə ki, hələ 1993-cü ildə Azərbaycana qarşı işğalçılıq əməllərinə cavab olaraq qardaş Türkiyə sərhədi bağlayıb **erməniləri o biri tərəfə ohaladı**. Nəticədə, bu gün təkcə regionun siyasi ağırlıq mərkəzi deyil, həm də elm, mədəniyyət, sənaye və texnologiya mərkəzi olan Türkiyənin potensialı ermənilər üçün əlçatmaz oldu. Bunun ardınca Azərbaycanın zəngin karbohidrogen sərvətlərinin Qərb bazarlarına nəqli üçün yaradılan enerji və logistika koridorlarından məhrum olan Ermənistan yenə də bədnam

“Ohanyan səddi”nin ona vurduğu zərərləri hesablaya bilmədi. Özünün dövlət sərhədini, əksər strateji müəssisələrini, hətta əməkqabiliyyətli insan resurslarını şimal qonşusuna uduzan ermənilər inadla “Ohanyan səddi”nin o biri tərəfində qalmaqla sanki zamanın onların xeyrinə keçdiyini zənn edirdilər.

Beləcə, bədnam “Hayastan fondu”na ianə toplayıb başqasına xəndək qazan ermənilər bir də ayıldılar ki, zaman çuxurunun ən dibində qalıblar. Buradan xilas olmaq, hərbi-siyasi sahədəki məğlubiyyətdən və iqtisadi müstəqilliyin itirilməsi ilə dərinləşən böhrandan qurtulmaq üçün bu gün sülh danışıqlarına getmək, kommunikasiyaların açılması üçün əməli iş görmək əvəzinə yenə də vaxtı uzatmaq, dünya gündəmindəki havalar dumanlandıqca dərhal bir təxribat törədən ermənilər görünür “Ohanyan səddi”nin hələ çox arxasında qalacaqlar. Bəlkə, haradasa, yeni bir səddin tikintisinə də başlayıblar.

**Kim bilir?!**

***MİA.AZ. 29 sentyabr 2022-ci il***

***https://www.mia.az/mobil/1039176***

# MƏN ŞUŞAMA VURĞUNAM




Şuşa mənim ürəyim
Eşqim, arzum, diləyim
Cənnət üzlü mələyim
Mən Şuşama vurğunam!

Şərəfim, iftixarım
Əyilməyən vüqarım
Mənim vəfalı yarım
Mən Şuşama vurğunam!

Xanın zənguləsidir
Bülbülün nəfəsidir
Xudayarın səsidir
Mən Şuşama vurğunam!

Eşqin ilə alışdım
Xan qızına qovuşdum
Vaqifimi soruşdum
Mən Şuşama vurğunam.

Mübarizim, Poladım
Vətən adlı muradım
Bilməm, necə anladım
Mən Şuşama vurğunam,
Mən Şuşama vurğunam!

***MİA.AZ. 7 noyabr   2022-ci il***
https://www.mia.az/w1040692/1040692

# Sülhsevər dünya erməni vandalizminin qara izlərinə “Qaranlıq turizmi”nin gözləri ilə baxacaq

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 5 yanvar tarixli Sərəncamı ilə 2022-ci ilin “Şuşa ili” elan edilməsi ilə əlaqədar UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzi tərəfindən “Şuşanın sosial-iqtisadi


2022-ci il "Şuşa ili"dir

Sülhsevər dünya erməni vandalizminin qara izlərinə "Qaranlıq turizmi"nin gözləri ilə baxacaq

dirçəldilməsi Azərbaycanın tərəqqisinin yeni zirvəsidir” adlı ümumrespublika elmi məqalə müsabiqəsi keçirilmişdir. Müsabiqədə ölkənin ali təhsil və elmi-tədqiqat müəssisələrinin professor-müəllim heyətinin, doktorant, magistr və tələbələrinin Şuşa şəhərinin sosial-iqtisadi potensialının tədqiqi, bu potensialın təhlili, qiymətləndirilməsi, inkişaf etdirilməsi və Şuşa şəhərinin dirçəldilməsi perspektivlərinin öyrənilməsi ilə bağlı tədqiqatların aparılmasına təşviq edilməsi və bu istiqamətdə stimullaşdırılması məqsədilə təşkil olunmuşdur. “Naxçıvan” Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru Əli Cabbarov **“İşğaldan azad edilmiş Şuşa şəhərində “Dark” turizmi perspektiv turizm növü kimi”** məqaləsi ilə professor-müəllim heyəti üzrə I yerin qalibi olmuşdur. Həmin məqaləni müəyyən ixtisar və dəyişikliklə “Şərq qapısı” qəzetinin oxucularına təqdim edirik.

Dünya hərb tarixində yeni səhifə açmış və otuz ildən artıq bir müddətdə erməni işğalı altında qalmış Qarabağın azad olunması ilə nəticələnmiş 44 günlük Vətən müharibəsindən

sonra ötən iki il ərzində yaranmış yeni situasiya təkcə Cənubi Qafqazda sülh və normallaşma istiqamətində görüləcək işlərlə deyil, həm də, eyni zamanda gələcəkdə bu bölgədə yeni münaqişələrin yaranmasına qarşı birdəfəlik sədd çəkəcək olan düşünülmüş addımlar atılmasını zəruri edir. Bu mənada, təkcə az qala yüz əlli ildən artıq müddətdə bu bölgədə hər cür qanlı əməllər, separatizm, terror əməlləri ilə bədnam ad çıxarmış erməni vandalizminə qarşı deyil, eyni zamanda bütün hay xəstəliyinə tutulanları hay-həşirlə qucaqlayanlara da qarşı mübarizə aparan qüdrətli Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət dünya gündəmindəki yerini qoruyur. İşğal sonrası Qarabağda aparılan sürətli quruculuq və bərpa işləri, böyük qayıdışa istiqamətlənən bütün yolların, sözün əsl mənasında, hərtərəfli olaraq hamarlanması ilə yanaşı, işğal gerçəkliklərini, erməni vəhşiliyi bütün dünyaya tanıdacaq olan turizm fəaliyyəti də bu siyasətin bir tərkib hissəsidir. Bu mənada, dünya turizm leksikonuna **“Dark”, yəni “Qaranlıq turizmi”** adı ilə düşmüş turizm növünün Şuşada və bütün işğaldan azad edilmiş Qarabağda tətbiq olunması erməni vandalizminin qara izlərini bütün dünya səyyahlarının gözü önünə sərəcək.

“Qaranlıq turizmi” xüsusi bir növ kimi təbii fəlakətlər, texnogen qəzalar, terror, işğal və müharibə baş vermiş ərazilərə səfər etmiş turistlərdə təəssüf, qorxu və buna bənzər dərin düşüncə formalaşdırmaqla, əslində, turizmin humanitar gücünü bir daha ortaya qoyan bir fəaliyyətdir. Bu mənada, 1988-ci ildən Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarından başlayaraq keçən otuz ildən artıq bir müddətdə ölkəmizin Qarabağ və ona bitişik ərazilərində xalqımıza qarşı törətdiyi **terror, işğalçılıq, vandalizm, talançılıq, genosid, ekosid, urbisid** hadisələrinin nəticələrini yerində görmək üçün bu bölgəyə səfər edən yerli və əcnəbi turistlərə belə məzmunlu turların təşkili, fikrimizcə, erməni xislətinin bütün dünyaya faş edilməsi baxımından tutarlı ideyadır. Erməni işğalı dövründə

Qarabağın yerləyeksan olunmuş şəhər və kəndləri, talan edilmiş maddi sərvətləri, vandallığa məruz qalmış dini-mədəni obyektləri, məhv olunmuş fauna və florasından nümunələr saxlanılmaqla onların gələcəkdə maddi sübutlar kimi ölkəmizə səfər edən elm adamları, diplomatlar, mədəniyyət xadimləri, jurnalistlər və ya, sadəcə, həvəskar turistlərə təqdim olunmaqla ölkəmizə qarşı davam edən haqsız ikili standartlara da tutarlı cavab vermək mümkündür.

"Qaranlıq turizmi" qeyri-adi turizm növüdür. Belə ki, burada digər turizm növlərinin əksinə olaraq istirahət, rekreasiya və ya əyləncə yoxdur. Bu isə turizm sənayesinin əsas gəlir sektoru olan əyləncə sahəsini bu turizm növündə tətbiqini zəiflədir. Bu turizm növü üzrə akademik araşdırmalara baxdıqda burada insanların **səyahətin "qara üzünə"** şahidlik etmək kimi motivlərinin əsas olduğunu görürük. Turizmin bu növü dünyada bir çox yerlərdə, əsasən də, Avropa ölkələrində hələ XX əsrin sonlarından başlayaraq yayılıb. Son otuz il ərzində keçmiş SSRİ ərazisində yaranan separatçılıq hərəkətləri və onların nəticəsində hələ də davam edən qanlı toqquşmaların törətdiyi dağıntı və faciələr, təəssüf ki, "Qaranlıq turizmi" üçün yeni destinasiyalar yaratmışdır ki, bunlardan biri də 30 ilə yaxın müddətdə erməni işğalı altında qalmış Azərbaycanın Qarabağ bölgəsidir.

İşğaldan azad olunmuş Qarabağda "Qaranlıq turizmi"nin təşkili üçün kifayət qədər özünəməxsus əsaslar vardır. Belə ki, Qarabağın keçmiş sovet dönəmində mövcud olmuş böyük turizm potensialı, Azərbaycan Respublikasına üz tutan turistlərin böyük əksəriyyətinin bu cazibədar regiona səfər etməsi burada turizmin müxtəlif növlərinin inkişafı üçün geniş zəmin yaradırdı. Hələ 1988-ci ilə qədər Qarabağda mövcud olmuş turizm infrastrukturu, buradakı təbii və tarixi mədəni turizm ehtiyatları hər il çox sayda turistin mənalı asudə vaxt keçirməsinə imkan verirdi. Füsunkar təbiət, gözəl iqlim, zəngin mədəniyyət Qarabağın ümumi turizm cazibəsini

müəyyən edən amillərdən idi. Ermənistanın ölkəmizə qarşı təcavüzü nəticəsində isə Qarabağda bütün mülki infrastruktur, təbii və tarixi mədəni sərvətlər tamamilə dağıdılmışdır. Buna görə də mədəniyyət paytaxtımız Şuşada, **"Qafqazın Xirosiması"** adlandırılan Ağdamda, tamamilə dağıdılmış Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda və digər rayonlarda törədilmiş cinayətlərin bilavasitə insanlığa nümayiş etdirilməsi üçün beynəlxalq təcrübə olan "Qaranlıq turizmi"nin gücündən istifadə etmək olar.

Şuşa şəhəri Qarabağın və bütün Azərbaycanın incisi, qədim mədəniyyət mərkəzidir. Şuşanın turizm potensialı, ümumilikdə, bütün Qarabağın turizm potensialı ilə birlikdə ölkəmizin ümumi turizm potensialının mühüm bir hissəsini təşkil edir. Keçmişə bir daha nəzər salsaq, görərik ki, Şuşanın turizm potensialı hələ erməni işğalına qədərki dövrdə yüksək tələb görmüş və təkcə Şuşaətrafı istirahət və rekreasiya komplekslərindən hər il on minlərlə yerli və əcnəbi turist istifadə etmişdir. Şuşaya olan turist marağının keçmişdəki kimi, indi də yüksək səviyyədə olduğunu nəzərə alsaq, işğaldan sonrakı dövrdə də burada bir çox istiqamətlərdə turizm səfərlərinin həyata keçiriləcəyini düşünmək mümkündür. Belə ki, Şuşa artıq mühüm beynəlxalq görüşlərin keçirildiyi işgüzar turizm mərkəzi, dünyada şöhrət qazanan festivalların keçirildiyi yer kimi tanınmış, Azərbaycan musiqi mədəniyyətinin paytaxtı kimi çox sayda incəsənət xadiminin ziyarət etdiyi bir məkana çevrilmişdir. Ölkəmizə gəlmiş dövlət başçılarının, diplomatların və media nümayəndələrinin böyük maraqla səfər etdiyi Şuşada tematik turlar kimi "Qaranlıq turizmi" məkanlarının seçilməsi də səyahətini pozitiv elementlərlə zənginləşdirmək istəyənləri təəssüfləndirmək deyil, onlara bu mühüm mədəniyyət mərkəzinin erməni işğalından gördüyü zərərlər haqqında da gerçək məlumatlar verilməsi baxımından əhəmiyyətlidir.

İşğal dövründə ermənilər Qarabağın mədəni mirasına ciddi zərər vurublar. Belə ki rəsmi hesabatlara əsasən ermənilər Laçın rayonunda 74, Kəlbəcərdə 91, Qubadlıda 71, Cəbrayılda 93, Zəngilanda 56, Füzulidə 71, Ağdamda 140, Xocavənddə 93, Şuşada 215, Xocalıda 28 tarix və mədəniyyət abidəsinə zərər vurublar. 1992-ci ilin 8 mayından 2020-ci ilin 8 noyabrınadək erməni işğalında qalmış Şuşaya da ciddi zərərlər dəymiş, şəhər erməni vandalları tərəfindən dağıdılmış, buradakı Azərbaycan xalqına məxsus olmuş maddi mədəni abidələr təhqir edilmişdir. Ermənilər bütün Qarabağ ərazisindəki 63 məsciddə olduğu kimi, Şuşadakı məscidlərdə də dağıntılar törətmiş, Azərbaycanın incəsənət xadimlərinin büstlərini güllələrlə zədələmişlər. Şuşa şəhərində erməni vandalizminə məruz qalan qədim yaşayış binaları, tarixi-memarlıq nümunələri və mədəniyyət ocaqlarından XVIII əsrə dair Şuşa qalasının divarlarını, Pənah xanın sarayı və kitabxanasını, İbrahim xanın bürcü və qəsrini, Xan sarayı və karvansarayı, Molla Pənah Vaqifin mədrəsə və türbəsini, Yuxarı məscid mədrəsəsini, Hacıqulların malikanəsini, ikimərtəbəli karvansarayı, Mehmandarovların malikanə kompleksini, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidlərini, Xurşidbanu Natəvanın evi və bulağını, Əbdürrəhim bəy Haqverdiyevin, Qasım bəy Zakirin, Mir Möhsün Nəvvabın, Süleyman Sani Axundovun, Nəcəf bəy Vəzirovun, Yusif Vəzir Çəmənzəminlinin, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin, Xan Şuşinskinin, tarzən Sadıqcanın evlərini, Mamay bəyin evini, məscidi və bulağı, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeylərini, Şirin su hamamını və digərlərini göstərmək olar. İşğal dövründə Şuşada məskunlaşmış az sayda olan ermənilər burada müvəqqəti qalacaqların bildikləri üçün şəhərin inkişafı naminə heç bir iş görməmiş, əksinə, burada əsl soyğunçuluqla məşğul olmuşlar.

“Qaranlıq turizmi” erməni xislətinin əsl mahiyyətinin daha geniş şəkildə üzə çıxarılması baxımından tutarlı vasitələrdən biridir. Qarabağ probleminin artıq həll olunduğu, lakin **revanşizmə** qarşı ideoloji mübarizənin hələ də davam etdiyi bir zamanda qonşularına qarşı nifrət və terror ruhunda

yaşayan ermənilərə bundan sonrakı dövrdə beynəlxalq aləmdə tutarlı cavab verilməsi baxımından Şuşa şəhərində və eləcə də bütün Qarabağda və onun ətrafındakı ərazilərdə, hətta 44 günlük Vətən müharibəsi dövründə işğalçı erməni ordusunun Ermənistan ərazisindən atdığı uzunmənzilli raketlərlə Gəncədə, Bərdədə və digər şəhərlərdə mülki əhaliyə qarşı törədilmiş cinayətlərin izləri "Qaranlıq turizmi" obyekti kimi, ölkəmizə gəlmiş turistlərə təqdim oluna bilər.

Nəticədə isə otuz ildən artıq bir müddətdə ərazisinin 20 faizi erməni işğalı altında qalmış Azərbaycan Respublikası öz torpaqlarını düşməndən azad etdikdən sonra və kommunikasiyaların bərpası və sülh danışıqları istiqamətində qəti addımlar atdığı bir şəraitdə beynəlxalq ictimaiyyətin diqqətini torpaqlarımızda müharibə, qorxu, faciə və dağıntı fraqmentlərinin izlərinin yaşadıldığı nöqtələrə, yəni erməni vandalizminin izlərinə yönəltməklə ölkəmizin 30 il ərzində erməni işğalı nəticəsində itirdiyi gəlirlərə görə işğalçı dövlətə qarşı təzminat tələbini daha da qüvvətləndirə, işğalçının əsl simasını dünyaya daha yaxşı tanıda və erməni revanşizminin havadarlarına, onu bəsləyən qüvvələrə qarşı güclü zərbə vura bilər.

***"Şərq qapısı", 16 noyabr 2022-ci il***

***https://www.serqqapisi.az/xeberler/sulhsever-dunya-ermeni-vandalizminin-qara-izlerine-qaranliq-turizminin-gozleri-ile-baxacaq***

# Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutu

***İkinci hissə***

Ölkəmizdə elə turizm marşrutları vardır ki, bu istiqamətdə səyahət edən turistlər üçün dünyanın başqa yerlərində eyni anda çox çətin rast gələ biləcəkləri heyrət, təəccüb hissləri ilə yanaşı, eyni zamanda qorxu, təəssüf və pis əməllərə qarşı nifrət hissləri yaradan təəssüratlar da formalaşır.

Azərbaycanın incisi, Qarabağın ürəyi sayılan Şuşa


Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutu... - Əli Cabbarov yazır

26-11-2022 [16:10]

Əli Cabbarov,

Naxçıvan Dövlət Universitetinin dosenti

***

ikinci hissə,

Əvvəli 10 may 2021-ci il tarixdə

https://www.mia.az/w1013966/naxcivan-zengezu
susa-turizm-marsrutu-i-hisse-2021-05-10-17142

şəhəri istiqamətində mövcud olan təbiət gözəllikləri ilə yanaşı, bədnam ermənilərin bu torpaqları işğal altında saxladıqları 30 ilə yaxın bir müddətdə törətdikləri bütün qeyri-insani hərəkətlərin nəticəsini görən hər bir səyahətçi məhz bu hisslərlə evinə qayıdır. Xüsusən Naxçıvandan başlayaraq Zəngəzurdan keçməklə və Arazboyunca Zəngilan, Cəbrayıl və Füzuli rayonlarının işğal altında qalaraq erməni vəhşiliyinə düçar olmuş ərazilərini görən insanlar daha sonra Əhmədbəyli yaşayış məntəqəsindən başlayaraq Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarından keçən Zəfər Yolu boyunca Şuşa şəhərinə qədər, təxminən, 100 kilometrlik güzərgahın az qala hər metrində bu cür sarsıntılı hisslər yaşayırlar. Əslən Qarabağdan olan, uşaq və gənclik illəri burada keçmiş insanların 30 ildən sonra doğma torpaqları görmək üçün səbirsizliklə yola çıxdığı

**Şuşa marşrutu** nə qədər həyəcanlıdırsa da, ömründə bu torpaqları heç görməmiş, keçmişdə burada mövcud olmuş inkişaf, zəngin təbii və tarixi-mədəni gözəlliklər haqqında yalnız tarix kitablarından oxumuş insanlar üçün də erməni vandalizminin izlərini görmək bir o qədər də sarsıdıcıdır. Bu vəhşiliyin izləri zombi filmlərindəki qorxu səhnələri qədər ürəyi zəif insanlar üçün, sözün əsl mənasında, tükürpədicidir.

Amma bununla yanaşı, gözəl Vətənimizin bu dilbər guşəsinə səyahət etmək hər bir insanın, xüsusən ürəyi Azərbaycan, Can Azərbaycan eşqi ilə yanan hər bir vətənpərvər türk övladının qəlbində ən yaddaqalan hisslər yaradır. Zəfər Yoluna çatmamış, yəni düşmən işğalından azad olunmuş ilk yaşayış məntəqələrindən olan Alıxanlı kəndindəki hər yerdə rast gəlinən yüksək sosial-iqtisadi inkişaf, gülərüz insanların həyat tərzi, abadlaşan kənd və şəhərlər, əslində, Qarabağın keçmişi barədə də insanda kifayət qədər təsəvvür yaradır. Ancaq cəmi iki-üç kilometr keçəndən sonra yəni 2020-ci ilin 27 sentyabrınadək mövcud olmuş qoşunların təmas xətti və şanlı Azərbaycan Ordusunun bir həmləsi ilə yarılmış dırnaqarası Ohanyan səddi arxada qalandan sonra sanki dəhşətli vulkan küllərinin altında qalmış **Pompeyi**, yaxud atom bombasının partlayışından sonrakı **Xirosimanı** xatırladan bir mənzərə göz önünə açılır. Bir zamanlar, yəni 1990-cı illərə qədər abad, əkilib-becərilən olmuş torpaqlardakı geniş üzüm bağlarının izlərini xatırladan **beton dirəklər "meşəsi"ni** gördükdə erməni quldurluğu haqqında təsəvvürlər real olaraq göz önünə çıxır. Füzuli şəhərinə çatana qədərki yolda və şəhərin özündə olan belə dağıntılarda diqqəti cəlb edən məqamlardan biri bütün qəsb olunmuş evlərin ya tamamən sökülməsi, ya da divarların künclərinin **"erməni səliqəsi"** ilə yox edilməsidir. Bu mənada, fikrimizcə, özlərini dünyanın ən məzlum toplumu kimi qələmə verib, şivən qoparan **hay sürüsünün** dağıtdıqları Azərbaycan kəndlərindəki evlərin künc daşlarına qədər tamah salması faktlarının turistlərə çatdırılması

məsələləri gələcəkdə turizm araşdırmaçılarının əsas tədqiqat predmetlərindən biri olacaqdır.

Naxçıvandan gələn turistlərin Zəfər Yolu ilə Şuşaya çatması, təxminən, 12-13 saata başa gəlir. Naxçıvandan Bakıya uçuş və Bakı-Şuşa avtobusları ilə 400 kilometrlik yolu gediş-dönüşü nəzərə aldıqda bu müddət çox da uzun görünməməlidir. Ancaq gələcəkdə Zəngəzur dəhlizi açıldıqdan sonra bu müddət, təxminən, 6-7 saata qədər azala bilər. Belə ki, turistlər üçün Qərbi Zəngəzurdan keçdikdən sonra Ağbənd-Mincivan-Zəngilan Beynəlxalq Hava Limanı-Füzuli marşrutu üzrə Şuşaya çatmaq daha qısa müddətə başa gələcəkdir. Qeyd edək ki, bu marşruta alternativ olaraq gələcəkdə Zəngilan-Qubadlı-Laçın-Turşsu-Şuşa marşrutu da istifadə oluna bilər. İstənilən halda bu dəhliz boyunca Naxçıvandan başlayaraq keçən yoldakı zəruri dayanacaqları da nəzərə alsaq, bu müddət nisbi olaraq dəyişilə bilər. Bütün yol boyunca aparılan təqdimatlarda isə 44 günlük Vətən müharibəsində Şanlı Azərbaycan Ordusunun qəhrəmanlıq dastanını özündə yaşadan hər bir yüksəkliyin, daşın, ağacın hekayəsi ilə tanış olmaq mümkündür. Ayrıca olaraq, **Zəfər Yolunda** iz qoymuş qəhrəman əsgərlərimiz qədər, Böyük Qələbədən sonra bir ildən də az olan qısa bir müddətdə bu yolu inşa etmiş **ölkəmizin iqtisadi gücü** haqqında da gözəl təsəvvür yaranır. Əgər marşrut boyunca səyahət yoldaşlarınızdan işğaldan qabaq bu bölgədə yaşamış insanlar da vardırsa, bu, turistlər üçün "dünən və bu gün" körpüsündə daha dərin təsəvvür əldə etmək və fərqli təhlillər, müqayisələr aparmaq baxımından əla fürsət olacaqdır. Ona görə də **Şuşa turunda iştirak edən hər bir turistin** turun bələdçisi və sürücüsünün fikirləri qədər qiymətli düşüncələrinin olduğunu qeyd etmək yerinə düşər.

Marşrut boyunca turistlər bələdçinin Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisində mövcud olan tarixi məkanlar, qədim Azıx mağarası, həmçinin yeni inşa olunmuş Füzuli Beynəlxalq Hava Limanı, buradan keçən

yüksəkgərginlikli enerji infrastrukturu, tunellər, viaduklar və müxtəlif təyinatlı digər yeni tikililər barədə məlumatlarını maraqla dinləyirlər. Füzuli şəhəri, Böyük Tağlar kəndi, Topxana meşəsi və Daşaltı kəndindən keçərək Şuşaya yaxınlaşdıqca hər kəsin təsəvvüründə 44 gün ərzində belə dağlıq relyef şərtlərində düşməni əzə-əzə keçməyin nə qədər çətin, amma o qədər də fərəhverici olması barədə hisslər yaranır. Dünyanı heyrətə salıb qəhrəmanlıq göstərən Şuşa fatehlərinin açdığı Zəfər Yolu ilə irəlilədikcə turistlər keçilməz kimi görünən yüksəkliklərin və sərt yamacların Vətən sevgisi qarşısında necə zəif qaldığına bir daha şahid olurlar. Şuşaya yaxınlaşdıqca sol tərəfdə Şuşa və Turşsu arasında yerləşən Böyük Kirs zirvəsi Qarabağın ən önəmli strateji nöqtələrindən biri kimi uzaqdan diqqəti cəlb edir. Deyilənə görə, Xan qızı Natəvan bu dağdan Şuşa şəhərinə saxsı borularla su çəkdiribmiş. Artıq Daşaltının görünməsi ilə turistlər bir anda Şuşa cazibəsinin sehri altına düşürlər.

Daşaltı Şuşaya çatmamış bu marşrutun ən cazibədar elementlərindən biridir. Şuşanın cənubunda, Cıdır düzündən aşağıda, Daşaltı çayının sahilində yerləşən eyniadlı kənd sirlərlə doludur. Daşaltı Şuşanın təbii qalasının — nəhəng qayalığın altında yerləşdiyindən belə adlanır. Deyilənə görə, Cıdır düzündən Daşaltı çayının sahilinə qırx pilləkən enir. Orada böyük Daşaltı mağarasının bir hissəsi olan "Xəzinə-qala" da var. Yaxın keçmişdə isə Daşaltı kəndi hələ Birinci Qarabağ müharibəsi dövründə burada aparılmış qanlı hərbi əməliyyatlarla yadda qalmışdır. 44 günlük şanlı Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması



ilə Daşaltı şəhidlərimizin də qisasının alınması Şuşa yolunda irəliləyən turistləri həyəcanlandıran ən qabarıq hisslərdəndir. Buna görə də Şuşaya çatmamış Daşaltı kəndinin qeyri-adi mənzərəsi, burada yaşamış olan insanların tarixi və mədəniyyəti ilə bərabər, torpaqlarının azadlığı üçün ölümə meydan oxuyan şanlı Azərbaycan əsgərinin qəhrəmanlıq hekayəsi maraqla dinlənilir. Turistləri daşıyan nəqliyyat vasitəsi Daşaltı dolayları ilə qalxdıqca bu məlumatların çatdırılması üçün əla fürsətlər yaranır.

Şuşa şəhəri marşrutun son nöqtəsi, ən cazibədar turizm destinasiyasıdır. Şuşa Vətənin alınmaz qalası, Qarabağın incisi, bütün dünya azərbaycanlılarının otuzillik həsrətinin sona çatdığı yer deməkdir. Odur ki, Şuşaya, xarıbülbülün məskəninə ilk ayaq basdıqda insanın ürəyində Cıdır düzünün sərt yamaclarından quşbaxışı görünən dərin Daşaltı çayından başlayaraq qarşıdakı Kəlbəcər dağlarına və Xankəndini




qucaqlayan zirvələrədək hər yerdə süzən azad qartalların məskənində yaşamaq hissləri baş qaldırır. Şuşanı fəth edib, Qarabağın sahibi olmaq kimi belə ülvi hissləri insanda yaşadan əziz şəhidlərimizin ruhları qarşısında bir daha baş əymək, onlara sonsuz minnətdarlığımızı bildirmək üçün bu zirvələrə qalxmaq hər bir azərbaycanlının çatmaq istədiyi bir arzudur. Bu mənada, Mədəniyyət Paytaxtımız Şuşa ilə tanışlıq hər bir insanın yaddaşında uzun illərboyu unuda bilməyəcəyi dərin təəssüratlar yaradır.

Cıdır düzündə doyunca gəzib-dolaşan turistlər buradan ətrafa açılan təbii gözəllikləri fotoyaddaşlara köçürdükdən sonra onları qarşıda Şuşanın tarixi-mədəni zənginlikləri ilə maraqlı tanışlıqlar gözləyir. Bu mənada, Şuşaya gəlmiş turistlər çox şanslıdırlar. Bir-birindən çox da uzaqda olmayan bu

zənginliklər təbiət, tarix və mədəniyyət harmoniyasında insanların mənəvi aləminin və ümumi dünyagörüşünün daha da dərinləşdirilməsində çox faydalıdır.

Şuşa dünyanın unikal şəhərlərindən biridir. Belə ki, dəniz səviyyəsindən, təxminən, 1400 metr yüksəklikdə yerləşən Şuşada 17 məhəllə, 17 hamam, 17 bulaq, 17 məscid vardır. Şuşa tarixi mərkəz kimi Qarabağ xanlığının həyatında mühüm rola malik olub. Hələ o vaxtlar Şuşanın gümüşdən açarları və öz pul vahidi olmuş, burada gümüş pullar zərb edilmişdi. Şuşaya gəlmiş turistlər bilməlidirlər ki, istər Qarabağ xanlığı dövründə, istərsə də sonrakı dövrlərdə Şuşa qalası istər rus, istərsə də erməni işğalçılarına qarşı inadla müqavimət göstərib və bu gün xalqımızın maddi və mədəni sərvətlərinin mühafizə olunduğu etibarlı yaddaşa çevrilib. Bu yaddaş Qarabağ torpağının yetirmələri olan onlarla tanınmış şəxsiyyətlər, elm, mədəniyyət və incəsənət xadimləri, generallar, memar və mühəndislərin həyat və fəaliyyəti, onların xidmətləri ilə sənədləşdirilib, tarix səhifələrinə köçürülüb. Odur ki, Şuşaya səfər etmiş turistlər burada Şuşa mağarası, Cıdır düzü, Topxana, Qala divarları və Qala qapısı, zindanlar, karvansaralar, Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Hacıqululların, Zöhrabbəyovların, Mehmandarovların, Xanbikə xanımın, Əsəd bəyin malikanələrini, İsa bulağını, Xan qızının evi və bulağını ziyarət edərək öz təəssüratlarını dərinləşdirə bilərlər. Şuşada olarkən turistlər Vaqifin məqbərəsini ziyarət edə, 1992-ci ildə şəhərin işğalı zamanı vandalizmə məruz qalmış Azərbaycan mədəniyyətinin tanınmış simaları Xan qızı Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin büstlərinə yaxından baxa bilərlər. Hazırda turistlər Şuşada



olarkən qala divarlarının fonunda fotoşəkil çəkdirib, şəhərin panoramı ilə tanış olmaqla asudə vaxtlarını daha mənalı keçirə bilirlər. Ayrıca olaraq azad Şuşaya səyahətdən qayıdarkən turistlər hədiyyə olaraq Xan qızı Natəvanın bulağından bir içim su və **Daşaltıdan biri neçə qaya parçası** da götürməklə təəssüratlarını doğmaları ilə bölüşə bilərlər. Beləcə, Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutu üzrə səyahət edən turistlər günün sonunda doğma Qarabağ torpağında yeni bir gündə insanları salamlamaq üçün qüruba yollanan **Günəşlə vidalaşıb**, tur qrup üzvlərindən də təzə dostlar qazanırlar. Qarşıda isə bu insanları  Böyük Qayıdış gözləyir.




Ulu öndər Heydər Əliyev **"Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan ola bilməz",** — demişdir. Bu gün isə bütün Azərbaycanın dilində bir şüar vardır: **"Şuşa bizimdir, Qarabağ Azərbaycandır!"** Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Böyük Qələbə münasibətilə verdiyi **"Əziz Şuşa biz, qayıtmışıq!"** müjdəsindən sonra yaranmış yeni reallıq isə addım-addım bizi tarixi torpaqlarımız Zəngəzura da qayıdacağımız günə yaxınlaşdırır.

Həmin gün Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutu hər kəsin ən rahat güzərgahı olacaq.

***"Şərq qapısı", 26 noyabr 2022-ci il***
***https://www.serqqapisi.az/xeberler/naxcivan-zengezur-susa-turizm-marsrutu***
***https://www.mia.az/mobil/1041456***

# Mündəricat


Ön söz 3
Erməni terrorizmi və onun təbligat eybəcərlikləri 5
Bu yol Şuşa yoludur 9
Azərbaycan əsgəri dünyanı erməni faşizmindən xilas edəcək... 10
Sahibsiz qalmış Mişa yaxud erməni xislətinin acı sonluğu 14
Qubadlı aşı *(esse)* 17
Torpağıma dönəcəyim gün gələr! 19
Bakı-Xankəndi-Şuşa turizm marşrutu 20
Doğma torpaqlara qayıdanda müqəddəs Əshabi-Kəhfdən torpaq aparacağıq ki, paklaşsın 25
Əsgərlərimizdə həmişə böyük ruh yüksəkliyi var idi 29
Yeddi uşaqlı Sarkisin Kəlbəcər günləri 31
İşğal sonrası Qarabağ iqtisadiyyatı və turizmin inkişafı 34
Erməni xəstəliyi: simptomları, müalicəsi 41
Naxçıvan Dəmir Yolu dünya şəbəkəsinə qoşulmağa tam hazırdır 46
Əsir çinarın hekayəsi *(esse* 52
Kimsəsiz Marta... 54
Dəmir yumruq 56
Qars müqaviləsindən Zəngəzur dəhlizinə aparan Böyük Türk qapısı — Naxçıvan 60
Yumurta “Komandosu” 65
Qoyunların “Mets Egerni” 67
Naxçıvan - Zəngəzur - Şuşa turizm marşrutu *(I hissə)* 70
Marsın qəzəbi, yaxud ermənilərin cəhənnəm hekayəsi 84
Ermənilərin çin olmayacaq yuxuları və ya “hay həyatı” 88
Sarkis and his lovely water-closet pan 92
Şuşa gözəldir… 96
“Big Bang”dən sonrakı gerçək həyat yaxud Marseldən Marsa uçan boş xəyallar 101
Erməni faşizminin qanlı silahlarının sərgiləndiyi Hərbi Qənimətlər Parkı 104
Gözəlin göz yaşları və Allaha tapşırılan Nataşa 108
Şuşanın novruz büsatı *(esse)* 112

Ohanyan “səddi” 114
Mən Şuşama vurğunam 119
Sülhsevər dünya erməni vandalizminin qara izlərinə
“Qaranlıq turizmi”nin gözləri ilə baxacaq 120
Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutu (*ikinci hissə* 126

QEYD

**Əli Cabbarov**

**Bu yol**
**Şuşa yoludur**

***Publisistik məqalələr toplusu***

Çapa imzalanmış 13.12.2022.
Formatı 64X90 1/16 “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 8.5ç.v.
Sifariş № 1122 Tiraj 20 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 14